www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 may 2018-ci il Çərşənbə axşamı № 105 (6994) Qiymətı 60 qəpik

## Xəbər

### İmtahanda az bal yığan 2 abituriyent intihar etdi - valideynlərə SOS!

yazısı səh.2-də

## Gündəm

### Açıq dənizlərə çıxışı olmasa da, Azərbaycan nəqliyyat və logistika mərkəzinə çevrilir



**Azərbaycan prezidenti:** "Biz Ələt Azad İqtisadi Zonasının yaradılmasına başlayacağıq, ... Ələt ölkəmizin iqtisadi nəqliyyat potensialının inkişafında önəmli yer tutacaq"

yazısı səh.3-də

### Turizmdən milyardlar qazanmaq üçün nə etməli...

yazısı səh.7-də

### ABŞ-ın Rusiya və İrana "təyyarə hücumu" başladı

yazısı səh.9-da

### Jirinovskidən şok sayıqlamalar: "Türkiyə parçalanacaq"

yazısı səh.10-da

### Ermənistanın "başından böyük danışan" baş nazirinin 2 xətası

yazısı səh.11-də

### İnqilab Ermənistandan Gürcüstana keçir?

yazısı səh.9-da

### Hesablama Palatası DSMF-nin idarəsində yoxlamaya başladı

yazısı səh.2-də

### Restoranlar nazirliyin xəbərdarlığını ciddiyə alacaqmı...

yazısı səh.12-də

### Emin Milli Əli Kərimli və Cəmil Həsənlini debata çağırdı - qarşıdurma güclənir

yazısı səh.4-də

### "Lənkəranskini mən öldürmüşəm" - Sankt Peterburqdakı qətlin sirləri

yazısı səh.13-də

### Çin liderini Putindən önə keçirən səbəblər

yazısı səh.13-də

# SOÇİDƏ KRİTİK GÖRÜŞ: PUTİN TƏLİMAT, PAŞİNYAN SÖZ VERDİ

Kreml başçısı yeni erməni baş nazirini "dişinə vurdu" və "Yol xəritəsi" cızdı; Paşinyan Rusiyadan xarici investorlara səsləndi; müharibə-blokada şəraitində, Rusiya asılılığında olan ölkəyə yatırım qoyan tapılacaqmı



yazısı səh.8-də

## İfşa olunan "dərman mafiyası"nın açar fiquru danışmağa qərar verdi

DGK-nın general-mayoru Fikrət Qədiməliyev istintaqla əməkdaşlığa razılıq verib; korrupsiya ilə mübarizə çərçivəsində gömrük orqanlarının 10 əməkdaşının işi prokurorluq orqanlarına göndərilib

yazısı səh.5-də



*Ayaz Mütəllibov:*

### "Mayın 15-də məni zorla hakimiyyətdən uzaqlaşdırdılar"

yazısı səh.6-da



### Anar Məmmədovun Hadisəyə bağışladığı plyaj dağıdıldı - qanunsuz imiş

yazısı səh.4-də



*Qabil Hüseynli:*

### "Sübut olunacaq ki, dar gündə İran üçün Azərbaycan nə qədər vacibdir"

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 105 (6994) 15 may 2018




## Hesablama Palatası DSMF-nin Hərbi Qulluqçular və Xüsusi Rütbəli Şəxslərlə İş İdarəsində yoxlamaya başladı

**Hesablama Palatası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Hərbi Qulluqçular və Xüsusi Rütbəli Şəxslərlə İş İdarəsində nəzarət tədbiri həyata keçirir.**

Hesablama Palatası "APA-Economics"in sorğusuna cavab olaraq bildirib ki, bu il aprelin 2-dən nəzarət tədbiri başlanılıb və may ayının sonunda başa çatdırılması nəzərdə tutulub.

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Hərbi Qulluqçular və Xüsusi Rütbəli Şəxslərlə İş İdarəsində nəzarət tədbiri 2017-ci ilin dekabr ayında təsdiq olunmuş "Azərbaycan Respublikasının Hesablama Palatasının 2018-ci il üçün iş planı"na uyğun olaraq həyata keçirilir", - deyə məlumatda vurğulanıb.

Nəzarət tədbirinin nəticələri Hesablama Palatasının kollegiya iclasında müzakirə edilərək təsdiq olunduqdan sonra qanunvericiliklə müəyyən edilmiş qaydada açıqlanacaq.

## Hava limanlarında viza verilməsinə başlanılır

**Mayın 15-dən etibarən 15 dövlətin vətəndaşları Azərbaycanın hava limanlarında "ASAN Viza" sistemi ilə viza ala biləcəklər. APA-nın xəbərinə görə, bu yenilikdən Qətər, Oman, Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt, Yaponiya, İndoneziya, İran, Çin, Cənubi Koreya, Malayziya, Sinqapur, Türkiyə, İsrail və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) vətəndaşları faydalana biləcəklər.**

Qeyd edək ki, 2017-ci ilin yanvar ayından "ASAN Viza" sistemi vasitəsilə əcnəbilərə 3 saat ərzində elektron vizalar verilir və bunun müqabilində 20 ABŞ dolları məbləğində dövlət rüsumu alınır. Bu ilin mayına kimi 420 minə yaxın əcnəbiyə "ASAN Viza" sistemi vasitəsilə elektron viza verilib.

# İran prezidentinin Paşinyanla telefon danışığı birmənalı qarşılanmır

## Qabil Hüseynli: "Qarşıdakı proseslərdə bir daha sübut olunacaq ki, dar gündə İran üçün Azərbaycan nə qədər vacibdir"

**Ermənistanın baş naziri Nikol Paşinyanla İran prezidenti Həsən Ruhani arasında telefon danışığı baş tutub. Bu barədə Ermənistan hökumətinin mətbuat xidməti məlumat yayıb.**



Bildirilib ki, tərəflər iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərini, eyni zamanda beynəlxalq siyasi məsələləri müzakirə ediblər.

Məlumata görə, rəsmilər İranın nüvə proqramı ətrafında da fikir mübadiləsi aparıblar. Ruhani və Paşinyan gələcək görüş proqramları barədə də razılığa gəliblər.

Qeyd edək ki, işğalçı Ermənistanda inqilab nəticəsində hakimiyyət dəyişikliyi və Nikol Paşinyanın mayın 8-də baş nazir seçilməsindən sonra Paşinyanı ilk təbrik edən Rusiya prezidenti Vladimir Putin oldu. İranın prezidenti isə birbaşa telefon bağlantısı vasitəsilə münasibətini ifadə etdi.

**Bu barədə "Yeni Müsavat"a şərhində politoloq Qabil Hüseynli bildirdi ki, əslində İran prezidenti ilə Ermənistanın yeni baş naziri arasında danışıq olması təəccüblü deyil. 25-26 ildir ki, İran Ermənistan üçün yeganə nəfəslikdir. Bunu hətta iranlıların özləri də etiraf edirlər:** "İran Ermənistanın ayaq üstə durmasına, əhalisinin aclıqdan qırılmasının qarşısını almağa kömək edən əsas dövlətdir. Bu məsələlərdə İran Ermənistana Rusiyadan da çox kömək edir. Rəfsəncaninin prezidentliyi dövründən indiyə qədər İranda kimin prezident olmasından asılı olmayaraq belədir. Onlar həmişə Ermənistanı özlərinə dost ölkə sayıblar. Lap yaxınlara qədər belə hesab edirdilər ki, Avropa bazarlarına çıxış üçün Ermənistandan şose yolu, qaz kəməri çəkilişi həyata keçirilməlidir. Bir ara bu cür mümkün olmayan variantlar ortaya atılmışdı. Ermənilər də buna xeyli sevinmişdilər.

Təəssüf ki, müsəlman dövləti olan Azərbaycanın ərazilərini işğal etmiş, işğal etdiyi ərazilərdə müsəlman əhaliyə qarşı qırğınlar törətmiş, məscidləri yandırıb dağıtmış Ermənistana İranın münasibəti adekvat deyil.

İranla Azərbaycan arasında bir sıra irimiqyaslı layihələrin həyata keçirilməsinə baxmayaraq, Ermənistanın iqtisadi yükünü Tehran yenə də daşımağa hazır olduğunu bir daha bəyan etmiş olub. Prezident Ruhaninin Ermənistanın yeni baş naziri Paşinyanla telefon danışığı və erməni baş naziri təbrik etməsi bu və digər sadalamadığım məsələlər baxımından təəccüblü deyil. Təbrik olmasaydı təəccüblü olardı".

**Politoloq vurğuladı ki, qarşıdakı zamanlarda gedəcək qlobal geosiyasi proseslərdə, İranla bağlı proseslərdə bir daha sübut olunacaq ki, dar gündə Azərbaycan İran üçün daha vacib ölkədir, nəinki Ermənistan.**

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

## İmtahanda az bal yığan iki abituriyent intihar etdi - valideynlərə SOS!

**Sumqayıt şəhərində bir gündə iki abituriyent imtahandan sonra intihar edib.**

Sumqayıt şəhərinin 9-cu mikrorayonunda intihar hadisəsi baş verib.

"Report"un Sumqayıt-Abşeron bürosunun məlumatına görə, 2001-ci il təvəllüdlü yerli sakin Pənah Quliyev yaşadığı binanın beşinci mərtəbəsinin eyvanından özünü yerə atıb.

Onun universitetə qəbul olunmaq üçün verdiyi imtahanın aşağı nəticədə olmasına görə intihar etdiyi bildirilir.

"Report"un Sumqayıt-Abşeron bürosunun məlumatına görə, ikinci analoji hadisə şəhər ərazisində yerləşən 14 mərtəbəli binada baş verib.

Belə ki, adı Faiq olduğu deyilən, 17 yaşlı gənc 14 mərtəbəli binanın damına çıxaraq özünü oradan atıb. Onun meyiti "morq"a təhvil verilib.

Faktlarla bağlı araşdırma aparılır.

Nəzərə çatdıraq ki, hər il imtahan sonrası belə özünəqəsdlər olur. Psixoloqlar bildirir ki, imtahanda az bal toplayan abituriyentlərin valideynləri övladları ilə təmkinlə, həssaslıqla davranmalıdır və ona dəstək olmalıdır. Az bal yığdığına görə uşağı məzəmmət etmək, onu diqqətsiz qoymaq yolverilməzdir.

# Məktəbi "5"lə bitirən məzunların yalnız yarısı imtahanlarda attestat qiymətlərini doğruldub

**"Cari ildə abituriyentlər iki dəfə imtahan vermək imkanı əldə ediblər. Hər iki imtahanda iştirak edən abituriyentlərin imtahan nəticələri təhlil olunarkən belə məlum olub ki, abituriyentlərin ikinci imtahandakı nəticələri birinci imtahandakı nəticələrindən nisbətən yaxşı olub və bu imtahanların hər ikisində iştirak edən abituriyentlərin nəticələri arasındakı fərqin orta qiyməti 20.09 bala bərabər olub".**

APA-nın xəbərinə görə, bu məlumat Dövlət İmtahan Mərkəzinin (DİM) nəşr etdiyi "Abituriyent" jurnalının 12-ci sayında əks olunub.

Jurnalda bildirilir ki, abituriyentlərin təxminən 64-65%-nin bu iki imtahanda əldə etdikləri nəticələr arasındakı fərq 50 baldan, 91-92%-nin isə 100 baldan aşağı olub: "Nəticələr arasındakı korrelyasiya əmsalı 0.94-ə bərabər olub".

Qeyd edilib ki, "Abituriyentin ərizəsi" formasına ayrı-ayrı fənlər üzrə attestat qiymətləri də daxil edilir. Ərizədə qeyd olunan qiymətlər əsasında abituriyentlərin orta attestat qiymətləri hesablanaraq, onların qəbul imtahanlarında topladıqları ballarla müqayisəsi aparılıb: "Tam orta məktəbi bütün fənlərdən "3" qiymətlə başa vuran məzunların 96.87%-nin qəbul imtahanlarındakı nəticələri də çox zəif - 0-199 bal intervalında olub. "5" qiymətlə bitirən məzunların isə yalnız 49.97%-i attestat qiymətlərini doğrulda bilib. Bu da məktəblərdə verilən aşağı qiymətlərin obyektiv olduğunu, yüksək qiymətlərin isə nisbətən şişirdildiyini göstərir. Əlbəttə, obyektiv qiymətləndirilmə aparılarsa, təhsilin bir pilləsində əldə olunmuş nailiyyətlər digər pilləyə keçiddə nəzərə alınmalıdır. İndiki halda isə ali təhsil müəssisələrinə qəbul zamanı attestat qiymətləri nəzərə alınaraq bunun əsasında abituriyentin nəticəsinə hər hansı bal əlavə edilərsə, əla qiymətlərini doğrultmayan "əlaçılar" öz biliyi hesabına bal toplayanları sıxışdırıb onları ali təhsil müəssisələrinə qəbulda üstələyə bilərlər. Digər tərəfdən, bu cür addımın subyektivliyə bir qədər də yol açmayacağına zəmanət vermək çətindir. Odur ki, biz məktəb və qəbul göstəriciləri arasında yüksək korrelyasiya (r0.9) olmayanadək attestat qiymətlərinin qəbulda əlavə bal kimi nəzərə alınmasının tərəfdarı deyilik. Qiymətləndirmə ilə bağlı qeyd olunan problem digər amillərlə yanaşı, həm də tam orta təhsil standartlarının yerlərdə eyni qaydada tətbiq edilməməsindən irəli gəlir. Qiymət meyarlarının məktəblərdə bir-birindən ciddi fərqlənməsi nəticəsində eyni hazırlıqlı şagirdin biliyi bir məktəbdə (rayonda) "əla", digər məktəbdə (rayonda) "kafi" qiymətləndirilir. Dövlət İmtahan Mərkəzi ümumtəhsil müəssisələrində qiymətləndirmənin vahid standartlar əsasında aparılması işinə kömək məqsədilə məktəb proqramlarına uyğun olaraq şagirdlərin biliyinin yoxlanılması və qiymətləndirilməsi üçün fənlər üzrə test kitabları nəşr edib. Kitablar Təhsil Nazirliyi tərəfindən dərs vəsaiti kimi təsdiqlənib. Onlarda qiymətləndirmənin 5 və 9 ballıq sistemdə standartları da təqdim olunub ki, hər bir məktəb bunun əsasında öz şagirdlərinin biliyini vahid qiymətləndirmə sistemi ilə ölçmək imkanı əldə etsin".



**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

## İsrail əsgərləri 50-dən çox fələstinlini öldürdü

**Fələstinlilərin ABŞ-ın İsraildəki səfirliyini Qüds (Yerusəlim) şəhərinə köçürməsinə etiraz olaraq keçirdikləri kütləvi aksiyalarda ölənlərin sayı 50 nəfəri ötüb.**

APA-nın "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bu barədə yerli tibb xidmətinin rəsmi nümayəndəsi Əşrəf əl-Kidra məlumat verib. Yaralıların sayı isə 1000-dən çoxdur. Ölənlər arasında uşaqlar da var.

Dünən ABŞ-ın Qüds-Yerusəlim şəhərində səfirlik açmasına etiraz olaraq İsrail və Qəzza zolağı arasındakı sərhədin 12 yerində kütləvi aksiyalar başlayıb. Aksiyalara 35 mindən çox fələstinli qatılıb. İştirakçıların aqressiv hissəsi İsrail əsgərləri tərəfə içərisində yandırıcı maye olan şüşələr, əldəqayırma partlayıcılar atmağa, topladıqları təkərləri yandırmağa başlayıblar, bəziləri isə sərhəd maneələrini aşmağa çalışıb. İsrail əsgərləri onlara odlu silahdan atəş açıb.

İsrail ordusu sərhəd xəttinə 2 əlavə piyada briqadası göndərib. Daha bir briqada İordan çayının qərb sahilinə yeridilib.





# Açıq dənizlərə çıxışı olmasa da, Azərbaycan nəqliyyat və logistika mərkəzinə çevrilir

## **Azərbaycan prezidenti:** "Biz Ələt Azad İqtisadi Zonasının yaradılmasına başlayacağıq ... Ələt ölkəmizin iqtisadi nəqliyyat potensialının inkişafında önəmli yer tutacaq"

**Dünən Ələtdə inşa olunan Bakı Beynəlxalq Dəniz Limanı Kompleksinin açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan prezidenti İlham Əliyev də iştirak edib.**

Mərasim zamanı iqtisadiyyat naziri Şahin Mustafayevin verdiyi məlumatdan aydın olub ki, yeni kompleksin tikintisinə prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı sərəncama əsasən başlanılıb. 2010-cu ilin noyabrında dövlət başçısının iştirakı ilə yeni liman kompleksinin təməli qoyulub. 2014-cü ilin sentyabrında liman qurğularından biri - iki körpüdən ibarət bərə terminalı, bu ilin yanvarında isə iki körpüdən ibarət olan Ro-Ro terminalı istifadəyə verilib. Liman 117 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Limanda Ro-Ro tipli gəmilər üçün iki körpü, yeddi körpüdən ibarət universal quru yük və konteyner terminalı, iki bərə körpüsü, həmçinin xidməti donanma gəmiləri üçün bir körpü inşa edilib.

Yeni liman ötən il istismara verilmiş Bakı-Tiflis-Qars dəmir yolu xətti üçün bilavasitə yükcəmləyici məntəqə funksiyasını yerinə yetirəcək. Beləliklə, Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində cəmlənərək, buradan Bakı-Tiflis-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə Şərq istiqamətində nəql olunmasını təmin edən səmərəli və dayanıqlı logistik zəncirin formalaşdırılması üçün zəmin yaranacaq.

**Açılış mərasimində çıxış edən prezident İ.Əliyev bildirib ki, yeni Bakı limanı Azərbaycanın nəqliyyat potensialının möhkəmləndirilməsində önəmli rol oynayacaq:** "Mən bir neçə il bundan əvvəl limanın tikintisi ilə bağlı qərar qəbul etmişəm. Bilirdim, görürdüm ki, Azərbaycanın çox böyük nəqliyyat və tranzit potensialı olacaqdır, ölkəmiz sürətlə inkişaf edəcəkdir. Belə bir qərarın qəbul edilməsi bir daha göstərdi ki, bizim siyasətimiz uzaqgörən siyasətdir, düşünülmüş siyasətdir. Limanın tikintisi ilə bağlı işlərə mən şəxsən nəzarət etmişəm".

**Prezident limanın yerləşmə məkanı kimi Ələtin seçilməsinin təsadüfi olmadığını qeyd edib:** "Çünki mövcud Bakı Dəniz Limanı bizim tələbatımıza artıq uyğun deyil, şəhərin mərkəzində yerləşir və artan yükləri qəbul etmək imkanları çox məhduddur. Ələt isə coğrafi baxımdan çox əlverişli bir yerdir və həm Qərb, həm Cənub istiqamətinə buradan açılan yollar, o cümlədən avtomobil, dəmir yolları əlbəttə ki, bu yerin seçilməsində əsas rol oynamışdır. Əlavə etsək ki, biz yaxın gələcəkdə Ələt Azad İqtisadi Zonasının yaradılmasına başlayacağıq, deməyə tam əsas var ki, Bakı şəhərinin bu ərazisi gələcəkdə çox sürətlə inkişaf edəcək, çoxsaylı iş yerləri yaradılacaq. Beləliklə, Ələt ölkəmizin iqtisadi nəqliyyat potensialının inkişafında əlbəttə ki, önəmli yer tutacaqdır.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi deməyə əsas verir ki, biz nəqliyyat infrastrukturumuzla bağlı qarşımızda duran bütün vəzifələri icra etdik. Bu günə qədər bu istiqamətdə çox böyük işlər görülmüşdür. Xəzərdə bizim ən böyük donanmamız, 260-dan çox gəmimiz var. Mənə verilən məlumata görə, son bir neçə il ərzində əlavə 18 gəmi alınmışdır. Mənim təşəbbüsümlə Bakıda gəmiqayırma zavodu tikilmişdir. Biz bütün növ gəmiləri istehsal edə bilərik, istehsal edirik və beləliklə, xarici tərəfdaşlardan asılılığı aradan qaldırmışıq".

**Dövlət başçısı deyib ki, Bakı-Tiflis-Qars dəmir yolu tarixi layihədir. Bu layihənin uğurla icra edilməsi nəticəsində Azərbaycan bu bölgədə öz mövqeyini daha da gücləndirəcək:** "Biz hazırda Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuluq və öz ərazimizdə bütün lazımi işləri başa çatdırdıq. Beləliklə, həm Şimal-dan Cənuba, həm Şərqdən Qərbə gedən yollar Azərbaycan ərazisindən keçir və keçəcəkdir. Şimal-Cənub nəqliyyat dəhlizinin tam başa çatması üçün biz əlavə vəsait ayırdıq və əminəm ki, yaxın bir neçə il ərzində bu dəmir yolu tam istifadəyə veriləcəkdir. Beləliklə, Avrasiya məkanında açıq dənizlərə çıxışı olmayan Azərbaycan nəqliyyat və logistika mərkəzinə çevriləcək. Artıq biz bunu görürük və biz bu funksiyanı artıq yerinə yetiririk.

**Prezident bildirib ki, hazırda Azərbaycan Cənub-Qərb nəqliyyat dəhlizinin işə salınması ilə məşğuldur:** "Bu da çox önəmli nəqliyyat dəhlizidir və mənə verilən məlumata görə, birinci sınaq qatarı artıq bu yolla hərəkət edib. Beləliklə, biz böyük nəqliyyat infrastrukturu yaratmaqla Azərbaycanın geosiyasi, geoiqtisadi önəmini qat-qat artırmış oluruq. Eyni zamanda, bu layihələr beynəlxalq əməkdaşlığı genişləndirir, gücləndirir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində iştirak edən ölkələrin sayına, onların gücünə baxsaq, görərik ki, bu, doğrudan da genişmiqyaslı beynəlxalq əməkdaşlıq formatıdır. Şərq-Qərb nəqliyyat dəhlizi Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə və ondan sonra Avropa ölkələrini birləşdirir. Şimal-Cənub nəqliyyat dəhlizi Pakistan, Hindistan, İran, Azərbaycan, Rusiya, Şimali Avropa ölkələrini birləşdirir. Cənub-Qərb dəhlizi isə daha geniş formatda ölkələri birləşdirir. Bütün bu layihələrdə iştirak edən ölkə Azərbaycandır. Biz bu layihələrin həyata keçirilməsi üçün çox böyük səylər qoyduq, çox böyük siyasi addımlar atıldı".

**Yeni kompleksin açılmasını dəyərləndirən iqtisadçı-ekspert Pərviz Heydərovun "Yeni Müsavat"a dediyinə görə, son illərdə Azərbaycanda əldə olunan neft gəlirlərinin çox böyük hissəsi infrastruktur layihələrinin icrasına yönəldilib:** "Bu layihələrin böyük bir qismi məhz nəqliyyat infrastrukturu ilə bağlıdır. Bu da təsadüfi deyil. Çünki nəqliyyat infrastrukturunun yenilənməsi Azərbaycanın gələcəkdə regional tranzit qovşağına çevrilməsinə nail olmağa imkan verəcək. Bu isə həm ölkənin qeyri-neft sektorunun inkişafı baxımından vacibdir, həm də Azərbaycanın regional iqtisadi potensialını artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir".

**Ekspert deyir ki, Azərbaycanda yaradılmış nəqliyyat infrastrukturu arasında Ələt Beynəlxalq Dəniz Limanı mərkəzi həlqə rolunu oynayır:** "Bakı-Tiflis-Qars dəmir yolu xəttinin açılmasından sonra bu limanın da istifadəyə verilməsi ölkəmizi regional ticarət və tranzit qovşağına çevirəcək zəncirin ən mühüm həlqəsinin işə düşməsi deməkdir. Ələtdə azad iqtisadi zonanın yaradılması limanın əhəmiyyətini qat-qat artıracaq. Bildiyiniz kimi, Bakı-Tiflis-Qarsın tikintisi on ilə yaxın vaxt apardı. Çünki bir çox ölkələr onun rentabelliyinə inanmırdılar. Buna görə də onun tikintisinin ağırlığı iştirakçı ölkələrin, əsasən də Azərbaycanın üzərinə düşdü. Amma tikinti başa çatdıqdan sonra məlum oldu ki, marşrutun mühüm əhəmiyyəti var. İndi hamı onunla yükdaşımaların icrasına maraq göstərir".

**P.Heydərovun sözlərinə görə, Şimal-Cənub nəqliyyat dəhlizinin işə salınması istiqamətində də Azərbaycanın göstərdiyi səylər nəticəsini verəcək:** "Bu xətt İranın cənub əyalətləri ilə əlaqələndikdən sonra Azərbaycanın regional nəqliyyat qovşağı kimi rolu daha da güclənəcək. Lakin düşünürəm ki, Azərbaycan infrastrukturun yaradılmasından sonra da gərgin işləməlidir. Elə bir əlverişli tarif siyasəti yürüdülməlidir ki, dövlətləri, sahibkarları məhz Azərbaycan üzərindən keçən marşrutlardan istifadəyə stimullaşdırsın. Bunun üçünsə marşrut boyunca yerləşən ölkələrlə sıx işləməyə, düzgün və rentabelli tarif siyasətinin müəyyənləşdirilməsinə ehtiyac var".

**Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Kardinal kölgədən niyə çıxır?..



**Hüseynbala SƏLİMOV**

**Ətrafımızda o qədər maraqlı hadisələr baş verir ki, hətta ən xırda detalları da tutmaq lazım gəlir; bir tərəfdən Ermənistanda baş verən proseslər, digər tərəfdən də İranla bağlı məsələlər...**

Bütün bunların fonunda da gürcü milyarderi və siyasətçisi B.İvanişvilinin bu vaxta qədər qeyri-rəsmi şəkildə idarə etdiyi "Gürcü arzusu" partiyasının rəhbərliyinə qayıtması xəbəri yayıldı.

B.İvanişvili məhz o kəslərdəndir ki, hələ də ruslar demişəkən, qara, məchul "ayğır" olaraq qalır. Düzdür, onun partiyasının da hakimiyyəti dövründə Gürcüstan Avro-Atlantika kursunu və Avropaya sürətli inteqrasiya siyasətini davam etdirdi, üstəlik, indiyədək Tiflisin Rusiyayla diplomatik münasibətləri belə normal duruma gətirilməyib. Amma bütün hallarda, ciddi gürcü siyasi palitrasında bu adam Rusiyaya ən yaxın şəxs sayılır.

Hələlik "boz kardinal"ın leqal siyasətə dönüşünü qarşıdakı prezident seçkilərilə bağlayırlar. Səhv etmirikse, İvanişvili özü bu xüsusda hər hansı plan açıqlamayıb, üstəlik, indiki prezidentin - G.Margelaşvilinin də ikinci dəfə seçilmək hüququ var. Seçkiləri payızda keçiriləcək, amma ən maraqlısı budur ki, prezident Gürcüstanda indi böyük səlahiyyətlərə malik deyil. Fəqət, post, necə deyər, postdur, - hakim eilta seçkini uduzsa, ardınca növbəti parlament seçkisini də uduza bilər.

Yenə də suallar adama rahatlıq vermir: İvanişvilinin leqal siyasətə dönüşü Qafqazdakı siyasi küləklərlə bağlı deyil ki? N. Paşinyan "Bizim xarici siyasətimiz dəyişməyəcək, etiraz aksiyalarında da bircə dəfə belə olsun, geosiyasi çağırışlar səsləndirilməmişdi" desə də, erməni inqilabının geosiyasi yönümü hələ də mübahisəlidir və demək olar ki, intensiv şəkildə diskussiya olunur. İndicə səsləndirdiyimiz cümlə prinsipcə, suallara aydınlıq gətirərdi, amma belə deyil - həlki bu, Kremli qane etmir.

Rusiyanın müxtəlif siyasi dairələri Ermənistanda ABŞ-ın və ya Qərbin təsirinin artacağından danışırlar.

Belə gümanlar nə qədər əsaslıdı? Hər şey ola bilər. Ermənistandakı ABŞ səfiri Paşinyan hökuməti ilə ölkəsinin əməkdaşlığa hazır olduğunu bəyan edən ilk ünvanlardan oldu. Hazırda ABŞ Rusiyanı sıxmaq üçün daha yeni imkanlar arayır və bunun da biri Ermənistan ola bilər. Burada başqa məsələ də var. Vaşinqton Gürcüstanda xeyli güclənib, ruslar hətta kiçik ölkəni ABŞ-ın əyaləti adlandırırlar.

Amma ABŞ-ın başqa hədəfləri də ola bilər. Ona İranın, Türkiyənin və hətta Azərbaycanın yaxınlığında əlavə təzyiq "rıçaq"ı lazımdır. İran bəlli məsələdir, burada izafi şərhə ehtiyac yoxdur. Vaşinqtona axır vaxtlar heç sözə baxmayan və ayağını tez-tez cızıqdan kənara qoyan Ankaranı, eləcə də ABŞ və Avropadan təmkinli məsafə saxlayan Bakını da sıxmaq üçün də "rıçaq" lazımdır və Ermənistan bunun üçün heç də pis variant deyil.

Gürcüstan təbii, bu missiyaya yaramır, çünki onun Bakı və Ankara ilə yaxşı münasibətləri və sıx əməkdaşlığı var. Ermənistan isə tamam başqa məsələdir - o, özünün sərsəm planları üçün daha bir dəstək almaqdan ötrü sinov gedir.

Bunlar hələ ki mülahizələrdi. Mayın 14-də N.Paşinyanın V.Putinlə görüşməlidi. Bu, ilk görüş olmalı və yalnız bundan sonra N.Paşinyanın böyük siyasət müstəvisində davranışı aydınlaşmalı idi.

Rusiyanın Ermənistanın siyasi kursunu tənzimləmək üçün hələ xeyli imkanları var. Bunlardan ən əsası da Qarabağ problemidir. O, bir "tilov"dur və ilk bəyanatları göstərir ki, Paşinyan həmin "tilov"a həvəslə gedir.

Əlavə edək ki, N.Paşinyanın öz siyasi ətrafı yoxdur. Xüsusən də Dağlıq Qarabağ klanı Qarabağdakı mövqelərini saxlayır və kimsə üçün sirr deyil ki, nə Bako Saakyan, nə də ki, digərləri Paşinyanın adamları deyil. Bu da Rusiya üçün əlavə təzyiq imkanıdır. Paşinyan ağılsız adama oxşamır, amma Ter-Petrosyandan ağıllı olmayacaq - onu isə məhz həmin Qarabağ klanı hakimiyyətdən devirmişdi. Hiss olunur, Paşinyan bunları anlayır və gözəl dərk edir ki, Qarabağda dayağı yoxdur və həmin dayağı yaratmaq üçün də dərhal Qarabağa yollandı.

Ən düşündürücüsü isə bilirsiniz, nədir? Ermənistanda da, Dağlıq Qarbağda da əksər ermənilər belə düşünürlər ki, Köçəryan və Sarkisyan lənglik edir, problemin həllində qətiyyət və cəsarət göstərmirdilər. Onlar hələ də düşünür ki, problemin daha "sürətli həll"i var.

Tələsmaqmağa ehtiyac yoxdur. Sadəcə, hərbə hazır olmalıyıq. Bunu Paşinyanın axmaq bəyanatları da, Kremlin və Dağlıq Qarabağ klanının gələcəkdə törədə biləcəyi təxribatlar da diqtə edir. O ki qaldı İvanişviliyə, mümkündür ki, onun da üzə çıxması elə geosiyasi arealdakı dəyişikliklərlə bağlıdır. Qərəz, görək, nə olur...

YENİ MÜSAVAT
N 105 (6994) 15 may 2018

**AXCP sədri Əli Kərimli tərəfdarları ilə araşdırmaçı jurnalist Xədicə İsmayıl və Avropada yaşayan Meydan.tv-nin qurucusu Emin Milli sosial şəbəkədə bir-birilərinin ünvanına aşağılayıcı ifadələr, təhqirlər səsləndirməkdə davam edirlər.**

# Emin Milli Əli Kərimli və Cəmil Həsənlini debata çağırdı-qarşıdurma güclənir

## ABŞ Konqresində Əli Kərimlinin müxalifətin "marginal şəxsi" adlandırılması aranı qatıb, ittihamlar havada uçuşur

Musavat.com xəbər verir ki, virtual qarşıdurma mayın 9-da ABŞ Konqresində Azərbaycandakı vəziyyətə dair dinləmələrdən sonra başlayıb. Əvvəlki dinləmələrə dəvət olunan Ə.Kərimli bu dəfə dəvət almayıb. Səbəb kimi də əvvəlki dinləmələrdə xaricə çıxışı olmayan Ə.Kərimlinin öz əvəzindən İngiltərədə yaşayan oğlu Türkel Kərimlini göndərməsi və onun orada yalnız atasını təmsil etdiyi barədə davranışı göstərilir. Bu dəfə dinləmələrdə iştirak üçün Emin Milli və Hollandiyada mühacir həyatı yaşayan Orduxan Teymurxan dəvət olunub. Dinləmələr zamanı ABŞ Massaçues Universitetinin tarix professoru Odri Alştadt çıxışında AXCP sədri Əli Kərimlini Azərbaycanda fəaliyyət göstərən müxalifətin "marjinal şəxsi" və ya "qocası" adlandırıb. Bundan sonra cəbhəçilər E.Millinin üzərinə hücumlar təşkil edərək, onun AXCP liderini "marginal şəxs" və ya "qoca"adlandırdığını iddia edərək, ən ağır şəkildə təhqir etməyə başlayıblar.

**Bütün bunlara dözməyən E.Milli öz facebook profilində bu statusu paylaşıb:** "İsa Qəmbərin bütün fəaliyyətinə, eləcə də Əli Kərimlinin son illər ərzində nümayiş etdirdiyi mübarizəsinə böyük hörmətim var. Onlar bütün bu illər ərzində heç kimin təsəvvür belə etmədiyi ən çətin şəraitdə on minlərlə insanı mübarizəyə ruhlandırıb və bu mübarizəyə liderlik ediblər. Lakin düşünürəm ki, aktivistlərin və Azərbaycanda dəyişiklik etmək istəyən insanların yeni nəslinin bu dəyişikliklərə necə nail olmaq, onların nədən ibarət olması, bu dəyişikliklərin strategiyası və taktikası ilə bağlı fərqli görüşləri var. Son 20 il ərzində Azərbaycan müxalifətinə rəhbərlik etmiş bütün insanlara öz ehtiramımı ifadə etməklə yanaşı bunu qeyd etməyi mühüm sayıram ki, bu liderlərin hazırda edə biləcəyi ən yaxşı iş həm partiyalarının daxilində, həm də xaricində olan bütün başqa gəncləri dəstəkləmək olardı. Bununla onlar Azərbaycan xalqına mesaj verərdilər ki, bu mübarizə şəxsi deyil - bu, İsa Qəmbərin, yaxud Əli Kərimlinin şəxsi mübarizəsi deyil. Biz problemlərdən danışırıqsa, təkcə hökuməti hədəfə almamalıyıq, həm də müxalifətdən danışmalıyıq. Çünki bəzi siyasi partiyalarda şəxsiyyət kultu pərəstiş var və gənc nəsillər bunu qəbul etmir. "Baxın, mən belə möhtəşəməm, böyüyəm və mən sizə rəhbərlik edəcəyəm" - bu, Azərbaycan xalqının qəbul etdiyi bir tərz deyil və bunu siz insanların reaksiyalarından hiss edə bilərsiniz. İnsanlar yeknəsəq (rutin) qaydada hər ay Azərbaycanda təşkil olunan mitinqlərə gəlmirlər. Bəlkə də onların mübarizəsinin taktikası ilə bağlı şübhələri var, bəlkə də onlar bu yolu effektiv hesab etmirlər. Bəlkə də onlar mitinqlərə gəldikləri halda hakimiyyətin onları çəkib sonra da ailələrinə təzyiq edəcəyindən qorxurlar. Düşünürəm ki, Azərbaycanda milyonlarla insan ayağa qalxıb azadlıq uğrunda mübarizə aparmağa hazırdır. Lakin onlar bir günün içində hamılıqla küçəyə çıxmaqla bu işi bitirib və sonra evlərinə qayıdıb öz gündəlik həyatlarını davam etdirmək istəyirlər. Onlar anlamağa çalışırlar ki, bu işi bir günün içində hamılıqla necə etmək olar. Liderlər insanların onları sorğulamasına hazır olmalıdır. İnsanlar onlardan sosial media ilə necə işlədiklərini, insanlarla ünsiyyəti necə yaratdıqlarını, taktika, strategiya və kommunikasiya ilə bağlı dəyərləndirmələrinin nədən ibarət olduğunu soruşa bilərlər. Yeni siyasi fəallar və qrupların meydana çıxara alternativlər təklif etməsi artıq milli seçim prosesidir. Sən insanlara bunu et və ya etmə deyə bilməzsən".


Əli Kərimli


Cəmil Həsənli


Emin Milli

**E.Millinin bu statusu da müsavatçılar və cəbhəçilərin kəskin tənqidləri ilə üzləşib.**

**Onun bu cür tənqidlərə verdiyi cavablardan əsas diqqətçəkən Müsavatın Divan üzvü Elman Fəttaha verdiyidir:** "Elman bəy, çıxışımda etiraz edilməli ifadələr deyirsiniz. İki gün ərzində yüzlərlə AXCP fəalları, hörmətli Cəmil bəy (Həsənli) də onlara qoşularaq demədiyim ifadələri, "köhnəlmiş" və marginallaşmış" müxalifət ifadələrini adıma yazdılar. Sonra iki gündən sonra anladılar ki, bu ifadələri mən işlətməmişəm. Hansı ifadələrimdə problem var? Şəxsiyyətə pərəstiş də, strategiya və taktiki problem də, xalqdan tədric olunma problemi də var. Dediyim hər bir ifadənin üstündə dururam və canlı efirdə də Əli Kərimli və Cəmil Həsənli ilə bu məsələləri müzakirə etməyə hazıram".

**Araşdırmaçı jurnalist Xədicə İsmayıl Emin Millinin müdafiəsinə qalxıb. Lakin o da yazdığı bu statusa görə cəbhəçilərin hücumları ilə üzləşib:** "Məlum oldu ki, marginal sözünü Emin Milli yox, Audrey Alştadt deyib. Hərçənd kimin deməsindən asılı olmayaraq, həqiqətdir. İndi iki gündür, Emini mütəşəkkil hücuma məruz qoyan cəbhəçilər yazdıqları təhqirlərə görə üzr istəyəcəkmi? Bu arada, Cəmil Həsənli də ilk ittiham yazanlardan biri olub. Səadət, Cahangir, iki gündür, adamı atəşə tutmusuz, postlarınızın altında xeyli təhqir yazılıb. Məsuliyyətli siyasətçilər, aktivistlər nə edər belə durumda?"

X.İsmayıl da statusuna görə qaragüruhçu dəstənin hücumlarına məruz qalıb. Hətta cəbhəçilər onu qrant almaq üçün Kərimliyə şər atmaqda ittiham ediblər.

**Fransada mühacir həyatı yaşayan AXCP funksioneri Natiq Ədilov X.İsmayıla qarşı onun statusunun altına bu cür rəy yazıb:** "Nahaq belə edirsən, Xədicə xanım. Yaxşı olar ki, özün o brifinqə baxıb bu statusu yazardın, daha Emin bəyin dedikləri əsasında yox. Demişəm də, hər gözəlin bir eybi var, Xədicə xanımın da eybi dostbazlıq etməsidir. Eybi yox, bu da onun hüququdur, tolerant yanaşmaq olar. Sadəcə, izin ver deyək ki, bu dəfə ədalətsizlik edən sənin dostlarındır".

**Dinləmələrdəki çıxışında Azərbaycandakı siyasi məhbuslardan danışarkən E.Millinin cəbhəçilərin adını çəkməməsini AXCP fəalları ayrı-seçkilik kimi qələmə verərək, Meydan.tv-nin qurucusunu daha sərt şəkildə tənqid edirlər. E.Milli bu məsələyə paylaşdığı statusda bu cür aydınlıq gətirib:** "Yenə deyirəm, məhbus arasında fərq qoymuram. Hər bir siyasi məhbus mənim üçün əzizdir. Mən, sadəcə, hamının adını birdən belə çıxışlarda çəkə bilmərəm. Çıxışın məqsədi də bu deyildi. Çıxışım spontan idi, yazılı deyildi və AXCP fəallarının adını çəkməmək kimi niyyətim də yox idi. AXCP ilə bağlı qərəzim olsaydı, Əli bəyin oğlu Türkel Kərimlini iki il bundan qabaq təşkil olunmuş dinləmələrə dəvət etməyi məsləhət görməzdim. Bu dəfə də onu məsləhət görürdüm (çünki keçən dəfə çox yaxşı danışmışdı). Amma təşkilatçılar israr etdilər ki, mən gəlim. Məni 5 ildir dinləmələrə və brifinqlərə dəvət edirlər, amma getməyə ya vaxtım, ya da imkanım olmurdu. Türkel bəy Əli bəy və AXCP fəallarının mövqeyini atasının adından 2 il bundan qabaq danışarkən kifayət qədər ətraflı çatdırıb. Budur həqiqət. Burada qərəz axtaranlar çox yanılırlar".

Musavat.com xəbər verir ki, bir qrup "şeyözündələrin" virtual davaları hələ də davam edir.

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Anar Məmmədovun Hadisəyə bağışladığı plyaj dağıdıldı

## Sabiq nazirin oğlunun türk müğənniyə ərməğan etdiyi çimərliyin sənədləri qaydasında deyilmiş...

**Keçmiş nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun məşhur türkiyəli müğənni Hadisə üçün aldığı çimərlik ərazisindəki tikililər darmadağın olunub. Hadisə Türkiyənin Bodrum şəhərində qeydə alınıb. Müğənni Hadisəyə aid "La Plaj" məhkəmə qərarı ilə dağıdılıb. Səbəb isə çimərlik ərazisində tikililərin qanunsuz inşası olub. Belə ki, məhkəmənin verdiyi müddətdə əraziyə aid sənədləri təqdim edə bilməyən Hadisənin "La Plaj"ı dağıdılıb. Türk mediasının yazdığına görə, hadisənin "La Plaj"ı müğənni həmkarı Hande Yenerin Bodrumdakı obyekti ilə rəqabətdə imiş. Bu olayın ardından jurnalistlərə açıqlama verən H.Yener ironiya ilə bildirib ki, oraların sahibi odur: "Başqaları obyekt açıb bilirsiniz. Amma buraların sahibi mənəm".**

AzEuroNews.com əldə etdiyi özəl məlumatda deyilir ki, "La Plaj" 2016-cı ildə tikilib. Obyektin ilk sahibi Azərbaycanın keçmiş nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov olub. O, bu obyekti Hadisə Azərbaycana gələndə ona hədiyyə edib. O vaxt obyektin sənədləşməsi tam başa çatmayıbmış. 2017-ci ildə Bodrum şəhər bələdiyyəsi ictimai yerə aid ərazinin zəbt edilməsi iddiası ilə məhkəməyə müraciət edib. Məhkəmə prosesi zamanı müğənni Hadisədən obyektin sənədlərini təqdim etməsi tələb olunub. İş adamı Anar Məmmədovdan "La Plaj"ın sənədlərini ala bilməyən Hadisə son məhkəmə prosesində şokla üzləşib. Bodrum şəhər məhkəməsi obyektin qanunsuz olması səbəbi ilə dağıdılması barədə qərar çıxarıb.





Əldə etdiyimiz məlumata görə, ümumiyyətlə, "La Plaj"ın tikildiyi gündən sənədləri qaydasında olmayıb. Anar Məmmədova bu obyekti türkiyəli dostu satıb. Eks-nazir oğlunun Bodrumdakı obyekti isə təkcə "La Plaj" deyil. Onun burada 5 ulduzlu bir neçə hotelinin olduğu deyilir.

Yada salaq ki, "Eurovision" mahnı müsabiqəsində 4-cü yeri tutan türkiyəli müğənni Hadisə Açıqgözlə Anar Məmmədovun işgüzar münasibətləri 2009-cu ilə söykənir. Hələ o dövrdə Türkiyə mətbuatı azərbaycanlı nazir övladlarından birinin Hadisəyə onunla "baş-başa görüşmək" təklifi etdiyini yazmışdı. Türkiyə mediası bunu "əxlaqsız təklif" kimi qiymətləndirmişdi. Məlumata görə, Hadisə bundan qəzəblənib və Bakıda olarkən hoteldən bayıra çıxmayıb. Xəbərdə bildirilirdi ki, nazir oğlu ona "Bakıya konsert verməyə deyil, mənimlə baş-başa yemək yemək üçün gəldin. Səni gözləyirəm" - deyə mesaj göndərib. Buna etiraz edən Hadisəyə növbəti dəfə "İstəyirsə ansamblla birlikdə gəlsin, amma Hadisə mənim yanımda oturacaq" mesajı göndərilib. Bu təklif də keçərli olmayıb. O dövrdə mətbuatda müğənniyə belə bir mesajın sahibinin kimliyi də yazılmışdı, Anar Məmmədovun olduğu bilinmişdi. Xatırladaq ki, Türkiyə mətbuatı Hadisəyə azərbaycanlı nazirlərdən birinin oğlunun "əxlaqsız təkliflər" etməsindən yazıb. www.haber34.net saytında verilən məlumata görə, Hadisənin Bakıdakı konsertdə səhnəyə 2 saat gec çıxmasına həmin nazir oğlunun məlum təklifi səbəb olub.

Qeyd edək ki, Anar Məmmədov Türkiyənin şou-biznesində də yaxşı tanınan simalardandır. Anar Məmmədov Hadisəyə çimərlik ərazisi bağışladığı illərdə İbrahim Tatlısəsin Türkiyə telekanallarından birində fəlestinli uşaqlar üçün həyata keçirdiyi xeyriyyə marafonuna telefonla qoşularaq 50 min lirə ayırdığını bəyan etmişdi. Səsini eşidən kimi İbrahim Tatlısəs kimi məşhur müğənni də onu tanıya bilmişdi.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

# İfşa olunan "dərman mafiyası"nın açar fiquru danışmağa qərar verdi

## DGK-nın general-mayoru Fikrət Qədiməliyev istintaqla əməkdaşlığa razılıq verib; korrupsiya ilə mübarizə çərçivəsində gömrük orqanlarının 10 əməkdaşının işi prokurorluq orqanlarına göndərilib

**Dövlət Gömrük Komitəsinin (DGK) rəhbər vəzifəli şəxslərinin də olduğu "dərman mafiyası" ilə bağlı araşdırmalar davam edir. İşin içində ən müxtəlif təbəqələri əhatə edən şəxslər var. "Dərman mafiya"sına bu və ya başqa şəkildə bağlılığı olan vəzifə sahiblərinin adları siyahılaşdırılır.**



Belə xəbərlər var ki, məsələ ən yüksək səviyyədə nəzarətə götürülüb. Bu isə o deməkdir ki, bir çox vəzifə sahiblərinin, səlahiyyətli şəxsin "başı" gedəcək. Ən son məlumata görə, DGK-in Tibbi Xidmət İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Fikrət Qədiməliyev istintaqla əməkdaşlığa razılıq verib. O, kiminlə işləyiblərsə, hər kəsin adını çəkəcəyini söyləyib. General-mayor bunun əvəzində şəxsi toxunulmazlıq və şərti cəza istəyir. Fikrət Qədiməliyevə mayın 8-də ittiham elan olunub. Ona Cinayət Məcəlləsinin 200-1.2.2, 200-1.2.3 (dərman vasitələrinin qanunsuz dövriyyəsi), 206.3.2, 206.3.3 (qaçaqmalçılıq) və 314.2 (səhlənkarlıq) maddələri ilə ittiham elan olunmaqla, barəsində məhkəmənin qərarı ilə ev dustaqlığı qətimkan tədbiri seçilib.

Hazırda Dövlət Təhlükəsizlik Xidmətində davam edən cinayət işi üzrə toplanmış ilkin sübutlar əsasında gömrük orqanlarında vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə qaçaqmalçılıq və külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı cinayət əməllərinə görə Fərman Həmzə oğlu Məmmədli, Vasif Teymur oğlu Xıdırov, Cəmil Səlim oğlu Mehtiyev, Ateş Adem oğlu Atanur, Anar Kamran oğlu Məmmədov, həmçinin Əlamət Nazim oğlu Quliyevə müvafiq olaraq Cinayət Məcəlləsinin 200-1.2.2, 200-1.2.3 (dərman vasitələrinin qanunsuz dövriyyəsi), 206.3.2, 206.3.3 (qaçaqmalçılıq) və 314.2 (səhlənkarlıq) maddələri ilə ittiham elan olunmaqla, barələrində məhkəmənin qərarları ilə həbs-qətimkan tədbiri seçilib. Tibbi Xidmət İdarəsinin rəisi Fikrət Qədiməliyevə mayın 10-da ittiham elan olunub. Buna qədər isə DGK rəhbərliyi onu və Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Sadiq Abduyevi, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin 1-ci yük şöbəsinin rəisi Araz Məmmədovu, başqa bir neçə yüksək vəzifəlini tutduqları vəzifələrdən azad etməklə sərəncama götürüb. Mətbuatda ölkəyə qanunsuz yolla dərman vasitələrinin gətirilməsinə və dərman qaçaqmalçılığına görə keçmiş DGK sədri Aydın Əliyevin həbs ediləcəyi haqda xəbərlər yayılıb.

Yada salaq ki, sabiq DGK sədri Aydın Əliyev ölkəyə qanunsuz dərman vasitələrinin gətirilməsindən bixəbər olması anlamı verən açıqlama ilə çıxış edib. Halbuki "dərman mafiya"sının DGK-ya "ayaq açdığı" zaman kəsiyi onun komitəyə rəhbərlik edən dövrə təsadüf edib. Aydın Əliyev "burnunun ucu"nda baş verən böyük qaçaqmalçılıq cinayətindən xəbərsiz olubsa, bu halda onun sədr kimi səriştəsizliyi ortaya çıxır. Adam ölkəyə gətirilən, ölkədən aparılan mallara nəzarət etməli postun birinci qərarverən şəxsi olub. Sadə azərbaycanlı gömrükdən 5 kilo banan keçirə bilmədiyi bir vaxtda, ölkəyə tonlarla, özü də ölkə ərazisində dövriyyəsi qadağan olunan, saxta dərmanlar keçirilib, işdə Aydın Əliyevin ən yaxın əhatəsi də var. Aydın Əliyev də çıxır deyir ki, mənim günahım yoxdur.

Dövlət Təhlükəsizlik Xidmətinin ifşa etdiyi "dərman mafiyası" ilə işbirliyində təkcə Aydın Əliyevin adı hallanmır. İşin içində deputat da, məmur da var.

İstintaqa cəlb olunanlar isə hələlik aşağı təbəqədir.

Xidmət əməkdaşlarının bu il aprelin 30-da keçirdikləri əməliyyat zamanı səhiyyə sisteminin ayrılmaz qolu olan əczaçılıq sahəsində bir sıra sahibkarlıq subyektlərinin daha çox gəlir əldə etmək üçün qeyri-leqal fəaliyyətlə məşğul olmaları üzə çıxıb. Belə fəaliyyət vergidən yayınmaqla yanaşı əhalinin sağlamlığına ciddi təhlükə yaradır. Keçirilmiş birgə tədbirlər zamanı belə qanunsuz fəaliyyətlə məşğul olan mütəşəkkil dəstə müəyyən edilərək ifşa olunub. Əməliyyat-istintaq tədbirləri nəticəsində Anar Məmmədova məxsus Yasamal rayonunda yerləşən "Zeytun" aptekinə baxış zamanı dövlət qeydiyyatından keçməyən, mənşəyi naməlum 75 adda müxtəlif dərman vasitələri aşkar edilərək götürülüb. Davam edən araşdırmalarla Yasamal rayonu ərazisindəki "İrem", "Qlükoza", "Avas", "Fatimə", Nəsimi rayonu ərazisindəki "Zeytun", "Medical City", "Elit", "Vahid", "Dokta Elite", Nərimanov rayonu ərazisindəki "Şəfa", "Şəfa Zeytun 426", "Təbib" apteklərinə satılmış müxtəlif sayda dövlət qeydiyyatından keçməmiş dərman vasitələri aşkar edilərək dövriyyədən çıxarılıb.

Hazırda qeyd olunan apteklərin sahibləri, işçiləri, apteklərlə şərikli işləyən xəstəxanaların baş həkimləri, şöbə müdirləri də soğru-sual edilir. Rəsmi məlumatdan da məlum olduğu kimi, "dərman mafiyası" ilə DGK rəsmiləri qaçaq yolla ölkəyə gətirilən dərman preparatlarına görə 25 faiz haqq alıblar. İlkin istintaqla müəyyən olunub ki, xarici ölkə vətəndaşı Ateş Atanur, Azərbaycan Respublikasının vətəndaşı Anar Məmmədov 2016-cı ildən aprelin 30-dək satış məqsədi ilə dərman vasitələrinin ölkəyə qanunsuz yollarla gətirilməsini müntəzəm təşkil ediblər. Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin vəzifəli şəxsləri bu dərmanların yük müşayiət sənədlərini dəyişdirərək Hava Nəqliyyatında Baş Gömrük İdarəsində Mərkəzi Gömrük Hospitalına çatması nəzərdə tutulan başqa məhsullar adı altında bəyan edilməsini, bu yolla qeyd olunan dərmanların ölkəyə qeydiyyatsız keçirilməsini təşkil etməyə görə əvvəlcədən hər yükün ümumi dəyərinin 25 %-i dəyərində haqq alıblar. Dərmanların ölkəyə qeydiyyatsız idxalını, gömrük nəzarətindən çıxarılaraq birbaşa dərman satışı ilə məşğul olan şəxslərə çatdırılmasını təmin ediblər.

Belə şəxslərdən biri də "Elit" adı ilə Bakının bir neçə rayonunda fəaliyyət göstərən apteklər şəbəkəsinin sahibi olub. "Elit" aptek şəbəkələri 1993-cü ildən fəaliyyət göstərir.

Redaksiyamıza daxil olan məlumatda bildirilir ki, ifşa olunan "dərman mafiya"sının ölkəyə qaçaq yolla psixotrop maddələr daşıması da istintaq olunur. Belə məlumatlar var ki, Bakının apteklərində illərdir ki, reseptsiz, piştaxta altından satılan psixotrop maddələr məhz "dərman mafiya"sının ölkəyə gizli-aşkar yollarla daşıdığı dərman preparatlarının böyük bir hissəsini təşkil edib. Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir. Ötən 15 gün ərzində üzə çıxanlar isə onu deməyə əsas verir ki, "dərman mafiyası"na qarşı ciddi tədbirlər davam edir.

Azərbaycanda korrupsiya ilə mübarizə tədbirləri çərçivəsində gömrük orqanlarının 10 əməkdaşının fəaliyyəti ilə bağlı sənədlər prokurorluq orqanlarına göndərilib.

"Trend" xəbər verir ki, bunu Azərbaycan **Dövlət Gömrük Komitəsinin Daxili Təhlükəsizlik İdarəsinin rəisi Fuad Qasımov** "Gömrük orqanlarının işində şəffaflıq və hesabatlılıq" mövzusunda ictimai müzakirələr zamanı deyib. Onun sözlərinə görə, daha yeddi əməkdaşın fəaliyyəti ilə bağlı sənədlər DGK-nin istintaq idarəsinə yönəldilib: **"İntizam məsuliyyətinə peşəkar öhdəliklərinin icrası zamanı pozuntulara yol vermiş 209 gömrük əməkdaşı cəlb olunub. Onlardan 10 nəfəri gömrük orqanlarından uzaqlaşdırılıb, iki nəfər tutduğu vəzifədən azad edilib. Bir əməkdaşın vəzifəsi, beş nəfərin rütbəsi azaldılıb. Gömrük orqanlarının 47 əməkdaşına xəbərdarlıq və şiddətli töhmət verilib, 114 nəfər töhmət alıb, 30 nəfərə xəbərdarlıq edilib".**

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

# Zəmanətə xəyanətin bədəli



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Rusiya rəsmiləri və KİV-ləri ABŞ prezidenti Trampı bu dəfə İranla nüvə anlaşmasından birtərəfli qaydada çıxdığı üçün hədəf götürüb. Artıq neçə gündür Rusiyanın təbliğat maşını Amerikanın biznesmen-prezidentinə döşəyir. Onu ABŞ-ın iki il öncə götürdüyü öhdəliyə xilaf çıxmaqda, imzasına tüpürməkdə suçlayırlar.**

Ruslar bir yandan düz edirlər. Siyasət nə qədər qəliz, "çirkin" fəaliyyət sahəsi olsa da, burada da sözübütövlük, verilən vədə kişi kimi əməl etmək, atılan imzaya hörmət qoymaq mühümdür. Yoxsa nüfuz, etibarlılıq məsələsi gündəmə gələr. Trampı biz də qınayırıq, çünki onun qərarı partlayış həddində olan regionda kövrək sülhə və sabitliyə növbəti ciddi təhlükədir. Amma və lakin...

Məsələ ondadır ki, Rusiyanın özü də tarix boyu verdiyi vədləri, götürdüyü öhdəlikləri zaman-zaman pozub. Ən son fakt: 4 il öncə Moskva Krımı ilhaq elədi. Halbuki ondan cəmi 10 il qabaq - 1994-cü ildə ABŞ və İngiltərə ilə birgə o, Kiyevin nüvə başlıqlarından imtinası qarşılığında Ukraynanın suverenliyi və ərazi bütövlüyünə zəmanət verən Budapeşt Memorandumuna imza atmışdı. Rusiya həmin anlaşmanı birtərəfli qaydada pozdu və üstündən "su içdi". Bu harasıdır, hələ də Ukraynadan əl çəkməyib, yenə ərazi qoparmaq istəyir.

Krımın işğalına görə isə Vaşinqton Rusiyaya qarşı 4 ildir sərt sanksiyalar tətbiq edir. Və düz də edir. Amma iş ondadır ki, ABŞ eyni işğalçılıq hərəkətinə yol vermiş Ermənistana qarşı nədənsə loyal davranır, ona hər il maliyyə yardımları ayırır, yeri gələndə bağrına basır; hətta Qarabağdakı separatçı rejimi də unutmur, ona da hər il paydan-puşdan verir, işğal altındakı ərazilərimizə konqresmenlərin qanunsuz səfərlərinə göz yumur və separatçı liderlərin vaxtaşırı Amerikaya səfərlərini təşkil edir - özü də deyilənlərə görə, qondarma qurumun "sənədləri" əsasında hazırlanan vizalarla!..

Sonra da deyirlər dünyanın tarazlığı niyə pozulub? Müharibələr, qırğınlar, terror aktları niyə bitmir? Birinci səbəb bu: fövqəlgüclərin verdikləri zəmanətə, yazılı vədlərə və öhdəliklərə, sivil birgə davranış qaydalarına xəyanəti, ortaq oyun qaydalarının, yəni beynəlxalq hüquq prinsiplərinin çeynənməsi, BMT prinsipləri və qərarlarına məhəl qoyulmaması. Acı gerçək belədir ki, biri buna özünün iqtisadi, hərbi qüdrətinə arxalanaraq, cəzasızlığa əmin olaraq əl atır, başqası (Rusiya) hamıdan çox nüvə başlıqlarına güvənərək gedir, digəri, hansı ki, heç bir hərbi-iqtisadi gücü, atom bombası yoxdur, - məsələn, cırtdan Ermənistan, - həmin o qüdrətli güclərdən birinə (Rusiya) sığınaraq buna cürət edir.

Aydın məsələdir ki, ayı öz balasını yanında saxlayan kimi Rusiya Ermənistanı yanında saxlamasaydı, Azərbaycan çoxdan onun cavabını vermiş, cəzalandırmışdı

Gələk İrana. İranda teokratik rejimdən daha çox, onun dövlət maraqları keşiyində duran, din adına siyasi rejimin hakim olduğu bəllidir. Əks halda, biz çoxdan Qarabağ məsələsində müsəlman cənub qonşumuzu müsəlman Türkiyə kimi öz yanımızda, daha doğrusu, beynəlxalq hüququn yanında görərdik, nəinki beynəlxalq hüququ, BMT qətnamələrini vecinə almayan işğalçı Ermənistanın yanında. Məgər Ermənistan İranın da dəstəyinə güvənib bölgədə at oynatmır?

Odur ki, Tehran rəsmiləri "bizə qarşı Amerika haqsızlıq edir", deyə car çəkib çox təəccüblənməsinlər. Axı, söhbət İranın imza atdığı beynəlxalq sənədə ("Altılıq" anlaşması) saygısızlıqdan gedirsə, Ermənistan da 25-26 ildir dünya birliyinin əsas təşkilatı olan BMT-nin Qarabağa dair 4 qətnaməsini 25-26 ildir vecinə almır. Di gəl, bu, cənub qonşumuza işğalçı ilə "çaşka-lojka" olmağa mane olmur.

Qərəz, özünə rəva bilmədiyini gərək başqasına rəva görməyəsən ki, başına belə işlər, haqsızlıqlar da gəlməsin. Başqası deyəndə öncə özümüzü - Azərbaycanı nəzərdə tuturuq...

Cəmiyyətdəki kimi, siyasətdə də əmanətə, zəmanətə xəyanət olmaz. Siyasət də cığallığı, satqınlığı sevmir. Yoxsa bədəli ağır olur. Gec ya tez, xəyanət müəllifi kim olur-olsun.



# "Elçibəyin 80 illiyinə min səhifədən ibarət kitab hazırlayırıq"

## Əvəz Zeynallı: "Yaxın günlərdə bütün məsələlərlə bağlı ictimaiyyətə məlumat verəcəyik"

**Azərbaycan Milli Azadlıq hərəkatının lideri, Azərbaycan Respublikasının 2-ci prezidenti Əbülfəz Elçibəyin 80 illik yubileyinə hazırlıq işləri davam edir.**

Bu barədə "Yeni Müsavat"a "Əbülfəz Elçibəy-80" İctimai Təşkilat Komitəsinin üzvü, jurnalist Əvəz Zeynallı məlumat verib. Ə. Zeynallı bildirib ki, bu gün Əbülfəz Elçibəylə bağlı yazılan kitabı mətbəəyə göndəriblər:

"Elçibəyin 80 illiyinə min səhifədən ibarət kitab hazırlayırıq. Bu kitabda onun əsərlərinin hamısı yer alacaq. Qısa vaxt sonra komitənin də iclası olacaq. Hakimiyyətə də müraciət edib, yubileyin keçirilməsi üçün yer istəmişik. Tədbiri Heydər Əliyev Sarayında keçirməyi düşünürük. İndi görək ki, hökumətin özünün bir təklifi olacaqmı. Yəqin ki, artıq bir-iki gün ərzində bu məsələ ilə bağlı da dəqiq məlumat əldə edəcəyik ki, hakimiyyət yer verir, yoxsa yox.

Bundan əlavə, sabah yazı müsabiqəsinin də elanının verilməsi gözlənilir. Həmçinin müəyyən tədbirlər də həyata keçirəcəyik. Döş nişanlarının, köynəklərin sifarişi ilə məşğuluq. Yəni bu istiqamət üzrə hazırlıqlarımız davam edir. Yaxın günlərdə bütün məsələlərlə bağlı ictimaiyyətə məlumat verəcəyik. Təşkilat komitəsinə gəlincə isə deyim ki, əslində komitənin üzvlərinin sayı çoxdur. Sadəcə olaraq, toplantıya qatılanlar və qatılmayanlar oldu. Hər halda, növbəti toplantıda daha çox üzvün qatılacağını gözləyirik".

**Ə. Zeynallı bildirib ki, məsələ ilə bağlı Əbülfəz Elçibəyin ailəsinin də iznini alıblar:**

"Ailəsinin həm fikirlərini, həm də razılığını almışıq. Ötən iclasımızda elə Əbülfəz bəyin oğlu Ərturqut da iştirak edirdi. Yəni biz nə iş görürüksə, onun ailəsinin razılığı ilə görürük".

Onu da məlumat üçün qeyd edək ki, bu il fevralın 4-də bir qrup ziyalı və tanınmış ictimai xadim Əbülfəz Elçibəyin 80 illik yubileyinin keçirilməsi ilə bağlı Azərbaycanın bütün siyasi partiyalarına, qeyri-hökumət təşkilatlarına, ictimai qurumlarına, kütləvi informasiya vasitələrinə, aydınlarına və ictimai-siyasi fəallarına müraciət edib. Bu müraciətə cavab olaraq aprelin 21-də Əbülfəz Elçibəyin 80 illik yubileyi ilə əlaqədar geniş toplantı keçirilib. Toplantıda Xalq Hərəkatının iştirakçılarından Sabir Rüstəmxanlı, Ədalət Tahirzadə, Pənah Hüseyn, Mirmahmud Mirəlioğlu, İsgəndər Həmidov, o cümlədən "Günaz Tv"-nin rəhbəri Əhməd Obalı, Zəlimxan Məmmədli, Arzu Səmədbəyli və digər ictimai-siyasi fəallar, Elçibəyin yaxın silahdaşları, partiya və media mənsubları iştirak ediblər.

May ayının 8-də isə "Əbülfəz Elçibəy-80" İctimai Təşkilat Komitəsinin İşçi Qrupunun toplantısı keçirilib. Klassik Xalq Cəbhəsinin qərargahında baş tutan toplantıda İşçi Qrup öz iş planını təsdiq edib və iş planına uyğun olaraq görüləcək işlərlə bağlı müzakirələr aparılıb.

**Əli RƏİS, "Yeni Müsavat"**

---



# "Mayın 15-də məni zorla hakimiyyətdən uzaqlaşdırdılar"

## Ayaz Mütəllibov: "Məni bu adamlar vaxtilə deviriblər, indi mən də gəlib bunların sifətlərinə baxmalıyam?"

### Azərbaycanın birinci prezidenti "Yeni Müsavat"a 80 illik yubileyindən, 14-15 may hadisələrindən danışdı

**1992-ci il 14-15 may hadisələrinin 26-cı ildönümü tamamlandı. 26 il əvvəl, martın ilk həftəsində Azərbaycanın ilk prezidenti Ayaz Mütəllibov Xocalı soyqırımının qarşısını ala bilmədiyinə görə xalqın sərt etirazları ilə üzləşdi və istefa verdi. Ondan sonrakı müddətdə prezident səlahiyyətlərini Ali Sovetin sədri Yaqub Məmmədov icra etsə də, mayın 14-də, əvvəlcədən elan olunduğu kimi, prezident seçkilərinin keçirilməsinə bir aydan da az vaxt qaldığı zaman Ayaz Mütəllibov qəfil geri döndü və Ali Sovetin tribunasından hakimiyyətə qayıtdığını bəyan etdi. Maraqlıdır, bəs bu gün Ayaz Mütəllibov həmin hadisələri necə xatırlayır? Eks-prezidentin bu mövzuda danışmağa həvəsli olmadığını bildiyimizdən əvvəlcə onun yubileyindən danışdıq.**

**- Ayaz müəllim, mayın 12-də sizin 80 yaşınız tamam oldu. Yubileyiniz münasibətilə sizi təbrik edirəm. Amma təəccüblüsü budur ki, səssiz-səmirsiz keçdi bu tarix. Yoxsa qeyd etmisiniz, media xəbər tutmayıb?**

- Ailədə qeyd etdim. Bir-iki nəfər köhnə dostumuz da iştirak edirdi.

- Siz Azərbaycanın 14-cü birinci katibi, həmçinin ilk prezidenti olmusunuz, məntiqlə çevrəniz kifayət qədər geniş olmalıydı, yubileyiniz daha geniş şəkildə qeyd olunmalıydı. Vaxtilə vəzifə verdiyiniz adamlar olub, komanda üzvlərinizdən sağ qalanlar da az deyil...

**- Nə danışırsınız? Zaman dəyişib. İndi kim-kimi yada salır..?**

- Bəs yubileyinizdə iştirak edən dostlarınız geniş ictimaiyyətə məlum olan insanlardır?

**- Yox. Onlar siyasətlə bağlı adamlar deyillər.**

- Siyasət adamları, ictimai fəal şəxslərdən kimsə zəng edib təbrik etdimi?

- Yox, zəng edən olmadı.

**- Kimlərinsə zəngini gözləyirdinizmi?**

- Yox, gözləmirdim.

**- Belə çıxır ki, siz də taleyinizlə barışıbsınız, eləmi?**

- Mən taleyimi bu faktorla bağlamıram. Heç bu haqda düşünmürəm də.

**- Amma ölkənin keçmiş prezidenti olaraq sizin dövlət statusunuz, hüquqlarınız var. Bu mənada məntiqlə sizə münasibət əvvəlki illərdən fərqlənməliydi, kimlərsə sizinlə ünsiyyətdən ehtiyat etməməliydi. Elə isə sizin keçmiş komandadaşlarınız niyə məsafə saxlayırlar?**

- Hansı komandadan söhbət gedir?

**- Hər halda, uzun illər birgə çalışmışınız...**

- (Gülür) Yox, e. Məgər uzun illər bir yerdə çalışan adamlar daim bir-biri ilə münasibət saxlayır? Zaman da dəyişir, münasibət də, bu, təbii prosesdir. İndi mən axtarım, deyim ki, filankəs, mənə niyə zəng etmirsən, niyə məni yada salmırsan? Yaxud mənə qarşı niyə saymazlıq edirsən? Mən sənə filan yaxşılıqları etmişəm... Mən bu sözləri deyə bilərəm?

**- Bəs bu illərdə siz kimlərisə axtarmısınızmı?**

- Yox, axtarmamışam.

**- Ayaz müəllim, səmimi deyin, heç ürəyinizdən keçdimi ki, 80 illik yubileyiniz dövlət səviyyəsində qeyd olunsun?**

- *(Pauzadan sonra)* Pis olmazdı.

**- Vaxtilə sizinlə bağlı təşəbbüslər var idi, hətta hüquqlarınızı müdafiə edən komitə də yaradılmışdı. Bəs onlar necə, sizin yubileyinizi qeyd etməklə bağlı təşəbbüslə çıxış etdilərmi?**

- Yox. O, çoxdankı əhvalatdır, hadisələrdir. Onlar çoxdan unudulub.

**- Amma Şeyx Əbdül sizinlə bağlı müdafiə komitəsi yaratmışdı, Hacı Əbdül ilk illər sizin sadiq müdafiəçilərinizdən idi. Yəni onlardan da təbrik olmadı?**

- Yox. Mən indi də bu şəxslərə qarşı ən xoş münasibətdəyəm. Ancaq hər kəsin öz işi var. Mən də siyasətdən uzaqlaşmışam, dəfələrlə bunu qeyd etmişəm. O zaman istər-istəməz siyasətə qoşurlurdum. Yəni məni siyasətə qoşurdular. Çoxdandır münasibətim yoxdur. Ancaq indi də o şəxslərə dərin hörmətlə yanaşıram.

**- 2018-ci ildə Cümhuriyyətimizin 100 illiyi ilə yanaşı, həm Azərbaycanın birinci prezidenti olaraq sizin, həm də ikinci prezidenti Əbülfəz Elçibəyin 80 illiyidir. Elçibəyin 80 illiyi ilə bağlı təşəbbüs qrupu yaradılıb, yubiley tədbirinə dəvət alsanız, iştirak edəcəksinizmi?**

- Xeyr.

**- Niyə?**

- Niyə iştirak etməliyəm, bu, mənim tədbirim deyil.

**- Dəvət olunsanız...**

- Ay qardaş, sən necə düşünürsən? Məni bu adamlar vaxtilə deviriblər. İndi mən də gəlib mənə zəng etsələr, bunların sifətlərinə baxmalıyam?

**- Tarixdə çox hadisələr olur. Xatırladım ki, Əbülfəz Elçibəy vəfat edəndə Heydər Əliyev onunla vida mərasiminə qatıldı, ortaya nümunə qoydu. Amma bildiyimə görə, siz bu günədək Elçibəyin məzarını da ziyarət etməmisiniz, eləmi?**

- Keçmişəm yanından...

**- Belə çıxır ki, Elçibəy hakimiyyətinə qarşı hələ də hirsiniz soyumayıb.**

- O, təkcə mənə aid olan hirs deyil. Ümumiyyətlə, o hadisələr Azərbaycana böyük zərbə vurdu. Ona görə də bu məsələləri birmənalı qarşılamaq olmaz.

**- Səhv etmirəmsə, Elçibəyin ailə üzvləri ilə görüşə biləcəyinizi demişdiniz...Görüş təşəbbüsü oldumu?**

- Çox dərinə gedirsən e, ay qardaş. Məgər işimiz-gücümüz yoxdur ki, Elçibəydən danışırıq?

**- Elə isə 26 il əvvəlki hadisələrdən danışaq, 14-15 may hadisələrindən? Yenə də o fikirdəsinizmi ki, AXC dövlət çevrilişi edib?**

- Bəli, eyni fikirdəyəm.

**- Amma əleyhidarlarınız, hərəkatçılar sizi çevriliş cəhdində ittiham edir. O zaman hakimiyyətə qayıdışınız doğru addım idimi? Bəlkə də 5-6 mart hadisələrindən sonra kənara çəkilsəydiniz, daha yaxşı olardı, nə siz ölkəni tərk edərdiniz, nə də...**

- 5-6 martda dövlət çevrilişi olub. Həm 5-6 martda, həm də mayın 15-də məni zorla hakimiyyətdən uzaqlaşdırıblar.

**- Amma sizin istefanız xalq etirazlarının məntiqi nəticəsiydi. Rəhbər xalqın rəyi ilə hesablaşmalı deyilmi?**

- İdeal şəkildə.

**- Bəlkə bir az açıqlayasınız fikrinizi...**

- Belə dəyərlərə fikir verənlər azdır. Hər kəs öz marağına uyğun davranır. Gəlin bu mövzunu bağlayaq. Mən tarixi günləri yada salmaq istəmirəm, çünki nəticəsi çox acı olur. İndinin özündə də o acılıq qurtarmayıb, bu, normal prosesdir. Dövlətə aid acılığı deyirəm, şəxsiyyətə, hansısa adamlara yox. Mən həmişə demişəm ki, olan olub, keçən keçib. Biz indi tam başqa məsələlərə diqqət yetirməliyik. Ümumdünya miqyasında olan məsələləri. Ətrafımızda baxmalıyıq, konsolidasiya olunmalıyıq, cəmiyyətdə yekdillik olmalıdır. Kimsə 25 il bundan qabaq nəsə deyibsə, onun nə əhəmiyyəti var? Danışmağa mövzu tapmırıqsa, bu, başqa məsələ.

**- Hər halda, çox ciddi hadisələr baş verib və hadisənin canlı şahidləri ilə bu barədə danışmağa hər zaman zərurət duyulur. Bəs siz indiki durumda Azərbaycanın hər hansı fors-major situasiyalarla üzləşməməsi üçün nə təklif edirsiniz, daha çox nəyə zəruri ehtiyac görürsünüz?**

- Yekdil olmağı, dedi-qodunu qurtarmağı zəruri sayıram. Dövlətə maneçilik yox, kömək etmək lazımdır, bunu zaman tələb edir. Tarixdə mənim başıma nə gəlib, gəlməyib, bu, mənim üçün önəmli deyil. Bu, tarixdir, yazılıb, bitib. İndi diktə edib onun ora-burasını düzəldən adamlar da olsa, öz işləridir. Mən həmişə dövlətçi olmuşam, indi də dövlətin tərəfini tutan adamam.

**Elşad PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 105 (6994) 15 may 2018

**Hazırda əksər inkişaf etmiş, habelə gözəl təbiəti, dənizi olan inkişaf etməkdə olan ölkələrin başlıca gəlir mənbələrindən biri də turizm sektorudur. Azərbaycan hökuməti də son illər qeyri-neft sektorunun inkişafı çərçivəsində turizmin dirçəlməsinə xüsusi diqqət ayırır. Lakin dünyada bu sektorun göstəriciləri o qədər yüksək rəqəmlərlə ifadə olunur ki, ölkəmizin həmin uğuru təkrarlaması üçün illər, bəlkə də onilliklər lazımdır. Bu sahədə xarici təcrübənin öyrənilməsi də çox mühümdür. Hansı ölkələr turizmin inkişafı üçün nə kimi yol seçib? Hazırda onların bu sektordan gəlirləri nə qədərdir? Azərbaycanın bu göstəricilərə nail olması üçün hansı addımlar atılmalıdır?**

# Turizmdən milyardlar qazanmaq üçün nə etməli...

## Vüsalə Əhmədova hesab edir ki, istirahət zonalarında qiymət siyasəti dəyişməlidir; "Şimali Kipr bu sahədən ildə 2 milyard dollar qazandığı halda, ölkəmizdə bu rəqəm 100 milyon dollardır"



Bu suallar hazırda həm hökuməti, həm də turizm sektoru təmsilçilərini düşündürməlidir.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı ekspert Vüsalə Əhmədova bildirdi ki, hazırda dünya ölkələrinin turizm gəlirləri milyardlarla dollar olaraq ölçüldüyü halda, Azərbaycanda bu rəqəm 100 milyon manat səviyyəsindədir:** "Ümumdünya Turizm Təşkilatının turizmlə bağlı göstəricilərinə əsasən dünyada turizmin gətirdiyi gəlirlər getdikcə artmaqdadır. 1950-ci ildə dünya ölkələri bu sahədən 23 milyard dollar gəlir götürdükləri halda, 2002-ci ildə bu rəqəm 703 milyard dollara yüksəlib. Hazırda dünyanın ən çox turist cəlb edən ölkələri Fransa və İspaniya sayılır. Türkiyə isə dünyanın ən çox turist cəlb edən 6-cı ölkəsidir. Turizmdən əldə edilən gəlirlərə gəlincə isə 204,5 milyard dollarla ABŞ ilk sırada yer alır, 114,1 milyard dollarla Çin ikinci, 56,5 milyard dollarla İspaniya üçüncü yerdədir. Daha sonrakı yerləri sırası ilə Fransa, İngiltərə, Tayland, İtaliya, Almaniya, Hong-Kong, Avstraliya və Kanada bölüşürlər. Türkiyə turizmdən ən çox gəlir əldə edən ölkələr arasında 26,616 milyard dollarla 13-cü sıradadır. Türkiyə 2023-cü ilədək ilk 5 sırada yer almağı planlaşdırır. Ümumdünya Turizm Təşkilatı 2020-ci ildə dünya üzrə 1,5 milyard insanın turist şəklində səyahət edəcəyini, bu turistlərin 2 trilyon dollardan artıq vəsait xərcləyəcəklərini proqnozlaşdırır. Bu, dünyada turizmə olan meylin getdikcə daha çox artdığını göstərir. Dünya İqtisadi Forumu tərəfindən turizm, aviadaşımalar və səyahətlər biznesinin inkişafı üzrə hesablanan rəqabət reytinqində Azərbaycan yalnız ilk yüzə daxil olmağı bacarıb. Ölkəmizə gələn turistlər dünyadakı turistlərin cəmi 0,003 faizini təşkil edir ki, bu da olduqca kiçik rəqəmdir. Azərbaycanın turizmdən götürdüyü gəlir qənaətbəxş deyil. Şimali Kipr Türk Cümhuriyyəti kimi kiçik bir ölkə bu sahədən ildə 2 milyard dollar qazandığı halda, ölkəmizdə bu rəqəm 100 milyon dollardır".

**V.Əhmədovanın sözlərinə görə, Azərbaycan hökuməti qeyri-neft sektorunun prioritet sahələrindən biri kimi turizmi seçibsə, bu sektorun inkişafı üçün də real addımlar atmalıdır:** "Belə ki, ilk növbədə mövcud qiymət və tariflər yerli və xarici turistlər üçün optimal həddə endirilməlidir. Qiymətlərin süni artırılması turistlərin hüquqlarını pozur. Ən əsas problem Azərbaycanda istirahətin xarici ölkələrlə müqayisədə baha başa gəlməsi, xidmətlərin səviyyəsinin aşağı olması və turist cəlb etmək üçün lazımi işlərin görülməməsidir. Məsələn, Azərbaycanın lüks hotellərində sutkalıq qonaqlama qiyməti 1000 manatla 2000 manata arasında dəyişməkdədir. Halbuki Amerikada 1 həftəlik səyahət vətəndaşımıza gediş-gəliş xərcləri ilə birgə maksimum 5000-6000 manata başa gələ bilər. Birləşmiş Ərəb Əmirliklərində istirahətin qiyməti 1500 manatdır. Türkiyənin Antalya kimi tanınmış turizm bölgəsində bir həftəlik "all inclusive" istirahət xərci 600-900 manat təşkil edir. Bundan əlavə, aviabiletlərin kifayət qədər baha olması da diqqəti çəkir. Yeni çarter aviareyslərinin açılması zəruridir. Turizm sektorunda fəaliyyət göstərən şirkətlərdən 18% həcmində əlavə dəyər vergisinin tutulması onların xərcini daha da artırır, dolayısıyla qiymətlərin baha olmasının bir digər səbəbi də budur. Bu sahəyə dövlət tərəfindən həvəsləndirici güzəştlərin edilməsi vacibdir".

**Ekspert onu da diqqətə çatdırdı ki, turizm sektorunda ölkəmizin üzləşdiyi əsas problemlərdən biri də məhz bu sektorda ixtisaslı mütəxəssislərin azlığı problemidir:** "Bu sahə üzrə mütəmadi kurslar və treninqlər təşkil olunmalı, xarici təcrübə öyrənilməlidir. Azərbaycanın bölgələrində turizm infrastrukturunun inkişafı üçün dövlət dəstəyi ilə yanaşı, bu sahəyə xarici investorlar da cəlb olunmalıdır. Ölkəmizdə turizm qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir. Hər bir sahədə olduğu kimi, bu sahədə də mövcud inhisar aradan qaldırılmalıdır. Turizm obyektlərinin elektron məlumat bazası formalaşdırılmalı, yeni agentliklər qurulmalı, turoperatorlara yeni standartlar gətirilməlidir".

**Qəzetimizə verdiyi açıqlamada turizmin inkişafı üçün təkliflərini səsləndirən Vüsalə Əhmədova hər bölgənin coğrafi imkanlarına uyğun turizm növlərinin yaradılmasını vacib hesab etdi:** "Xarici turistlərin ölkəyə cəlb edilməsi üçün Azərbaycanda bir sıra kompleks tədbirlərin həyata keçirilməsi vacibdir. İlk öncə ölkənin təbii-coğrafi, infrastruktur və tarixi potensialı müəyyənləşdirilməli, bölgələr arasında fərqliliklər diqqətə alınmalı, turizmin inkişafı üçün yeni hədəflər ortaya qoyulmalıdır. İqtisadi faydanı ən yüksək həddə çatdırmaq üçün keyfiyyət və fərqlilik mütləqdir. Əsas deviz yüksək xidmət, münasib qiymət olmalıdır. İşgüzar, sərgi-yarmarka, alış-veriş, romantik, dini-ziyarət, qış, dağ-idman, çöl-səhra, çay-yaxta, termal, yaylaq kimi müxtəlif turizm növlərinin yaradılmasını təklif edərdim. Xəzər dənizi ətrafı bölgələrdə dəniz turizminin baş tutacağı kimi, Kür çayı ətrafı ərazilərdə çay-yaxta, Mərkəzi Aran bölgəsində çöl-səhra, termal suların çıxdığı cənub zonasında, Astara, Lənkəran, Masallı rayonlarında və Quba-Xaçmaz ərazisində termal, şimal və şimal-şərq bölgələrində dağ-idman, xristianlığa və islama aid müxtəlif ziyarətgahların yerləşdiyi ərazilərdə isə dini-ziyarət turizm növlərinin yaradılması məqsədəuyğun olardı. Yeni evlənmiş cütlüklər üçün simvolik nikah mərasimlərinin, 3-6 yaş qrupundakı uşaqlar üçün müxtəlif əyləncə növlərinin təşkili maraq kəsb edə bilər. Bir vacib məqam isə heç zaman yaddan çıxarılmamalıdır. Xarici turistləri ölkəyə cəlb edərkən yerli turistləri unutmaq olmaz. Çünki güclü turizm üçün daxili bazar şərtdir. Məsələn, fransızların 90,6%-i tətil üçün öz ölkələrini seçirlər. Ölkəmizdə də orta və aşağı gəlirli vətəndaşlarımızın bütün turizm xidmət növlərindən faydalanması təmin olunmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

# Ermənİ dotələbliyi - 34 il öncə və dünən



**Xalid KAZIMLI**

**Ermənilər rus telejurnalist Mixail Leontyevdən üzr istədiriblər. Adamın üstünə o qədər gediblər, zəhləsini o qədər töküblər ki, o, Ermənistanın yeni baş naziri Nikol Paşinyana üzrxahlıq məktubu göndərib.**

Əslində ortada üzr istənilməli bir aşağılama, təhqir-filan yox idi, sadəcə, telejurnalist demişdi ki, çox da atılıb düşməyin, Rusiya arxanızda durmasa, Ermənistan adlı dövlət olmazdı. Və kimi sözlər.

Ancaq Moskvada yaşayan ermənilərin əmələ gətirdiyi diaspor təşkilatının 20 fəalı mayın 10-da "Komsomolskaya pravda"nın redaksiyasına gedib, Leontyevin və Yuryevin üzr istəməsini tələb etmişdilər.

O da, göründüyü kimi, qulağının dincliyini üstün tutaraq, ermənilərin tələbini yerinə yetirib.

Onlar belədir. Çox alınqan, dəymədüşər, ən adi iradı qəbul etməyən, edə bilməyən, xırda bir tənqidi dərhal düşmənçilik aktı kimi qəbul edən, əks-hücuma keçən qövmdür.

Özü də onlar son illərdə belə olmayıblar. Bu, ifrata varmış özünüqoruma instinkti ermənilərdən lap qədim dövrlərdən var...

... Sövet dövrüydü. Ötən əsrin 80-ci illərinin ortalarıydı. Nə Qarabağda, nə Bakıda, nə də İrəvanda erməni-azərbaycanlı cəbhəsi açılmamışdı. Hər iki millətdən olan insanlar eyni həyətlərdə, qonşuluqda dinc-yanaşı yaşayırdılar.

Biz tələbə idik. O zamanlar indiki kimi deyildi, musiqi dinləmək və ya filmə baxmaq üçün ibtidai audio və videomaqnitofonlar vardı. Bir gün tələbə yoldaşlarımızdan biri bir audiokasset gətirdi, dedi, musiqi kaseti deyil, amma məzəli söhbətlər var.

Əvvəlcə elə bildik, bu, o dövrlərdə məşhur olan şair-tamada Alqayıtın koloritli toy söhbətlərinin yazıldığı kasetdir. Sonra məlum oldu ki, o deyil.

Bu, anekdotlar popurrisindən, məzəli söhbətlərdən ibarət bir kaset idi. Hesab edin ki, indinin Cem Yılmazının audioyazısı idi, hansısa konsertdə yazılmışdı. Səhv etmirəmsə, anektodları səsləndirən adam o vaxtlar AzTV-də çalışan, ara-sıra komik standaplar, parodiyalar edən Həsən Cəbrayılov idi.

Audioyazının hansısa konsertdə yazıldığı ondan məlum olurdu ki, birincisi, tez-tez tamaşaçıların gülüş sədaları eşidilirdi. Bir də ortada tamaşaçılardan biri qalxıb standapçıya etiraz bildirirdi.

Bu, bir erməniydi, səsi zəif gəlirdi, amma adam Həsən Cəbrayılovun danışdığı lətifəyə etiraz edir, lətifənin erməni millətini aşağıladığını, ermənilərə qarşı düşmənçilik demək olduğunu iddia edirdi. Həmin lətifə beləydi ki, rus komandir müharibədə azərbaycanlı və erməni əsgəri təlimatlandırıb düşmən səngərinə diversiyaya göndərir, bir müddətdən sonra azərbaycanlı qayıdıb gəlir, məruzə edir ki, tapşırıq yerinə yetirildi. Komandir soruşur ki, yaxşı, bəs Akop hanı, azərbaycanlı əsgər də cavab verir ki, demişdin, akopu partlat, mən də aparıb partladıb gəldim.

Burada yumor o idi ki, azərbaycanlı əsgər komandirin dediyi "okop"la (səngər) əsgər yoldaş Akopu səhv salıb. Əslində bu lətifəyə azərbaycanlılar da etiraz edə bilərdilər ki, nəyə görə bizim əsgər rus dilini bilməyən və kütbeyin kimi qələmə verilir. Ancaq bizimkilər gülüb keçirdilər, erməni tamaşaçı isə etiraz edirdi, lətifədə də olsa bir ermənin partladılmasını düşmənçilik aktı kimi qəbul edir, etiraz bildirir, konserti pozurdu.

İndi xatırlayıram ki, biz o kaseti dinləyəndə istər-istəməz hiddətlənmişdik. Həm məzəli söhbətin yarımçıq qalmasına görə, həm də bir ermənin xırda bir şeydən faciə düzəltməsinə, Bakının ortasında (konsert Bakıda baş tutmuşdu) millətçilik etməsinə görə.

O zaman daha yaşlı, əsgərliyini çəkib gəlmiş dostlarımızdan biri dedi ki, bunlar hər yerdə belədirlər, ne day boq (belə dedi), kimsə bunlara, erməni millətinə güldən ağır söz desin, üstünə tökülüşür, yığılıb şikayət edir, adamı bezar edirlər.

Əmin olun ki, telejurnalist Mixail Leontyevin də başına həmin oyunu gətiriblər.

Bəlkə belə olmaq lazımdır? Bəlkə ən yaxşısı, adi söhbətlərə, tənqidlərə, sataşmalara bu cür ağrılı reaksiya verməli, şivən qoparmaqdır?

Yenı belə edəndə millət hörmətli olurmu?

***P.S.** Ümid edək ki, 34 il öncə konsertinə məğlətə qatılmış parodistimiz sonradan ermənilərdən üzr istəməyib.*

YENİ MÜSAVAT
N 105 (6994) 15 may 2018



# Ağ günlər

Zamin HACI
zaminhaci@gmail.com

"qar yağır
qar yağır
qar yağır
bəyaz pendir qara çörək qırmızı çaxır
qar yağır
qar yağır
qar yağır"

*(Adil Mirseyidin şeirindən)*

**Dünənki yazımda azərbaycanlılara mühacirət üçün Ekvatorial Qvineyanı məsləhət görmüşdüm, ancaq bu gün ağlıma gəldi, o qədər uzaq gedib Afrikada timsaha yem olmağa ehtiyac yoxdur, yanımızda Türkmənistan kimi gözəl yer vardır, eynən bizim kimi status üzünə həsrət Xəzərin o tayına adlasan yetər. Ora elə bir yerdir ki, millətə pambıq yağında bişmiş düyü, ayağına geyməyə də qaloş ver - yetər. Çox qısa müddətdə xoşbəxt ola bilirlər türkmən qardaşlarımız. Sözgəlişi, oğuz türkləri arasında bizə xasiyyət, adət və dil baxımından ən yaxın olanı türkmənlərdir, biləsiniz. (Oğuz sözünün kökünü, anlamını "ağ üz" kimi yozan elmi nəzəriyyə vardır). Biz, bir növ, Türkmənistan türkləri ilə Türkiyə türkləri arasında aralıq mərhələyiq. Körpü adlandıra bilərsiniz - həmişəki coğrafi qismətimiz tipində. Bizi Türkmənistandan fərqləndirən çox cüzi, barmaq sayı qədər adam olubdur, onlar da çox şükür, ölüb başımızdan açılıblar. Bunlardan saya bilərəm Axundov, Hacıbəyov, Məmmədquluzadə, Rəsulzadə, Sabir və sairə...**

Haşiyə çıxaraq qeyd edim ki, Türkmənistana Ələtdə yerləşən Bakı Beynəlxalq Dəniz Limanından getmək olar. Dünən onun da açılışı olmuşdur. Mübarəkdir, ancaq mən bir şeyi anlamadım ki, niyə Bakıdan 82 kilometr aralıdakı liman "Bakı limanı" adlanır. Onda mən Biləcəridə yaşasam da Nabran sakini sayıla bilərəmmi? Yayda vağzalda özümü günə verib dincələrəm. Doğrudur, formal olaraq Ələt Bakının Qaradağ rayonuna daxildir, ancaq 82 kilometr bir liman üçün uzaq deyilmi? Bunun bənzəri Şəki dəmir yolu vağzalında da var idi, yadıma gəlir. Vağzal Şəki şəhərindən o qədər aralıda idi ki, qatardan enəndə məni Şəkiyə aparan taksi Bakı-Şəki dəmir yolu biletinin qiyməti qədər pul almışdı. Deyilənə görə, qədimdə bu yolun sxemini bir erməni qəsdən belə edibdir.

Bax, dünən saytda türkmənbaşı - prezident Qurbanqulu müəllimin maşın yarışında yerli avtoş-idmançıları da udmasını görəndə qəlbim açıldı. Başqa nə cür ola bilərdi? Kimin cürəti var dövlət başçısından qabaqda olsun? Rəhbər elə hər mənada öndə gedən deməkdir.

Biz indi-indi Bakıda "Ağ şəhər" projesi-zad başlamışıq, türkmənlər çoxdan Aşqabadı ağ boyayıblar. Təbii ki, rəhbərin qərarıyla. Sözün əsl mənasında şəhər ağ günə çıxıbdır. Yəni orada ağ rəngdən başqa hər hansı rəngi binaya vurmaq qadağandır. Di gəl, bu ağ günün fonunda küçələr bomboş olur. Hansısa xarici azıb Türkmənistana gedəndə adətən təəccüblənir ki, görəsən niyə küçədə bir adam da yoxdur. Gündüz-gecə hər yan boşdur. Hamı iş-güclə məşğuldurmu? Yox, əlbəttə. Orda iş olsaydı camaat bizim kimi Rusiyaya qaçmazdı. Sadəcə, şəhər qəşəng düzəldilib, millət bu fonu korlamaq istəmir. Kukla-şəhərin üstündə milçəyə oxşamaq istəmirlər. Bizdə də belə regionlar var, adını çəkmirəm - deyirlər bu il amnistiya olmayacaqdır.

Tək Aşqabadla iş qurtarmır, beş-on gün qabaq Qurbanqulu müəllim ölkədəki bütün maşınları da ağ boyamağa fərman verdi. İndi orda hamı ağ maşın sürəcəkdir. Gör nə qədər koloritli, maraqlı prezidentdir... Böyük ehtimal lap axırda türkmənlərin dərisini ağartmaq qərarına gələcəkdir. Niyə də olmasın? Rəhmətlik Maykl Cekson bu əməliyyatı elətdirmişdi. Semaşkonun həkimlərinə...

Ağ demişkən, qərb qonşumuz Gürcüstanda isə camaat "Ağ səs-küy" adında küçə etirazlarına başlayıbdır. Burada "ağ" deyərkən narkotik nəzərdə tutulur. Hansısa gənclər narkotikdən ölüb, polis buna görə narkotaciriləri tutub, millət isə həmin narkotik satanlara azadlıq tələb edir. Sən probleme bax... Gürcülər deyəsən demokrasinin kayfını hər cür tutmağa başlayıblar. Hərçənd, ümumən bütün yaxın coğrafiyamızda ağ xəstəliyin yayıldığını söyləyə bilərik. Hərə bir cür "ağarıb" xəstələnmişdir.

Sovet vaxtı İraq ədəbiyyatından tərcümələr kitabı çıxmışdı, adı "Ağ günlərin sorağında" idi. Guya İraq xalqı Səddam müəllimin rəhbərliyi, sovetlərin də yardımı ilə sosializm qurub xoşbəxt olacaqdı. Bu haradan yadıma düşdü, heç bilmirəm.

Çox ağ eləməmiş yazını bitirirəm.



# Soçidə kritik görüş: Putin təlimat, Paşinyan söz verdi

## Kreml başçısı yeni erməni baş nazirini "dişinə vurdu" və "Yol xəritəsi" cızdı; Paşinyan Rusiyadan xarici investorlara səsləndi; müharibə-blokada şəraitində, Rusiya asılılığında olan ölkəyə yatırım qoyan tapılacaqmı...

**Ermənistanda küçə hərəkatı nəticəsində baş nazir olmuş Nikol Paşinyan dünən Soçidə ilk dəfə Rusiya prezidenti Vladimir Putinlə görüşüb. "Yeni Müsavat"ın öncədən xəbər verdiyi kimi, bu görüş ən əvvəl gizli qərbçi sayılan Paşinyanın yeni postda siyasi taleyi üçün mühüm önəm daşıyırdı.**

Soçi görüşü həmçinin Kremlin ölkəsinin Saakaşvilisi olmaq arzusu ilə yaşayan Paşinyanı "dişə vurması" ilə yadda qalmalı idi. Eyni zamanda Putinin ona hansı "Yol xəritə"sini məsləhət görməsi və başa salacağı "oyun qaydaları" ilə önəm kəsb edirdi.

*****

Səfər ərəfəsində Ermənistanın yeni baş naziri bir daha Rusiyaya reveranslar edib, hətta yaltaqlanıb. "Rusiya və Ermənistan arasında əlaqələr bundan sonra daha da qardaşlıq xarakteri alacaq" deyib. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, Soçiyə yola düşməzdən öncə, Rusiya şəhəri Adlerdəki erməni kilsəsində bəyan edib.

"Bütün şərait yaradılıb ki, biz öz vətənimizdə yaşaya və yarada biləк. Buna da şübhə yox ki, Rusiya və Ermənistan arasında əlaqələr bundan sonra daha da qardaşlıq xarakteri alacaq. Və mən əminəm ki, bizim görüşümüz effektli olacaq. Allah Rusiya Federasiyasını qorusun, Allah Ermənistan Respublikasını qorusun. Yaşasın, erməni-Rusiya dostluğu", - deyə Paşinyan bildirib.

**Erməni baş nazir kilsədən həmçinin xarici biznesmenlərə Ermənistana yatırım qoymaq üçün çağırış edib:** "Mən ilk növbədə erməniləri, Soçi biznesmenlərini və Rusiyadakı erməni və rusiyalı biznesmenləri Ermənistana gəlməyə və sərmayə yatırmağa, iş yerləri yaratmağa çağırıram. Çünki bu, yeni Ermənistandır, burada hər bir sərmayə qorunacaq".

Amma problem də ondadır ki, müharibə vəziyyətində, blokada şəraitində və Rusiya asılılığında olan, dünya okeanına çıxışdan məhrum bir ölkəyə böyük yatırım qoyan tapılacaqmı? Axı vədlər ayrı, reallıq ayrıdır. Bu da gerçəkdir ki, Ermənistanın siyasi rəhbərliyi, öncəliklə onun "demokratik" baş naziri Nikol Paşinyan nə qədər müstəqil olsa da, Moskvanın cızdığı arealda müstəqil ola bilərlər və Ermənistanın iqtisadi-siyasi həyatı, hərbi-təhlükəsizliyi ilə bağlı bütün həlledici qərarlar yenə Moskvada veriləcək.

*****

Paşinyanın Rusiyaya səfəröncəsi leksik reveransı öz yerində, bu da faktdır ki, yeni hökumətdə əsas vəzifələri o, Qərblə əməkdaşlığa üstünlük verən şəxslərə etibar edir ki, bu da Rusiyanın xoşuna gəlməyəcək. Çünki xarici siyasət daxili siyasətin davamı sayılır və ya əksinə. Yeri gəlmişkən, təzə xarici işlər naziri Zoqrab Mnatsakyan da prezident Armen Sərkisyan kimi "Qərbin adamı" hesab olunur.

**"Paşinyanın Qərbin adamı olması və xüsusilə də Qərb dünyasında yerləşən erməni diasporunun itaətində olması Kremli ciddi narahat edir". Bu nu politoloq Qabil Hüseynli axar.az-a deyib. Onun sözlərinə görə, məhz buna görə Rusiya tərəfindən 7 rayon məsələsi yenidən gündəmə gətirilir:** "Bəzi erməni analitikləri də açıq bildirirlər ki, əgər indiki şəraitdə Rusiya prosesə bigänə qalsa, Azərbaycan ordusu çox qısa müddətdə öz ərazi bütövlüyünü təmin edəcək. Bu isə Ermənistanı vəlvələyə salıb. Hesab edirəm ki, Paşinyanın savadsız siyasi bəyanatları irəlidə Ermənistan üçün ciddi problemlər yaradacaq. Ümumiyyətlə, Paşinyanın son günlərdəki siyasi fəaliyyəti Moskvanın heç xoşuna gəlmir. Bu vəziyyət isə Ermənistanda qarışıqlıq yaradıb. Hətta hakimiyyətdən məhrum edilmiş Qarabağ mafiyası da Paşinyanın nüfuzunu çox qısa müddətdə itirəcəyi günü səbirsizliklə gözləyir".

**Erməni siyasi şərhçi Mamikon Babayan isə hesab edir ki, Nikol Paşinyan öz populyarlığını saxlamaq üçün Dağlıq Qarabağın "müstəqilliyini" diplomatik nəticələri göz önünə alaraq, birtərəfli qaydada tanımağa risk etməyəcək. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, "Vestnik Kavkaza" nəşrindəki məqaləsində yazıb.**

"Rusiyaya qarşı fəal beynəlxalq sanksiya siyasətinin olduğu dövrdə Ermənistan olduqca həssas bir yerdir. Qarabağ ətrafında vəziyyətin kəskinləşməsi bu və ya başqa şəkildə mütləq Rusiyanın maraqlarına toxunacaq - hansı Rusiyadan ki, Ermənistan təhlükəsizlik məsələsində asılıdır. Aydındır ki, Ermənistanın gələcək xarici siyasət vektorunun inkişafı Güney Qafqazda əlverişli beynəlxalq münasibətlərə oriyentasiya olmalıdır - harada ki, sabitləşmiş paradiqmaların keyfiyyət dəyişikliyi yalnız Ermənistanın Azərbaycan və Türkiyə ilə barışığından sonra mümkündür", - deyə qeyd edib.

Sonuncu fikirlə razılaşmamaq çətindir. Doğrudan da, işğalçı ölkənin nicatı Bakı və Ankara ilə dil tapmaqda, iki böyük həmsərhəd ölkə və xalqla barışmaqdadır, nəinki müticəsinə Rusiya boyunduruğunda, blokada rejimində qalmaqda. Yolu bəlli: Dağlıq Qarabağ konfliktinin ədalətli həlli. Nikol Paşinyan Rusiyaya yüz dəfə səfər eləsə də, Qərblə Moskva arasında sələfləri kim nə qədər oynasa da, xarici biznesmenlərə hər gün çağırış eləsə də, nə bu formul, nə də Ermənistan üçün indiki sərt reallıq dəyişməyəcək. Zatən Putinlə görüşə o, məhz bu reallıqla gedirdi...

*****

**Yazı hazırlanarkən Putin-Paşinyan görüşünün bəzi detalları məlum oldu. "Yeni Müsavat" gazeta.ru-ya istinadən xəbər verir ki, Putin görüşdə incə şəkildə erməni baş nazirə gələcək əməkdaşlıqla bağlı vacib mesajlarını çatdırıb.**

"Sizinlə hökumət başçısı vəzifəsində ilk görüşümdən məmnunam və sizə uğurlar arzulamaq istəyirəm. Ümid edirəm ki, münasibətlərimiz indiyə qədər olduğu kimi, sürətlə inkişaf edəcək. Fikrimcə, bizim strateji müttəfiqlik əlaqələrimiz müzakirəyə ehtiyacı olmayan məsələdir. Biz Ermənistanı regionda ən yaxın tərəfdaş və müttəfiq kimi görürük. Bu, iqtisadi və təhlükəsizlik sferasına da aiddir. Ümid edirəm ki, indiyə qədər Rusiya və Ermənistanın iqtisadi əməkdaşlıq sahəsində əldə etdiyi nəticələri qoruyub saxlamağa nail olacağıq" - Putin bildirib.

Rusiya lideri qeyd edib ki, Moskva beynəlxalq miqyasda, o cümlədən Rusiya ilə Ermənistanın bir-birini dəstəklədiyi BMT-də Ermənistanla fəal işləməkdə davam edəcək.

**Öz növbəsində N.Paşinyan söz verib ki, Rusiya ilə müttəfiqlik münasibətləri davam etdiriləcək və heç kim İrəvan və Moskva arasındakı münasibətləri şübhə altına qoymaq niyyətində deyil.** "Ermənistanın və Rusiyanın strateji əməkdaşlığı müzakirə mövzusu deyil. Buna da sizi əmin edə bilərəm ki, bu məsələ ilə bağlı Ermənistanda, demək olar, konsensus var", - deyə o vurğulayıb.

Paşinyan Rusiya və Ermənistan arasında iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb və Ermənistanda gərgin anlar yaşanarkən Rusiyanın tutduğu mövqeni yüksək qiymətləndirdiyini deyib.

*****

Beləliklə, Soçidəki ilk görüşdə Putin ikitərəfli əlaqələrin indiki səviyyədə qalması üçün Paşinyana qiymətli təlimatlarını verib, faktiki, ona "Yol xəritəsi" cızıb, erməni baş nazirindən gərəkən sədaqət andını alıb. Qalır nəticəni gözləmək.

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 105 (6994) 15 may 2018

**ABŞ-ın İran və Rusiyaya qarşı sanksiyaları bu ölkələrdə sərnişin təyyarələri ilə bağlı ciddi problemlərin yaranmasına səbəb olub. Əgər Rusiyada söhbət ayrı-ayrı milyarderlərdən gedirsə, İranda məsələ daha kəskindir. Belə ki, ABŞ prezidenti Donald Tramp ölkəsinin İranla imzalanmış nüvə müqaviləsindən çıxdığını bəyan etdikdən sonra avbiasiya nəhəngləri olan "Boeing" və "Airbus" şirkətləri İrana təyyarə satışına dair müqavilələrin icrasını dayandırıblar.**







# ABŞ-ın Rusiya və İrana "təyyarə hücumu" başladı

## Hər iki ölkə ciddi itkilərlə üzləşir

ABŞ-ın xəzinə naziri Steven Mnuçin isə "Boeing" və "Airbus"un İran şirkətlərinə sərnişin təyyarələri satışına dair lisenziyalarının ləğv edildiyini bildirib.

Onu da qeyd edək ki, "Airbus" 2016-cı ilin yanvarında "İran Air" ilə 19 milyard dollarlıq alqı-satqı müqaviləsi imzalamışdı. Müqaviləyə əsasən şirkət İran tərəfinə 100 təyyarə tədarük etməlidir. İndiyədək bu təyyarələrin cəmi 3-ü sifarişçiyə çatdırılıb.

"Boeing" isə 2016-cı ilin iyununda "İran Air"lə 2017-2025-ci illər üzrə 17 milyard dollar müqabilində 80 təyyarənin alqı-satqı müqaviləsini imzalamışdı. Daha bir İran şirkəti olan "Aseman" isə "Boeing"dən 3 milyard dollar müqabilində 30 təyyarə alınmasına dair razılığa gəlmişdi. Hər 3 müqaviləni ABŞ Xəzinə Nazirliyi Xarici Kapitala Nəzarət Ofisi (OFAC) elə həmin il təsdiq edib.

"Boeing"in icraçı direktoru Dennis Muilenburq müqavilənin ləğv edilməsinin onlara çox təsir etməyəcəyini və "Boeing 777" istehsalının İran qərarlarından asılı olmadığını deyib.

Avropa nəhəngi olan "Airbus" da ABŞ-ın tətbiq etdiyi sanksiyalara tabe olacaq. Şirkətdən verilən açıqlamada ABŞ-ın İranla müqavilədən çıxmasını diqqətlə təhlil etdikdən sonra necə hərəkət edəcəkləri-nə qərar verəcəkləri bildirilib. Şirkət bunun bir az vaxt alacağını qeyd edib.

Qeyd etmək yerinə düşər ki, hər iki müqavilə təyyarə parkı həddsiz köhnələn İran üçün çox vacib idi. Belə ki, İslam İnqilabından sonra sanksiyalara məruz qalan İran təyyarə parkında heç bir yenilənmə apara bilməyib. İranın mülki aviasiya idarəsinin rəhbəri hələ 2016-cı ildə bildirmişdi ki, ölkədə 250 təyyarə var ki, bunların da 230-u yenilər ilə əvəz edilməlidir. Müqavilələrin ləğvi İranın sərnişin aviasiyası üçün böyük zərbə deməkdir.

Nəzərə çatdıraq ki, ABŞ sanksiyaları Rusiya oliqarxiyası üçün də ciddi təyyarə problemi yaratmaqdadır. Belə ki, rusiyalı oliqarx Oleq Deripaska lizinqə götürdüyü 3 ədəd biznes-klass tipli "Gulfstream" təyyarəsinin xidmətlərindən istifadəni dayandırmağa məcbur olub. Təyyarələrin satışı ilə məşğul olan "Freestream" şirkətinin rəhbəri Əliriza İttihadiehin RBK-ya verdiyi məlumata görə, buna səbəb təyyarələrin sahibi olan şirkətlərin ABŞ sanksiyaları üzündən milyarder və onun şirkətlərinə xidmət göstərməsinin mümkün olmamasıdır.

İttihadiehin dediyinə görə, Deripaska və ali idarəetmə orqanı üzvlərinə xidmət göstərən təyyarələr sahiblərinə qaytarılmalı, lizinq müqavilələri isə vaxtından əvvəl ləğv olunmalıdır. Qeyd edək ki, "Gulfstream G550" təyyarələri Deripaskanın nəzarətində olan "Credit Suisse" və "Raifeisen" bankları və şirkətləri vasitəsilə icarəyə götürülmüşdü.

"Reuters"in məlumatına görə, hazırda təyyarələrdən 2-si hərəsi 30 milyon dollara yaxın qiymətə satışa qoyulub.

Xatırladaq ki, ABŞ-ın apreldə açıqladığı sanksiyalara əsasən Amerika şirkətlərinə O.Deripaskaya məxsus və ona bağlı şirkətlərlə hər hansı formalı əməkdaşlıq qadağan edilib. Amerika şirkətlərinə həmçinin ABŞ mənşəli olmayan, sanksiya tətbiq edilənlərlə iş quran şirkətlərlə əməkdaşlıq da qadağan olunub. Buna görə də hazırda Avropa bankları Deripaska və ona bağlı şirkətlərlə hər hansı işbirliyindən çəkinirlər. "En+"a qarşı təzyiqləri azaltmaq üçün aprelin 27-də Deripaska şirkətin Direktorlar Şurasından getməyə, həmçinin ondakı payını azaltmağa razılaşıb.

Mayın əvvəlində isə ABŞ-ın maliyyə naziri Stiven Mnuçin bildirib ki, ABŞ-ın məqsədi heç də "Rusal"ı müflis etmək, yaxud biznesdən sıxışdırmaq deyil. Lakin şirkətin qiymətli kağızlarının 48 faizinə sahib olan O.Deripaska onun üzərindəki nəzarətdən imtina etməlidir.

Xatırladaq ki, bundan əvvəl sanksiyalar üzündən daha bir Rusiya biznesmeni - Araz Ağalarov da az qala təyyarəsindən məhrum olurdu. Belə ki, onun "Gulfstream G550" təyyarəsini girov qoyaraq kredit götürdüyü ABŞ-a məxsus "Stonebriar Commercial Finance" bankı kreditin vaxtından əvvəl bağlanmasını tələb edərək, əks halda, təyyarənin müsadirə olunacağını bildirib. Buna görə də milyarder 20 milyon dollarlıq krediti vaxtından əvvəl bağlamağa məcbur olub.

Sanksiyaların təsiri altına düşən oliqarxların əksəriyyətinin ABŞ istehsalı olan "Gulfstream" və "Boeing" təyyarələri ilə uçduğunu nəzərə alsaq, tezliklə digərlərinin təyyarə problemi yaşayacağını gözləmək olar. Məsələn, adı sanksiya siyahısında yer alan dağıstanlı milyarder Süleyman Kərimov iki "Boeing 737-7BJ" və "Boeing-737-8LX" təyyarələrinə malikdir. "Surqutnefteqaz" şirkətinin rəhbəri Vladimir Boqdanov isə "Gulfstream IV-SP" təyyarəsində uçur.

Oliqarxlardan həmçinin Viktor Vekselberq və Andrey Skoç Avropa istehsalı olan "Airbus" təyyarələrinə malikdir. Vekselberq həmçinin dəyəri 23 milyon dollar olan "Bombardier"ə, Vahid Ələkbərov 30 milyon dollarlıq "Falcon 900EX"ə sahibdir. Digər oliqarxların da təyyarə parkında ABŞ mənşəli, yaxud istehsalının bir hissəsi ABŞ-a bağlı maşınlar üstünlük təşkil edir.

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

# İnqilab Ermənistandan Gürcüstana keçir?



## Elçin Mirzəbəyli: "Rusiya KİV-nin Tiflisdə baş verənləri Ermənistandakı proseslərin davamı, "MDB məkanının destabilləşdirilməsinə cəhd" kimi qiymətləndirməsi ucuz təbliğatdır"

**Gürcüstanın paytaxtı Tiflis son bir həftədə mitinqlərlə çalxalandı. Təkcə ötən həftənin son iki günündə Tiflisdə gecə klublarındakı xüsusi əməliyyata etiraz olaraq keçirilən aksiyalar kütləviliyinə görə ciddi vəziyyət yaratdı. Aksiyanın təşkilatçısı olan "Ağ səs-küy" hərəkatının lideri Beka Tsikarişvili bildirib ki, aksiyaya bir həftəlik fasilə verilir. O bildirib ki, bu müddət ərzində etirazçılar daxili işlər naziri ilə görüşdə onlara verilmiş vədlərin nə qədər real olacağını müşahidə edəcəklər. Növbəti aksiya bu həftənin şənbə gününə təyin olunub.**

Qeyd edək ki, bir az əvvəl Tiflisin mərkəzində aksiyaların keçirildiyi Rustaveli prospektinə "akustik toplar"ı olan maşınlar gətirilmişdi.

Gürcüstanın daxili işlər naziri Georgi Qaxariya Tiflisdə aksiyaların keçirildiyi Rustaveli küçəsinə gələrək "Ağ səs-küy" hərəkatının üzvləri ilə parlament binasında görüş keçirib.

Görüşdən sonra hərəkatın lideri Beka Tsikarişvili aksiya iştirakçılarına müraciət edərək onları sakit olmağa çağırıb. O bildirib ki, görüşün vacib nəticələri olacaq. G.Qaxariya və etirazçılar arasında baş tutmuş görüşdə parlament sədri İrakli Kobaxidze və Tiflis meri Kaxa Kaladze də iştirak edib.

Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili isə son günlər ölkədə baş verən hadisələrlə bağlı xüsusi brifinq keçirib. Baş nazir deyib ki, hər kəs fikrini ifadə etmək hüququna malikdir, lakin qarşıdurmaya və cəmiyyəti parçalamağa qətiyyən yol verilməməlidir.

O, hüquq-mühafizə orqanlarının əməkdaşlarını vətəndaşların təhlükəsizliyini maksimum təmin etməyə və mümkün qarşıdurmanın qarşısını almağa çağırıb.

Lakin bütün bunlara baxmayaraq, Tiflisdə polis və etirazçılar arasında qarşıdurma olub.

Bu səbəbdən də aksiyaların keçirildiyi ərazilərə əlavə polis qüvvələri gətirilib. Parlament binası qarşısında nəqliyyatın hərəkəti dayandırılıb.

Bir sıra siyasi analitiklər hesab edir ki, qonşuluqdakı Ermənistanda 1 aya yaxın davam edən məxməri inqilab və keçmiş prezident Mixail Saakaşvilinin Gürcüstana qayıdacağı xəbərdarlığı Gürcüstanda siyasi hərəkətlənməyə səbəb olub. Gürcüstan KİV-i ayın 12-dən paytaxtda ictimai vəziyyətin gərginləşməsini təsadüfi hesab etmir. Düzdür, iki gündür davam edən etirazlar gecə klublarında narkotiklər əleyhinə reydlərə görədir, amma mənbələr prosesin özünə siyasi çalar əlavə edəcəyini istisna etmirlər. Hakimiyyət Saakaşvilinin gizli qiyam hazırlamasından və Ermənistandakı hadisələrin Gürcüstanda təkrarlana biləcəyindən ehtiyatlanır.

**Politioloq Elçin Mirzəbəyli isə hesab edir ki, aksiya təşkilatçılarının Gürcüstanın daxili işlər naziri ilə görüşü zamanı müzakirə olunan məsələlər və görüşün nəticəsi olaraq aksiyaların dayandırılması problemin siyasi motivli olmadığını nümayiş etdirir:** "Gürcüstanın müvafiq dövlət qurumları aksiya iştirakçılarına narkotiklərin dövriyyəsi ilə bağlı qanunvericiliyin yumşaldılacağına söz veriblər. Aksiya təşkilatçılarının qənaətinə görə, əgər Gürcüstan Avrointeqrasiya yolunu seçibsə, o zaman ölkə qanunvericiliyi də Avropa standartlarına uyğunlaşdırılmalıdır.

Baş verənlərlə bağlı Gürcüstanda fəaliyyət göstərən siyasi partiyaların mövqeyi, aparılan müzakirələr, ekspert rəyləri də sübuta yetirir ki, problem konkret halda narkotiklərin dövriyyəsinə radikal yanaşan, bütövlükdə isə Gürcüstanın qərb dəyərlərinə üz tutmasına münasibətdə mühafizəkar münasibət bəsləyən siyasi baxışlarla liberal dünyagörüşünün lokal qarşıdurmasından gedir. Daxili işlər nazirinin baş verənlərə görə dərhal üzr istəməsi, qanunvericiliyin liberallaşdırılması ilə bağlı vədlər verməsi də təsdiqləyir ki, Gürcüstanın mövcud hakimiyyəti mühafizəkar dünyagörüşünün yanında deyil".

**E.Mirzəbəyli qeyd etdi ki, Rusiya kütləvi informasiya vasitələrinin Gürcüstanda baş verən hadisələri Ermənistandakı proseslərin davamı kimi təqdim etməsi, hətta bir az da uzağa gedərək "MDB məkanının destabilləşdirilməsinə cəhd" kimi qiymətləndirməsi ucuz təbliğatdan başqa bir şey deyil.**

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 105 (6994) 15 may 2018

**Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski növbəti dəfə sarsaqlayıb. O bildirib ki, ABŞ ermənilərin və kürdlərin əli ilə Türkiyədə narahatlıq yaratmaq niyyətindədir.**

# Jirinovskidən şok sayıqlamalar: "Türkiyə parçalanacaq"

## Fərəc Quliyev: "Jirinovskinin istəkləri Rusiyanın rəsmi arzularıdır"

## Əhəd Məmmədli: "10-15 ilə Rusiyanın özü parçalanacaq"



**Sitat:** "İrəvan Qərbi Ermənistanın onlara verilməsi qarşılığında ABŞ-a yardım edəcək. Kürdlər və ermənilərin vasitəsilə onlar 10-15 il sonra Türkiyəni parçalayacaqlar. Ona görə ki, Ermənistan amerikalılara İrana qarşı əməliyyatlarda yardım edəcək, əvəzində Qərbi Ermənistanı alacaq. Kürdlər isə birləşmiş Kürdüstan yaratmaq istəyirlər. Kürdlərin böyük hissəsi Türkiyədədir. Yekunda Türkiyə və İranın yerdə qalan hissəsi Rusiyanın tərkibinə daxil olacaq".

Kremlin "danışan dili" sayılan Jirinovskinin bu açıqlamalarının təsadüf olmadığı, əslində onun Rusiyanın niyyətini ifadə etdiyi, bu yolla mesajlar verdiyi bildirilir. Partiya sədri nə qədər qeyri-ciddi siyasətçi sayılsa da, onun fikirlərinin Türkiyə və İran tərəfindən etiraz doğuracağı gözləniləndi. Görünən odur ki, Jirinovski açıq şəkildə hər iki dövlətin yer üzündən silinəcəyi barədə danışır, Qərbi Ermənistan və Kürdüstan məsələsini məqsədli şəkildə gündəmə gətirir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev hesab edir ki, Jirinovskinin dedikləri Rusiyanın rəsmi fikridir:** "O, tez-tez bu cür sərsəm fikirlər səsləndirir. Bu, Rusiyanın sarsaq siyasətidir. I Pyotrdan bu tərəfə sarsaq siyasəti davam etdirirlər. Onların burada Amerikanın adını çəkməkdə məqsədləri odur ki, bu siyasəti başqalarının həyata keçirmək istədiyi görüntüsünü yaratsınlar, "bu siyasəti biz aparmırıq, sadəcə, bu dövləti dağıdacaqlar, biz də payımızı götürürük" kimi mesajlar verirlər. Rusiya-Türkiyə arasındakı son zamanlardakı yaxınlıq səmimi deyil. Necə səmimidir ki, Rusiyada PKK-nın ofislərini saxlayırlar. Səlahəddin Dəmirtaş ora gedəndə xüsusi bir qarşılanma orada oldu. Jirinovskinin istəkləri Rusiyanın rəsmi arzularıdır. Təbii ki, onlar hələ arzularına çatmayıblar, amma ayıq olmalıyıq ki, bizim bölgədə Türkiyə, türk dünyası üzərində qurduqları planları həyata keçirə bilməsinlər. Onlar türk dünyasının ayaqlarının bir az büdrəməsini gözləyirlər. Bu məsələlər ciddiyə alınmalıdır. Bunu bir sarsağın fikirləri kimi qəbul etmək olmaz. Mütləq Rusiyadan bir dövlət rəsminin bu açıqlamalarla bağlı mövqe bildirməsi tələb olunmalıdır. 2010-ci ildə parlamentdə ilk çıxışımı Türkmənçay və Gülüstan müqavilələrinin qüvvədən düşməsi ilə başlatdım. Dedim ki, biz bu müqavilələrin qüvvədən düşməsini tanımalıyıq. Çünki belə olan halda avtomatik olaraq İrəvanın, Ermənistanın özünün statusu haqqında danışa bilərik. Azərbaycanı bölən Rusiya və İran idi. Artıq subyektlərdən biri ortada yoxdur. Azərbaycanın Şimalı isə müstəqildir. Deməli, bu müqavilə qüvvədən düşüb. Tarixçilərimiz, diplomatlarımız, Xarici İşlər Nazirliyi, siyasi partiyalar üzərlərinə düşən məsələləri informasiya maşınında ortaya qoymalıdırlar. Jirinovskinin axmaq-axmaq danışdığını söyləmək düzgün taktika deyil. O, çox ağıllı düşməndir. Birmənalı şəkildə Rusiyanın mövqelərindən çıxış edir. Amerika tərəfindən İran üzərində sıxlaşan buludları Rusiya da görməmiş deyil. İranın dəyişməsi ilə bağlı ortada layihələrin olduğu görünür. Rusiya da qonşu dövlətlərə qarşı bir yerə qədər sadiq olub. İndiyə qədər bunun şahidi az olmamışıq. Bu ölkənin dostu yoxdur. Ukrayna kimi yaxın qardaş saydığı dövlətin belə nəinki arxasında durmadı, əksinə, ərazisini parçaladı. Kreml hətta bununla Amerikaya da mesaj verir ki, biz onun nəinki arxasındayıq, siz dağıdın, amma bizim də payımızı verin. Bu gün Rusiyanın heç bir müttəfiqi yoxdur. Belə açıqlamalar Rusiyanın yoxlama siyasətidir. Bu siyasətə uyğun siyasət yürüdülür".

**Politoloq Əhəd Məmmədli 10-15 il sonra Rusiyanın özünün parçalanacağını bildirdi:** "Rusların özlərinin bir deyimi var: "Arzu etmək ziyan deyil". 10-15 ilə Rusiyanın özü parçalanacaq. Dünya xəritəsində Rusiya adlı dövlət olmayacaq. Türkiyəyə qarşı Amerikanın, Avropanın, Rusiyanın, İranın da həmləri olub və olacaq da. Amma həmişə olduğu kimi düşmənlərin bütün həmlələrini qardaş ölkə dəf edəcək. Hazırda parçalanmağa meylli birinci ölkə Rusiyadır. Rusiyada rus sayılan kazaklar artıq özlərini fərqli xalq sayaraq muxtariyyət tələb edirlər. Dünyada ən çox tərkibində milli muxtar respublika olan dövlət Rusiyadır. Və bu muxtariyyətlər hər an başlarını qaldıra bilərlər. Əslində kürdlər türklərə ən yaxın xalqdır. Antanta ordularını türklərlə bərabər kürdlər də Anadoludan qovublar. Türk xalqının ən çətin dönəmində qardaş kürd xalqı yanında oldu. Sadəcə, sonradan bir qisim ateist-marksist kürdü əvvəl SSRİ, sonra da ABŞ müsəlman Türkiyəyə qarşı istifadə etdilər. AK Partiya iqtidara gələndən sonra qardaş türk və kürd xalqları daxili xainlər və xarici düşmənlərə qarşı birlikdə cavab verdilər və yenə də birlikdə bütün xain planlara cavab verəcəklər. Rusiyaya gəldikdə isə bu dövlət əsrlərdir arzulayır, planlar qurur ki, İstanbulu paytaxtı etsin. İndiyə qədər bütün planları da iflasa uğrayıb. Ruslar yenə bu illüziyalarından əl çəkməyiblər. Türklərin Qızıl Orda imperiyasının qalıqları üzərində dövlət quran Rusiya özü qalıqlara çevriləcək və bu qalıqlar üstündə yeni türk, müsəlman dövlətləri qurulacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Ermənistandakı məxməri inqilab Paşinyana qarşı çevrilə bilər

## Siyasi analitiklər: "Bu ölkədə proseslər hələ yekunlaşmayıb"



**Ermənistanda 13 apreldə başlanan və bir aya yaxın davam edən mitinqlər məxməri inqilaba səbəb oldu. Artıq bir həftədir baş nazir seçilən meydan mitinqlərinin lideri Nikol Paşinyan yeni hökumət formalaşdırır. Ermənistan əhalisi, qonşu dövlətlər, Ermənistanda marağı olan beynəlxalq güclər hələ ki prosesi izləyir, məxməri inqilabın nəticələrinin necə olacağını gözləyirlər.**

Ermənistan mətbuatındakı bəzi icmallarda zaman amilinin mühüm olduğu vurğulanır. Deyilir ki, "Məxməri inqilab"ın hədəflərinə çatmaq üçün çevik və qərarlı addımlar atılmalıdır, əks təqdirdə, "Antiməxməri inqilab" təhlükəsi baş qaldıra bilər.

Əksər ekspertlər hesab edir ki, əslində Ermənistandakı prosesləri, məxməri inqilabı tamamilə başa çatmış saymaq olmaz.

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, Ermənistanda proses əslində bitmiş sayılmamalıdır. Sadəcə proses hazırda yeni mərhələyə qədəm qoyub. Bu mərhələ Ermənistan əhalisinin rifah halını düzəltməyəcəyi, Ermənistanı üzləşdiyi ağır problemlərdən qurtarmayacağı halda yenidən meydan hərəkatı mərhələsinə qayıdacaq. Odur ki, 13 apreldən start götürən proses davam edəcək, yeni-yeni rənglər alacaq: "Nikol Paşinyanın baş nazir kimi Dağlıq Qarabağa səfəri zamanı səsləndirdiyi bəyanatları hətta Ermənistan siyasi elitasının aparıcı nümayəndələri də bölüşmür. Məsələn, bir həftə öncəyə qədər Ermənistanın müdafiə naziri olan Viqen Sarkisyan bildirib ki, Paşinyanın Dağlıq Qarabağla bağlı söylədikləri və bu zaman siyasətçiyə yaraşmayan fikirlər söyləməsi onu göstərdi ki, Paşinyan tezliklə bölgəni qanlı müharibələrə cəlb edə bilər. Paşinyana qarşı indidən Qarabağ klanının narazılığı mövcuddur. Ölkənin daxilində bir müddət sonra ona qarşı etirazlar təşkil edilə bilər. Kifayət qədər kapitala sahib güclər var ki, Paşinyanı qəbul etmirlər. Bu güclər bir müddət sonra hərəkətə gələcəklər. Nikol Paşinyan ölkənin problemlərini çətin ki, qısa müddətdə həll edə bilsin. Bu da bir müddət sonra mitinqlərin onun özünə qarşı başlayacağı ehtimalını artırır. Ermənistanın boğazı Kremlin əlindədir. Kreml istədiyi vaxt onu sıxıb xalqın yeni çıxışlarına rəvac verə bilər".

**ADP sədrinin müavini, siyasi ekspert Taliyət Əliyev isə bildirdi ki, Ermənistan faktiki olaraq Rusiyanın bir quberniyası kimi fəaliyyət göstərir. Bu ölkədə Rusiyanın hərbi bazası var, istər hərbi, istər siyasi və istərsə də iqtisadi baxımdan demək olar ki, Rusiyadan asılıdır. Bu baxımdan Ermənistanda baş verənlərə Rusiyanın seyrçi mövqedə qalması başa düşülən deyildi. Zaman keçdikcə Ermənistan olaylarının üzərindən sirr pərdəsi götürüləcək:** "Ermənistanda proses hələ başa çatmayıb. Sadəcə, Paşinyanın baş nazir seçiləndən sonra atdığı addımlar qələbədən dolayı yaranan başgicəllənməsidir. O, hələ meydan havasındadır. Bir azdan problemlərə soyuq başla yanaşmağa məcbur olacaq və öz xalqını düşdüyü vəziyyətdən çıxarmaq istəsə, hökmən Dağlıq Qarabağ problemi ilə bağlı konstruktiv mövqedən çıxış etməyə məcbur olacaq. Əgər belə istəyi olmayacaqsa və sələfləri kimi Rusiyanın boyunduruğunda olacaqsa, Ermənistanda vəziyyət daha da ağırlaşacaq, Azərbaycanın da öz torpaqlarını hərb yolu ilə qaytarmaqdan savayı yolu qalmayacaq. Beləliklə, bu dəfə məxməri inqilab Paşinyanın özünə qarşı çevriləcək. Hakimiyyətdə olmanın diktə etdiyi şərtlər tamam başqadır. Paşinyan da o şərtlərə uymaq məcburiyyətində qalacaq. Paşinyan parlamentdəki müxalifətçiliyində radikal mövqedə olan şəxs kimi tanınıb. Ancaq müxalifətçiliklə, dövləti idarə etmək tamamilə fərqli məsələdir. Unutmaq lazım deyil ki, baş nazir Paşinyan qarşısında Ermənistan əhalisinin iqtisadi təminatı məsələsi çox böyük bir problem kimi dayanır. O, bu problemi həll etmək məcburiyyətindədir. Çünki kütlə, xalq ondan Ermənistanı düşdüyü ağır durumdan çıxarmağı gözləyir. Ermənistanın imkanları, hazırkı vəziyyəti, qonşu ölkələrlə münasibəti Paşinyana bu gözləntiləri yerinə yetirməyə şərait yaradacaqmı? Bu suala müsbət cavab vermək çox çətindir. Bütün bunları təhlil etdikdə, bu qənaətə gəlmək olur ki, Nikol Paşinyanın baş nazir olması Ermənistanda başlanan prosesin bitməsi sayılmamalıdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi


**Ermənistanın baş naziri Nikol Paşinyan qanunsuz olaraq səfər etdiyi Qarabağ torpaqlarından Azərbaycana qarşı yeni cəbhə açmaq istəyərkən özünə qarşı, Ermənistanın daxilində cəbhə açıldı. Özü də ona qarşı çıxanlar əliyalın, sadə ermənilər deyil, orduda kifayət qədər dayaqları olan, üstəlik, illərdir Qarabağdakı sərvətləri talayaraq böyük sərvətlərə sahib olunmuş şəxslərdir.**






# Ermənistanın "başından böyük danışan" baş nazirinin 2 xətası

## Paşinyanın tezliklə cəzalandırılacağına ermənilərin özləri də şübhə etmir; ekspertlər yeni hökumət başçısının savaş ritorikasının Ermənistana fəlakət vəd etdiyini deyirlər; **politoloq:** "Onu həm içəridən, həm də xaricdən ağır zərbələr gözləyir..."

Söhbət təkcə sabiq prezident, "üç günlük baş nazir" Serj Sərkisyandan getmir. Ermənistanın keçmiş müdafiə naziri Viqen Sərkisyan da artıq küçədən gəlmiş baş naziri dolayısı ilə "yerində olmayan adam" kimi xarakterizə edib. Hələ öz postunda möhkəmlənməyən Paşinyanın dərhal Qarabağa gələrək orada Azərbaycan əleyhinə başından böyük danışmasını hətta Qarabağda törədilən cinayətlərdə əli olan V.Sərkisyan da qəbulolunmaz sayıb. Ermənistanın yeni seçilmiş baş naziri mayın 9-da Dağlıq Qarabağa səfər edib, Xankəndi və Şuşa şəhərlərində olub. N.Paşinyan Dağlıq Qarabağ danışıqlarda tərəf kimi tanınmasa sülh razılaşmasının mümkün olmayacağını bildirib. Sabiq nazir V.Sərkisyan isə N.Paşinyanın Dağlıq Qarabağ münaqişəsi məsələsi ilə bağlı fikirlərini təhlükəli adlandırıb. "Bir neçə gün öncə mətbuat konfransı zamanı baş nazirin söylədiyi fikirlər təhlükəlidir. Əminəm ki, Paşinyan bu fikirləri ilə Ermənistanda vəziyyəti çətinləşdirməyə çalışmayıb. Lakin onun səsləndirdiyi bəyanatlar nəinki Azərbaycanın aqressiv reaksiyasına, hətta beynəlxalq tərəfdaşlarımızın, xüsusilə də ATƏT-in Minsk Qrupu həmsədrlərinin narahatlığına səbəb olub". Oxu.az xəbər verir ki, bunu Sərkisyan "Ararat" qəzetində verdiyi müsahibədə bildirib. **Sabiq müdafiə naziri baş nazirin Ermənistanı münaqişə tərəfi kimi göstərməsini də səhv adlandırıb.** "Bu əminliklə hər zaman Azərbaycan tərəfi çıxış edib. Həmçinin beynəlxalq ictimaiyyət Ermənistanın Dağlıq Qarabağda təhlükəsizliyinin təminatçısı kimi, danışıqlar tərəfdaşı kimi tanıyır. Münaqişə tərəfi kimi deyil. Bu, pis nəticələnə bilər. Həmçinin baş nazirin danışıqlar prosesində Ermənistan deyil, "Dağlıq Qarabağ Respublikası" (DQR) çıxış etməlidir, deməsi də anlaşılmazdır. Belə çıxır ki, danışıqlar zamanı Ermənistan ayrı, "DQR" ayrı çıxış edəcək? İndiyə qədər bu, belə olmayıb. Daha sonra isə baş nazir danışıqlar üçün yeni yanaşmadan bəhs edib. Ola bilsin ki, bu, ön şərtdir. Yəqin ki, baş nazir "DQR" olmadan son qərara nail olunmaz, bildirmək istəyib. Bu mövqe dəfələrlə eks prezident Serj Sərkisyan tərəfindən səsləndirilib. Həmçinin bu yanaşma ATƏT-in Minsk Qrupu həmsədr-ölkələri tərəfindən də dəstəklənir", - deyə eks-nazir bildirib. **Həmçinin sabiq nazir Paşinyanın "DQR"in beynəlxalq tanınmasını da "anlaşılmaz" adlandırıb:** "Ermənistan hər zaman bəyan edib ki, statusun beynəlxalq tanınması nizamlama prosesinə də uyğun olmalıdır. Hər zaman tanınma ilə bağlı qətnamələri "DQR" xalqı üçün hörmət əlaməti olaraq alqışlamışıq. Lakin heç vaxt təşəbbüskar kimi çıxış etməmişik". **Onun sözlərinə görə, baş nazirin bəyanatlarında danışıqlar prosesindən xəbərsizlik hiss olunur:** "Nümunə üçün, sülhməramlıların yerləşdirilməsinin təsdiqi məsələsi heç vaxt günün mövzusu olmayıb. Sülhməramlıların yerləşdirilməsi məsələsi bir sıra sənədlərdə, nümunə üçün, Madrid prinsiplərində öz əksini tapıb".

Şübhə yoxdur ki, N.Paşinyan S.Sərkisyanın yolu ilə gedərək, diqqəti daxildəki problemlərdən yayındırıb, taxtında möhkəmlənmək üçün sərt ritorikaya üstünlük verib. Amma bəzi erməni ekspertlər özləri də anlayırlar ki, bu eksperiment bundan sonra keçərli deyil, çünki Azərbaycan torpaqlarının sınaq meydanına çevrilməsi ilə barışmayacaq. **Elə Azərbaycanın müdafiə naziri Zakir Həsənov Ermənistanın yeni baş nazirinin münaqişə ilə bağlı bəyanatına sərt münasibəti də bunu təsdiqləyir.** "Düşmənin bu cür hərəkətləri qəbuledilməzdir və Azərbaycan Ordusu genişmiqyaslı döyüş əməliyyatlarına tam hazırdır" - cənab Həsənov xəbərdarlıq edib. Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, Zakir Həsənov mayın 12-də müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri, eləcə də birlik komandirlərinin iştirakı ilə keçirdiyi xidməti müşavirədə Ermənistanın hərbi-siyasi rəhbərliyini xəbərdar edən bəyanatla çıxış edib.

Paşinyanın Qarabağdakı ilk qurbanının adı isə artıq məlumdur. Ermənistan mediası xəbər yayıb ki, erməni hərbçi Şamxal Seyranoviç Petrosyan mayın 13-ü, saat 22.35 radələrində ağır yaralanıb. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, düşmənin təxribatlarına layiqli cavab veriləcək və atəş nöqtələri susdurulacaq. Bu mənada gözləmək olar ki, tezliklə erməni anaları özgə torpağında qanı tökülən erməni hərbçilərin hesabını Paşinyandan istəyəcəklər, baş nazir sonuncu sərt mövqeyi ilə əslində erməni əsgərlərin ölümünə fərman vermiş olub.

**Bu arada Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universiteti Politologiya Departamentinin dosenti Qevorq Mirzayanın son açıqlamaları da diqqət çəkir.Virtualaz.org-a açıqlamasında o deyib ki, Ermənistanda rəhbərliyin ötürülməsinin yumşaq formada reallaşması fikri ilə razılaşmır və Nikol Paşinyanı əhalinin kütləvi etiraz aksiyalarının təzyiqi altında hakimiyyəti qəsb etməkdə ittiham edir.** "Bu, yumşaq formalı ötürülmə deyil, Paşinyan tərəfindən hakimiyyətinin qəsb edilməsidir. Özü də qanunsuz və haqsız. O, ölkədə texniki baş nazir təyin etmək və özünün dövlət başçısı olmaq haqqını seçkilərdə sübut etmək əvəzinə, tərəfdarlarının qanunsuz aksiyaları vasitəsilə parlamentə birbaşa təzyiq göstərib hakimiyyəti qəsb etdi", - ekspert vurğulayıb. Politoloq hesab edir ki, Ermənistan-Rusiya münasibətlərinin sonrakı düzümündə sistemli dəyişikliklər olmayacaq. Onun fikrincə, Paşinyan Qərb dairələri tərəfindən dəstəklənir, ancaq indiki halda onlar onun arxasında durmurlar: "Onlar onu dəstəkləyirlər, amma çətin ki, arxasında dursunlar. Mən hətta əlavə edərdim ki, Paşinyan tərəfindən hakimiyyətin qəsb edilməsi onlar üçün əlverişli deyil - onlar istəyərdilər ki, hər şey konstitusiya çərçivəsində olsun".

Erməni-Azərbaycan münaqişəsinin nizama salınması mövzusuna toxunarkən, ekspert bu istiqamətdə müsbət addımların atılacağı ehtimalını istisna edib. Onun sözlərinə görə, mənfi variantlar da ola bilər. Məsələn, əgər Paşinyan reytinqini qaldırmaq xatirinə populist addımlara, tutaq ki, "DQR"in "müstəqilliyinin" birtərəfli qaydada tanınmasına gedərsə. Burada artıq Bakının hərbi yolla cavab verməkdən başqa heç bir variantı qalmayacaq. Ən azı öz simasını qorumaq üçün", - deyə politoloq bildirib.

"Ermənistanın baş naziri Nikol Paşinyan işə başlayan kimi iki böyük xətaya yol verdi. Birinci xəta onun dərhal Dağlıq Qarabağa gəlişi idi. O bununla sübut etmək istəyirdi ki, Dağlıq Qarabağın işğalının davamı xələfləri kimi onun üçün də vacibdir. Halbuki o, Serj Sərkisyanı Qarabağ siyasətinə görə yıxmamışdı, iqtisadi və sosial problemlərin həll olunmaması və korrupsiyaya görə istefaya məcbur etmişdi".

**Bu fikirləri "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi. Siyasi ekspertin sözlərinə görə, Paşinyanın ikinci böyük xətası Xankəndində başından böyük açıqlamalar verməsiydi:** "Hələ bir nümayişkaranə şəkildə Xankəndinə özü ilə xarici jurnalistləri də aparmışdı. O, Xankəndində dedi ki, birinci Dağlıq Qarabağın "tanınmasına" çalışmaq lazımdır, ikincisi Bakı birbaşa separatçılarla danışıqlar aparılmalıdır. Bunu Serj Sərkisyan və Robert Köçəryan da deyirdilər, ancaq bir nəticə hasil etmədilər. Azərbaycan heç bir halda Paşinyanın dediyini etməyəcək, biz əbədiyyətə qədər savaşmağa hazırıq, nəinki onların xəyal etdiyi bu "iki şərti" yerinə yetirməyə. Nikol Paşinyanın Qarabağla bağlı açıqlamalarını tək biz tənqid etmirik, səhvlərini keçmiş hakimiyyət nümayəndələri də üzünə deyirlər".

**E.Şahinoğlunun sözlərinə görə, Paşinyandan Moskvadakı dairələr də ehtiyat etməyə başlayıblar:** "Məsələn, Nikol Paşinyan yeni hökumətdə əsas vəzifələri Qərblə əməkdaşlığa üstünlük verən şəxslərə etibar edir ki, bu da Rusiyanın bəlli mərkəzlərində narazılıq doğurur. Görünən isə odur ki, Rusiyanın televiziya kanallarında və radio efirlərində Ermənistanı açıq-aşkar tənqid etməyə, hətta aşağılamağa başlayıblar, haqları da var, qul ağasına qarşı etiraza baş qaldırıb. Özü də söhbət o quldan gedir ki, vaxtilə boynundakı zəncirləri özü könüllü şəkildə ağasına təhvil verib. Buna görə də Nikol Paşinyanı həm içəridən, həm də xaricdən ağır zərbələr gözləyir. Azərbaycan rəsmilərinin, o cümlədən müdafiə naziri Zakir Həsənovun da Paşinyanı xəbərdar etməsi yerindədir. Separatizm və onu dəstəkləyənlər güc görməlidirlər ki, ağılları başlarına gəlsin".

Belə getsə, hakimiyyətə küçədən gəlmiş N.Paşinyanın özü də küçə mitinqləri ilə üzləşəcək. Elə yazı çapa hazırlanarkən Ermənistan paytaxtında növbəti etiraz aksiyasının keçirildiyi xəbəri yayıldı. Məlumata görə, etirazçılar Ermənistanın baş prokuroru Artur Davtyanın istefasını tələb edirlər. Onlar bu məqsədlə Baş Prokurorluğun binası qarşısında toplaşıb, etiraz şüarları səsləndirirlər. Şüarlarda və plakatlarda siyasi məhbusların və "Sasna Tsrer"in məhkum olunmuş üzvlərinin azadlığa buraxılması tələbləri də yer alır. Sözügedən qruplaşma İrəvanda polis alayını silahlı yolla ələ keçirməkdə ittiham olunub. Silahlı qiyamçıların azadlığını tələb edənlərlə üz-üzə gəlmək heç də yaxşı perspektiv vəd etmir. Əgər N.Paşinyan xəbərdarlıqlara məhəl qoymasa, onu ağır tale gözləyir...

YENİ MÜSAVAT
N 105 (6994) 15 may 2018

# Ərdoğandan Trampa S-400 sualı: "Dedim ki, siz verdinizmi, biz də almadıq?"

## NATO Türkiyə-Rusiya hərbi əməkdaşlığından təşvişə düşüb

**Türkiyənin Rusiyadan sözügedən raket kompleksini alması Qərbdə ciddi narahatlığa səbəb olub. "Rusiya istehsalı olan zenit raket komplekslərinin Türkiyəyə təchizatı NATO üçün əsl provokasiyadır". Bu barədə Almaniyanın "Spiegel" nəşri məlumat yayıb. (Ordu.az)**



Məlumata görə, Ankara Rusiyadan S-400 "Triumf"larla yanaşı 5-ci nəsil qırıcılar almaq niyyətindədir. Əgər S-400 zenit raket kompleksləri Türkiyədə peyda olsa, Rusiya onların köməyi ilə F-35 qırıcılarının zəif və güclü tərəfləri barədə məlumat toplaya bilər. Türkiyədə S-400-lərin peyda olması F-35-lərin stels texnologiyalarının sirrinin Rusiya üçün əlçatan olması ilə nəticələnə bilər", - deyə məlumatda bildirilir.

Bu ilin əvvəlində ABŞ Dövlət Departamentinin nümayəndəsi demişdi ki, əgər Türkiyənin Rusiyadan S-400 zenit-raket kompleksi sistemlərini əldə etməsi sanksiyalarla qarşılaşmasa, o, bundan təəccüblənəcək. Qeyd edək ki, Türkiyə Rusiyadan növbəti dəfə "S-400" zenit-raket kompleksi alacaq. İki ölkə arasında imzalanan müqaviləyə görə, rəsmi Moskva Türkiyəyə satdığı bu sistemin ilk partiyasını 2020-ci ildə təhvil verəcək.

Böyük Britaniyada səfərdə olan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BBC-nin "Hard Talk" verilişinə geniş müsahibəsində bu barədə iddiaları cavablandırıb. "Sputnik Azərbaycan" xəbər verir ki, Türkiyənin Rusiyadan aldığı "S-400" raket komplekslərinin NATO sistemi ilə uyğun olmadığı iddiaları ilə bağlı sualı Ərdoğan belə cavablandırıb: **"Bu münasibəti doğru hesab etmirəm. Çünki NATO baş katibi çox aydın şəkildə açıqlama verib ki, üzvlərimiz istədikləri ölkələrdən silah ala bilər. Əgər mən Türkiyə olaraq ABŞ-dan və ya NATO-ya üzv olan digər ölkədən silah ala bilmirəmsə, onda bu silahı haradan taparamsa, oradan da alaram. Biz Rusiya ilə birgə silah istehsal etmək öhdəliyi üzrə bir saziş bağladıq və Rusiyadan da bu "S-400"ləri alacağıq".** Raket kompleksləri ilə bağlı ABŞ prezidenti Donald Trampla da danışdığını deyən Ərdoğan qeyd edib: **"Dedim ki, "Siz verdinizmi, biz də almadıq?" Vermədiniz. İndi isə biz "S-400"ləri Rusiyadan çox yaxşı şərtlərlə alırıq və alacağıq da. Sazişlərimizi birlikdə imzaladıq. Bizim bu məsələ ilə bağlı hər hansı bir narahatlığımız yoxdur. Biz işimizi bitirdik, imzaları atdıq".**

İsraillə İran arasında gərginlik barədə isə Ərdoğan bunları deyib: **"Bu an vəziyyətin nəzarətdən çıxması sualı mənə görə yanlışdır. Bu gün İsrail Suriya torpaqlarının 50 faizinə raket atıbsa, bu nədir? Bu, bölgədə müharibəyə təhrik etməkdir. İsrail zatən buralarda, bu bölgədə davamlı olaraq terror törədir. İndi atılan bu addım yenə terrora yönələn bir addımdır. Niyə bu raketlər atılır, hansı səbəbdən atılır və nə etmək istəyirlər?**

**İsrail tərəfi, guya İran İslam İnqilabı Keşikçiləri Korpusu tərəfindən Colan təpələrinin atəşə tutulması barədə məlumatların tam dəqiq olmadığını bildirib. Məsələ ilə bağlı İran prezidenti Həsən Ruhani ilə də danışmışam. Onlar belə bir şeyi qəbul etmirlər. Bu gediş də yaxşı bir gediş deyil. Dolayısı ilə tez bir zamanda sülhə istiqamətlənən addımlar atmaq lazımdır. Əgər sülhə doğru addımlar atılmazsa, onda Yaxın Şərqin gələcəyi ciddi narahatlıqlara hamilədir".**

Ərdoğan Trampın İranla nüvə razılaşmasından imtina etməsi barədə də fikir bildirib: **"ABŞ-ın bu mövqeyini digər ölkələr qəbul etmir. ABŞ-ın bu qərarını biz də qəbul etmirik və ona əməl etməyəcəyik. Bizim mövqeyimiz bu qədər açıqdır. ABŞ-ın hazırda nə qədər nüvə silahı var? Fransanın nə qədər nüvə silahı var? Onların hamısında nüvə silahı var. Bütün bunlar dünyanı nüvə silahı ilə təhdid edərkən başqalarının nüvə silahı əldə etməsini təhdid olaraq görürlər. Bütün bunları anlamaq mümkün deyil və biz dünyada sülhə əsl təhdidi məhz bunda görürük".**

**Politoloq Arzu Nağıyev Türkiyə ilə NATO arasında yaşanan S-400 gərginliyini "Yeni Müsavat"a şərh edib:** "Təbii ki, NATO belə bir müqavilənin əleyhinədir. Birincisi, ona görə ki, bu raketlər Rusiya istehsalıdır və sanksiya tətbiq edilən hərbi-sənaye kompleksinin məhsuludur. Qərb də Rusiyanı iqtisadi cəhətdən asılı vəziyyətə salır. İkincisi, NATO üzvü olan Türkiyə texniki baxımdan istifadə edəcəyi raket komplekslərini uyğun şəkildə razılaşdırmalıdır. Hətta həmin komplekslərin birgə istehsalı da gündəmdədir. Buna görə Qərb Türkiyəyə xəbərdarlıq edib". Lakin A.Nağıyevə görə, bu, o demək deyil ki, NATO Rusiyadan imtina edə bilər.

**Bəzi iddialara görə, İran ətrafında baş verənlər, bu ölkəyə qarşı sanksiyaların sərtləşdirilməsi həm də Türkiyəyə qarşı təhlükəli planın işə salınması ilə bağlıdır. Lakin politoloq belə zənn etmir:** "Türkiyə həm də İsraillə normal münasibəti olan dövlətdir. Eyni zamanda həm İranla, həm Səudiyyə Ərəbistanı ilə normal portnyor kimi münasibət saxlayır. Buna görə də Qərbin İran vasitəsilə Türkiyəyə təzyiq edəcəyi inandırıcı görünmür".

❑ **Cavid TURAN,**
**"Yeni Müsavat"**

# Restoranlar nazirliyin xəbərdarlığını ciddiyə alacaqmı?

## Onlar havanı çirkləndirməyəcəklərinə söz verir, amma...

**Ötən həftə Ekologiya və Təbii Sərvətlər Nazirliyində atmosfer havasında zərərli maddələrin təsiri ilə bağlı mətbuat konfransı keçirildi. Konfransda nazirliyin rəsmiləri bildirdilər ki, ictimai-iaşə obyektlərinin fəaliyyəti zamanı ayrılan tüstünün, qazların və iy-qoxunun yayılması atmosfer havasını zərərli maddələrin təsirinə məruz qoyur, ətrafdakılara neqativ təsir göstərir.**

**Nazirliyin Ətraf mühit üzrə Milli Monitorinq Departamentinin direktor müavini Mətanət Avazova bildirdi ki, restoranlardan havaya atılan tüstünün aradan qaldırılması üçün sahibkarlara və müvafiq icra hakimiyyətinə müraciət edilib:** "Restoran sahibləri problemin aradan qaldırılması üçün bizdən yardım istəsələr, onlara köməklik göstərməyə hazırıq. Onlara rəsmi surətdə məktub göndərilib. Bildirilib ki, qısa zamanda problem aradan qaldırılmalıdır".

Qeyd olundu ki, qanunvericiliyin tələblərini pozan iaşə sahiblərinə qarşı İnzibati Xətalar Məcəlləsinin 237.2 maddəsinin müvafiq tələblərinə uyğun olaraq tədbirlər görüləcək. Ətraf mühitə buraxılan tullantıların təmizlənməsi, aparatlardan istifadə edilməməsinə görə fiziki şəxslərin 600 manatdan 25 min manata qədər, hüquqi şəxslərin isə 20-25 min manat cərimələnməsi nəzərdə tutulub.

Öyrəndik ki, nazirlik tərəfindən xüsusi monitorinq aparılıb və havaya zəhərli maddələr, tüstü buraxan restoranların fotoları çəkilib. Həmin fotolarda havada olan tüstü dumanı açıq şəkildə görünür. Xüsusilə də Babək prospekti boyunca restoranların sıx olduğu ərazidə bu cür tüstü dumanları daha çoxdur. Bəs restoranların qaydalardan xəbəri varmı?

**Paytaxtdakı bir neçə kafe və restoranda olub, mövcud vəziyyətlə maraqlandıq. Restoran sahiblərinin məsələ ilə bağlı fərqli münasibətləri oldu. Lakin əksəriyyəti bildirdi ki, bu məsələlərdən xəbərdardırlar və nazirlik tərəfindən də xəbərdarlıq məktubunu alıblar. Olduğumuz "Xan qızı" restoranında söylədilər ki, nazirliyin əməkdaşları onlarla görüşüblər:** "Bura gəlib, müdiriyyətlə görüşdülər. Xüsusi məktublarını da almışıq və məsələdən xəbərimiz var. Ancaq bizim restoran ətrafa heç bir zəhərli maddə, tüstü buraxmır. Çünki əvvələ, restoran yeni istifadəyə verilib, ikincisi də toy sifarişlərimiz demək olar ki, yoxdur. Ona görə də ətraf mühitin, havanın çirklənməsində günahımız yoxdur".

**"Hissə" restoranında qeyd etdilər ki, nazirliyin əməkdaşları hələ ki onlara məsələ ilə bağlı hər hansı irad, məlumat verməyib:** "Əgər belə bir hal olacaqsa, biz dövlətimizin qoyduğu qanunlar üzrə hərəkət edəcəyik. Deyirlərsə aparat qoyulmalıdır, deməli, belə də olmalıdır. Bununla bağlı hələ ki heç bir müraciət almamışıq. Əgər hər hansı bir irad və ya təklif bildirilərsə, o zaman biz bununla razılaşacağıq. Ancaq onu deyim ki, bizdə mətbəxdə bütün avadanlıqlar quraşdırılıb. Tüstünü çəkmək üçün müvafiq vasitələri qoşmuşuq. Ona görə də ola bilməz ki, restorandan duman şəklində tüstü yayılsın".

"Dan ulduzu" restoranından da bildirildi ki, onlara da nazirliyin məktubu gəlib və müvafiq tədbirləri görəcəklər.

**Sakinlər isə fərqli fikirdədirlər. Onlar bildirirlər ki, əslində restoranların ətrafında yaşamaq yay aylarında olduqca çətin olur. "Planet" şadlıq sarayının yaxınlığında yaşayan sakin Vüqar Xəlilov aşağıdakıları söylədi:** "Bu restorandan axşam saatlarında elə bir kabab qoxusu yayılır ki, bütün ərazini bürüyür. Burada elə adam var ki, maddi imkanı zəifdir və ya kabab çəkməyə yeri yoxdur. Onun uşaqları bu qoxunu hiss edib, kabab istəyir. Bəs camaatı düşünmürlər? Bundan başqa, restoranların əlindən gecə saatlarında yatmaq olmur. Gecə yarısına qədər restoranın həyətində canlı musiqi verirlər. Gecənin bir yarısı muğamatları başa çatan kimi də elə fişəng atırlar ki, elə bir müharibədir. Yaxşı olar ki, müvafiq qurumlar bu məsələ ilə bağlı da maraqlansınlar. Deyərdim ki, Bakıda restoran sahibləri öz xoşbəxtliklərini, güzəranlarını başqalarının narahatlığı, əsəblərinin pozulması üzərində qurublar. Restoranları maksimum çox cərimələmək lazımdır ki, bəlkə bu işlərindən əl çəkərlər".

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova "Yeni Müsavat"a bildirdi ki, əslində məqsədləri hansısa restoran sahibini cərimələmək deyil:** "Nazirliyin əməkdaşları harada tüstü müşahidə ediblərsə, həmin restorana məktub göndərib, xəbərdarlıq ediblər. Biz cərimə ilə onları qorxutmaq istəmirik. İnsanlar özləri başa düşməlidir, ictimai qınaq olmalıdır. Başa düşürük ki, biz cərimələsək də onlar cəriməni ödəyib, yenə işlərinə davam edəcəklər. Ona görə də cərimə əsas məsələ deyil. Məsələn, ağacı kimsə kəsirsə, cərimələnsə də o ağac artıq kəsilib. Bu adamın özü dərk etməlidir ki, ağacı kəsmək olmaz. Eynilə şadlıq evləri də bu cür düşünməlidir. Başa düşməlidirlər ki, onların yaydığı tüstü insanlara pis təsir edir.










Başa düşməlidirlər ki, ətrafda xəstələr, uşaqlar, qocalar var. Ona görə də biz xəbərdarlıq edib, onlarla danışıq ki, bunu etməsinlər. Məqsədimiz kiminsə cərimələmək yox, ətraf mühiti təmiz saxlamaq, insanlara yardım etməkdir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 105 (6994) 15 may 2018

# Çin liderini Putindən önə keçirən səbəblər

## Rusiya prezidenti 5-ci dəfə dünyanın ən qüdrətlisi ola bilmədi

**"Forbes" jurnalı 2018-ci ildə dünyanın ən qüdrətli insanlarının siyahısını açıqlayıb. Siyahının birincisi Çin lideri Xi Jingpingdir. İkinci yerdə isə Rusiya prezidenti Vladimir Putin, 3-cü yerdə Donald Tramp gəlir. İlk beşliyi Almaniya kansleri Angela Merkel, həmçinin "Amazon"un yaradıcısı və sahibi, 54 yaşlı milyarder Cef Bezos bağlayır.**


Xi Jingping


Vladimir Putin


Donald Tramp

Xatırladaq ki, son 4 ildə bu siyahıda birincilik V.Putinə məxsus olub. Bu dəfə onun ikinciliyə sürüşməsini jurnalın kriteriyaları ilə izah edirlər. Belə ki, dünyanın ən qüdrətlisini müəyyənləşdirmək üçün həm siyasi, həm də iqtisadi qüdrət nəzərə alınır. Bu ilin martında xalq nümayəndələrinin Ümumçin Məclisi Çin Xalq Respublikası sədrinin fəaliyyət müddətini 2 dəfə ilə məhdudlaşdıran müddəanın ölkə konstitusiyasından çıxarılmasına səs verib. Bu isə jurnal ekspertləri tərəfindən Xi Jingpingin hakimiyyətinin güclənməsinə gətirən əsas faktorlardan biri kimi qiymətləndirilib. Bundan əlavə, onun Çin iqtisadiyyatında inkişafı sürətləndirən islahatların təşəbbüskarı olması da nəzərə alınıb. Belə ki, Çin lideri son illərdə yalnız öz hakimiyyətini möhkəmləndirməklə deyil, ölkənin iqtisadi qüdrətinin artırılması ilə də ciddi məşğul olub. Onun rəhbərliyi altında "Çin arzusu" adlı iqtisadi proqramın həyata keçirilməsi sayəsində Çin iqtisadiyyatında baş verənləri artıq dünya iqtisadi ədəbiyyatında "Çin intibahı" adlandırmağa başlayıblar. Xi Jingping Çində genişmiqyaslı özəlləşdirməyə gedib, xırda və orta sahibkarlığın inkişafı sahəsində böyük uğurlar əldə edib. Nəticədə isə Çin iqtisadiyyatında davamlı və yüksək artıma nail olub. Buna görə də onun dünyanın ən qüdrətlisi seçilməsi obyektiv hesab olunur.

Analitiklər hesab edirlər ki, Rusiya prezidentini ardıcıl olaraq 4 il birincilikdə saxlayan amillərdən biri Avropanın qaz təchizatındakı hegemon mövqe olub. Son bir ildə bu mövqenin sarsılması (alternativ enerji mənbələrindən istifadənin genişlənməsi, Rusiyanın əsas layihələrindən biri olan "Şimal Axını-2" ilə bağlı problemlər və sair) hiss olunur. Bundan əlavə, Avropa və ABŞ-ın iqtisadi sanksiyaları ilə üzləşən Rusiya iqtisadiyyatı kifayət qədər çətin günlərini yaşayır. Putinin bu çətinlikləri aradan qaldırmaq imkanlırının olmaması da onun dünyanın ən qüdrətlisi postunu itirməsinə gətirib çıxarıb.

D.Trampa gəlincə, müəlliflər hesab edirlər ki, şəxsinin ətrafında yaranan skandallara baxmayaraq, o, ABŞ kimi dünyanın aparıcı iqtisadiyyatına və hərbi qüdrətinə malik bir dövlətin rəhbəridir. Buna görə də onun heç olmasa dünya üçüncüsü olması labüddür.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyir ki, "Forbes" V.Putini heç də boşuna son dörd ildə dünyanın ən qüdrətlisi elan etməyib:** "Ükraynanın parçalanması, Gürcüstanda torpaqların ələ keçirilməsi, Suriyada Bəşər Əsədə verilən dəstək Putinin siyasi qüdrətini artıran amillərdir. Amma ötən ildən bu qüdrətin azalması müşahidə olunur: elə bir istiqamət qalmayıb ki, Rusiya orada iştirakını artıra bilsin. Ukraynada hadisələr səngiyib, Suriyada da Rusiyanın nüfuzunun hansısa artımı müşahidə olunmur. Bundan əlavə, Rusiya ciddi iqtisadi çətinliklərlə üzləşib, hələ ki Putin onların aradan qaldırılmasına nail ola bilmir".

**Politoloqa görə, Çinin həm iqtisadi, həm də siyasi gücü getdikcə artır:** "Çin hazırda dünyanın ən dinamik iqtisadi inkişafına nail olub. Eyni zamanda regional və beynəlxalq səviyyədə siyasi təsir gücünü artırmaqdadır. Cənubi və Şimali Koreya arasında razılaşmanın əldə olunmasında Çinin xüsusi rolu oldu. Bu kimi amillərə görə onun lideri dünyanın ən qüdrətli şəxsi seçilib".

❑ **DÜNYA,**
**"Yenì Müsavat"**

# "Lənkəranskini mən öldürmüşəm"- Sankt Peterburqdakı qətlin sirləri



## Artıq iki ilə yaxındır ki, bu qətl işinə görə axan qanlar durmur, amma...

**2016-cı ilin avqustunda Türkiyədə öldürülən məşhur "qanuni oğru" Rövşən Canıyevin ("Lənkəranski") qatilinin kim(lər) olması ilə bağlı indiyədək çoxsaylı versiyalar səslənib. Media, sadəcə, bunları əsasən Rusiya KİV-lərində yayılmış məlumatlar əsasında yazır. Amma artıq iki ilə yaxındır ki, bu qətl işinə görə axan qanlar da durmur. "Yeni Müsavat" ötən ilin mayında "Lənkəranski"nin qətlində iştirak edən killerin Sankt-Peterburqda öldürülməsi barədə məlumat yaymışdı.**




Rusiya KİV-lərinin məlumatında deyilirdi ki, "Lənkəranski"nin qətlində iştirakı şübhə doğurmayan Cabir Həsənov aprelin 28-də Leninqrad prospekti 42-də öldürülüb. Qətlə yetirilən 42 yaşlı Cabir Həsənov bir neçə dəfə Azərbaycanda məhkum həyatı yaşayıb. Azadlığa isə üç il əvvəl çıxıbmış və Rusiyaya gedibmiş. Samarada azərbaycanlı biznesmenin oğurlanmasında iştirak etdiyi üçün barəsində axtarış elan olunubmuş. Onun saxta sənədlə Türkiyə və Ukraynada gizləndiyi də xəbər verilirdi. Öldürüləndə də üstündə Cümşüd Həsənov kimi qeyd edilən saxta sənəd tapılmışdı.

Rusiya mediası xəbər verirdi ki, qətlə yetirilənin pasport qeydlərinin araşdırılması zamanı üzə çıxıb ki, Lənkəranskiyə sui-qəsd olanda o, həqiqətən də Türkiyədə olub.

O da bildirilirdi ki, Cabir Həsənov cəzasını azərbaycanlı "qanuni oğru" Nadir Səlifovun("Lotu Quli") vaxtilə saxlandığı 8 saylı həbsxanada çəkib. Rusiya KİV-nin iddiasına görə, "Quli" ilə yaxın münasibəti olub.

Maraqlıdır ki, Rusiya mətbuatı Cabir Həsənovun qətlini daha çox qulağı kəsilərək şəkili və videosu yayılan Rafiq Eyvazovun ("Rafiq Masallinski") intiqamı kimi izah edir. Məlumata görə, "Rafiq Masallinski" bu qətldən sonra yaxın ətrafına "sırada daha 6 nəfər qaldı" deyib. Bu isə onun qulağının kəsilməsində iştirak edənlərin sonadək cəzalandırılacağı kimi yozulub.

İndi isə məlum olub ki, Rusiya İstintaq Komitəsinin Sankt-Peterburq üzrə Baş istintaq İdarəsi bu qətldə iştirakçı olan 43 yaşlı Azərbaycan vətəndaşı Nazim Nüsrətovun işi üzrə istintaqı tamamlayıb. Virtualaz.org "Peterbuqskiy dnevnik" nəşrinə istinadla xəbər verir ki, Nüsrətov ötən il aprelin 28-də şəhərin Lenin prospektində Cabir Həsənov adlı azərbaycanlının qətlinə yardım etməkdə təqsirləndirilir.

İstintaqın versiyasına görə, Nazim Nüsrətov özü nə "Lotu Quli"nin, nə "Rövşən Lənkəranski"nin qruplaşmasına bağlı deyil. O, 2017-ci ilin aprelində Bakıdan Sankt-Peterburqa gedən və hazırda axtarışda olan tanışı, 23 yaşlı Camal Həsənovun xahişi ilə Cabir Həsənovun qətlinə yardım edib. Öz adına nömrə götürərək Camal Həsənovu şəhərdəki mini-hotellərdən birinə yerləşdirib, sonra ona qətldə istifadə etmək üçün avtomobil alıb, sim-kartlarla təchiz edib. Habelə uzaq qohumu vasitəsilə Həsənovu qətldən sonra Belarusa keçirib. Bütün bunlara görə 150 min rubl alıb. Pullar bir neçə tranşla onun bank hesabına köçürülüb.

Cinayət işinin materiallarına görə Nüsrətov Bakıdan gedən killer üçün "VAZ 21103" markalı, "badımcan" rəngli avtombili tanışı vasitəsilə 95 min rubla alıb. Əvvəlcədən xəbərdarlıq edib ki, avtomobil yeni sahibinin adına qeydiyyatdan keçirilməyəcək. Avtomobili dərhal avtoservisə göndəriblər və şüşələrinə qara plyonka vurdurublar.

Aprelin 28-də axşamdan xeyli keçmiş həyətin əsas girişində atəş səsləri eşidilir, bundan sonra şahidlər qara gödəkcəli, "kapşonlu" şəxsin cəld həmin "VAZ"ın sükanı arxasına keçərək qaza basdığını görüblər.

Qətldə istifadə olunan avtomobil hadisə yerindən bir neçə kvartal aralıda atılmış vəziyyətdə tapılıb. Məlum olub ki, killer kameralara yaxalanmamaq üçün qurbanını gözləyəndə heç tualetə də getmirmiş, kiçik ehtiyacını boş butulkalara "ödəyirmiş".

Nazim Nüsrətov qətldən bir neçə gün sonra-mayın 31-də tutulub. Əvvəlcə o, killerə 150 min rubla tapança satdığını da bildirib. Guya həmin tapançanı tapıbmış. Lakin sonradan vəkilinin köməyi ilə ifadəsini dəyişdirib, bildirib ki, Həsənovun Bakıdan hansı məqsədlə gəldiyindən xəbəri yox idi. Və kömək etməyə bu səbəbdən razılaşıb ki, Əfqan adlı hansısa tanışı onu Azərbaycanda yaşayan valideyinlərinə divan tutmaqla hədələyib. Nüsrətov əvvəlcə həmin Əfqanı "köhnə dostu" kimi təqdim edib, daha sonra ifadəsini dəyişərək onu "təsadüfi tanışı" adlandırıb. Habelə ifadəsində killerin pistoleti özü aldığını, 150 min rublu isə əvvəlcədən bank kartı ilə köçürdüyü puldan geri qaytardığını bildirib.

"Lakin istintaqın heç bir şübhəsi yoxdur ki, təqsirləndirilən şəxs killerə şüurlu şəkildə kömək edib və hər şeyi anlayıb"-baş müstəntq Vyaçeslav Mazurenko bildirib.

Bəs Lenin prospektindəki bu qətlin motivi nə olub? "Rövşən Lənkəranski"nin əvvəllər gömrük orqanlarında işləyən qardaşı Bakıdan Cabir Həsənovu öldürmək üçün killeri hansı motilvlə göndərib?

Bu motiv barədə istintaqa ifadə verən gizli şahid danışıb. Şahidin ifadəsinə əsasən Cabir Həsənov bir neçə dəfə Sankt-Peterburqdakı "Apraksin dvor" bazarında alver edən azərbaycanlıların arasında sərxoş vəziyyətdə və narkotikin təsiri altında deyib ki, 2016-cı ilin avqustunda İstanbulda "Rövşən Lənkəranski"ni gülləyənlərdən biri şəxsən özüdür.

Yada salaq ki, Rusiya hüquq-mühafizə orqanları azərbaycanlı "qanuni oğru" Rəşad İsmayılovun ("Rəşad Gəncinski") qanqsterlər arasındakı söhbətlərdən birində Canıyevi onun əmri ilə "o biri dünyaya göndərdikləri" barədə də xəbər yaymışdı. Xəbərdə iddia olunurdu ki, "Rəşad Gəncinski" bildirib ki, "Lənkəranski"nin qətlinin motivi onun yaxın dostu, "göyərti kralı" kimi tanınan biznesmen Cambulat Şamiloğlunun öldürülməsidir.

❑ **ORXAN,**
**"Yenì Müsavat"**

**İraqda keçirilən parlament seçkilərinin ilkin nəticələri məlum olub. Budəfəki parlament müəyyən mənada sürpriz nəticələrlə yadda qalıb. Belə ki, gözlənildiyinin əksinə olaraq hazırkı baş nazir Heydər İbadinin partiyası qalib gələ bilməyib.**



# İraqda seçkini kim uddu - İran, yoxsa Səudiyyə?

## Parlament seçkilərinin sürpriz qalibi qalmaqallı din adamı Müqtəda Sədr oldu, amma necə...

Seçkilərin ilkin nəticələrinə əsasən nüfuzlu din adamı Müqtəda Sədrin rəhbərlik etdiyi "Sairun" koalisiyası 54 mandatla 1-ci, "Həşdi Şabi" komandiri Hadi əl-Amirinin başçılıq etdiyi Fəth İttifaqı 47 mandatla 2-ci, hazırkı baş nazir Heydər İbadinin başçılıq etdiyi Nəsr ittifaqı isə 42 mandatla 3-cü yerə çıxıb. 4-cü yerdə olan "Qanun Dövləti" İttifaqı isə 25 mandat qazanıb. 5-ci yeri isə bərzanilərin Kürdüstan Demokratik Partiyası əldə edib, 23 mandat. İraq türkmən partiyalarının birləşdiyi Kərkük Türkmən Cəbhəsi isə seçkilərdə 3 mandat qazanıb.

Seçkilərin bu nəticələri nəinki İraqda bütün dünyada sürpriz olub. Son 4 ildir terrora qarşı mübarizə aparan İraqda seçkilərdə iştirak faizi xeyli aşağı olub. Mərkəzi seçki qurumunun məlumatına əsasən parlament seçkilərində 44,52 faiz seçici iştirak edib. Xatırladaq ki, İraq hərbi və təhlükəsizlik qüvvələrinin şəxsi heyəti mayın 10-u və 11-də səsverməyə başlayıb. Əsas seçkilər isə mayın 12-də keçirilib. Parlament seçkilərində 329 nəfərlik parlament yeri uğurunda 25 partiya və 63 koalisiyadan 6904 nəfər namizəd iştirak edib.

Müqtəda Sədr paytaxt Bağdadda, Nəcəf və daha bir neçə iri şəhərdə birinci olub. Bağdadda Sədr koalisiyası 18 mandat qazanıb. Bazar günü axşam Sədr tərəfdarları Bağdadda bayram ediblər.

Qeyd edək ki, İraq Konstitusiyasına əsasən seçkilərdən sonra 90 gün ərzində yeni hökumət formalaşdırılmalıdır. Əvvəlcə Ali Seçki Qurumunun nəticələri elan etməsi lazımdır. Bundan sonra hazırkı prezident Fuad Məsum qarşıdakı 15 gün ərzində parlamentin ilk iclasını çağıracaq. İlk toplantıda parlamentin sədri və iki müavini seçiləcək. Qeyd edək ki, İraq hazırda federativ, parlament sistemli respublikadır. ABŞ işğalından sonra formalaşan sistemə əsasən parlementin sədri sünni, baş nazir isə şiə siyasətçi seçilir. Prezident isə kürd partiyalarının nümayəndəsi olmalıdır.

Parlamentin ilk iclasından sonrakı 30 gün ərzində İraqın yeni prezidenti parlament tərəfindən seçiləcək. Yeni seçilmiş prezident isə 15 gün ərzində parlamentdə ən çox mandata sahib olan partiyaya hökuməti qurmağı tapşıracaq. Bundan sonrakı 30 gün ərzində isə yeni baş nazir hökumət kabinetini formalaşdırmalı və parlamentin səsverməsinə təqdim etməlidir. Bundan sonra isə parlament hökuməti və hər bir naziri ayrı-ayrılıqda səsverməyə çıxarıb təsdiqləməlidir. Bundan sonra yeni hökumət fəaliyyətə başlayır.

Qeyd edək ki, hazırkı nəticələrə əsasən kommunistlərlə ittifaq quraraq seçkilərə gedən nüfuzlu din adamı Müqtəda Sədr seçkilərin qalibidir və ehtimal ki, hökumətin təşkili də ona tapşırılacaq. Hələlik Sədrin hökuməti özünün təşkil edəcəyi, yoxsa İraq kommunistlərinin həddən artıq yaşlı rəhbərinə həvalə edəcəyi dəqiq deyil. Ancaq bir neçə il əvvəl hökumətə qarşı müxalif çıxışlar edən Sədr İraqda texnokrat hökumətin formalaşdırılması və tanınan siyasilərin kənarda dayanmasını təklif etmişdi. İndi özünün bu təklifə necə yanaşacağı maraq doğurur.

Lakin bütün bunlardan daha önəmli olan məsələ seçkilərdə məhz Sədrin qalib gəlməsidir. Məsələ ondadır ki, İraqda seçkilərin favoriti hazırkı baş nazir Heydər İbadi hesab olunurdu. İbadi daha əvvəl keçmiş baş nazir Nuri Malikinin "Dava" Partiyasının üzvü olub. Ancaq 2014-cü ildə Malikinin istefasından sonra baş nazir seçilən İbadi İŞİD-ə qalib gəlib və ciddi nüfuz qazanıb. Bu seçkilərə "Zəfər" Partiyasından və eyni adlı ittifaqla gedən İbadi gözlənildiyinin əksinə Sədrə məğlub olub.

Seçkilərin daha bir şanslı qüvvəsi isə İŞİD-ə qarşı mübarizədə formalaşmış və ölkənin bütün kəsimlərini içinə alan "Həşdi Şabi" könüllü ordusudur. Seçkilərə "Fəth" adlı ittifaqla gedən "Həşdi Şabi" liderləri şanslı görünsələr də, nəticələrə əsasən 2-ci olublar. Ancaq seçkiləri ikinci sırada başa vuran "Həşdi Şabi" iqtidar koalisiyasına üzv olacaq, ya da ana müxalifəti təmsil edəcəklər. Bu isə ilk dəfə seçkilərə qatılan bir güc kimi uğurlu nəticədir. Bu həm də İraqın rəsmən ikinci ordusu statusu almış bir qüvvənin siyasi həyata daxil olmasıdır. İranda bunun nümunəsi İnqilab Keşikçiləridir. Ancaq "Həşdi Şabi" daha aktiv və birbaşa siyasətdə rolu olan qüvvəyə çevriləcək. O da aydındır ki, "Həşdi Şabi" üzərində İranın ciddi təsiri var.

Seçkilərin qalibi olan Müqtəda Sədr isə hər kəsi təəccübləndirib. Müqtəda Sədr 1973-cü il avqust ayının 12-də İraqın Bağdad şəhərində anadan olub. Ayətullah Məhəmməd Sadiq Sədrin 4-cü oğludur. 1999-cu ildə atasının sui-qəsd nəticəsində öldürülməsindən sonra Sədr ailəsinin lideri olub. 2003-cü il İraqın ABŞ tərəfindən işğalından sonra M.Sədr silahlı şiə qrupu - "Mehdi ordusu"nu yaradaraq ABŞ ordusuna qarşı savaşa başlayır. Eyni zamanda işğaldan sonra qurulan "Sədr ardıcılları" hərəkatına rəhbərlik etməyə başlayıb.

2004 və 2006-cı illərdə Sədr İraqın ən parlaq şəxslərindən biri Amerika işğalına qarşı şiə müqavimət hərəkatının əsas lideri hesab olunurdu. Onun rəhbərlik etdiyi "Mehdi ordusu" digər silahlı qruplardan daha fəal idi. Bundan başqa, Bağdadın Sədr rayonuna da M.Sədr tərəfdarları nəzarət edirdi.

Eyni zamanda aktiv siyasi fəaliyyətə qatılıb, 2005 seçkilərində 31 deputat yeri qazanıb. 2010-cu il parlament seçkilərində 325 yerlik parlamentdə Sədr qrupu 40 mandat qazanıb. Ancaq siyasi hakimiyyətə iddia etməyib, lakin bunun əvəzinə 2012-ci ildə Sədr tərəfdarlarını Maliki hökumətinin korrupsiya fəaliyyətlərinə qarşı etiraza səsləyib. Sonrakı iki ildə İraqda "Ərəb baharı" olmasa da, bunun əvəzinə Suriyada başlayan müharibə İraqa da öz təsirini göstərib və İŞİD meydana çıxıb. 2014-cü ildə Sədr də digər siyasətçilər kimi tərəfdarlarına səfərbərlik çağırışı etsə də, 10 il əvvəl Amerika işğalı zamanı olduğu kimi "Mehdi ordusu" yenidən meydana çıxmayıb. Bunun əvəzində yaratdığı "Səraye Salam" qruplaşması "Həşdi Şabi"yə qoşulub. Həmin il Sədr özü də siyasi fəaliyyətdən çəkildiyini bəyan edib. Lakin Sədr hərəkatına məxsus "əl-Əzva" televiziyası, "əl-Əhd" və "Quran Natiq" radioları, "əl-Hədəf" jurnalı, həmçinin şəhid Sədrə bağlı bir neçə Quran mərkəzinin fəaliyyətini davam etdirəcəyi bildirildi.

Builki seçkilərdə isə Sədr İraq kommunistləri ilə ittifaq quraraq seçkilərə qatılıb. Ancaq bundan əvvəl o, İranın İraq üzərindəki təsirini sərt şəkildə tənqid edib, eləcə də İraqla münasibətlərində ciddi soyuqluq olan Səudiyyə Ərəbistanına səfər edərək vəliəhd-şahzadə Məhəmməd bin Salmanla görüşüb. Bu isə İraqda Sədrin İrana arxa çevirərək Səudiyyə ilə yaxınlaşması barədə şayiələrə səbəb olub. Ancaq Sədr özü bəyan edib ki, onun məqsədi İran və Səudiyyəni barışdırmaqdır.

Bazar günü keçirilən seçkilərdə Sədrin gözlənilmədən birinci nəticə göstərməsi yenidən Səudiyyə ilə yaxınlığı mövzularını gündəmə gətirib. Sədrin qələbəsində İranın İraqdakı rəqiblərinin, o cümlədən Səudiyyə Ərəbistanı və Qərb ölkələrinin rolu müzakirə olunur. Doğrudur, Sədr Qərb əleyhdarıdır. Ancaq onun ər-Riyadla yaxınlaşması üzərində ciddi şübhələrin yaranmasına səbəb olub. Hər halda, bütün bunlar yaxın 90 gün ərzində aydınlaşacaq. Hələliksə Sədr və tərəfdarları seçki qalibiyyətini bayram edir. Yeri gəlmişkən, müşahidələrə görə, əvvəlki seçkilərlə müqayisədə budəfəki seçkilərdə İraqda məzhəb və etnik amillərdən daha çox siyasi və ideoloji xətt daha ağır olub. Yeni insanlar seçimlərində məzhəblərdən daha çox siyasi şüar və vədlərə yönəliblər. Bu isə Yaxın Şərq üçün kiçik də olsa ümiddir.

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**


## "Nar" yeni "Avropa" paketini təqdim etdi

**"Nar" tamamilə yeni "Avropa" paketini təqdim etdi. Hər bir anı dostlarla paylaşmaq üçün artıq xaricdə Wi-Fi axtarmağa ehtiyac yoxdur. Belə ki, bu fürsətdən istifadə edərək Avropanın bir çox ölkələrinə internetlə bərabər səyahət etmək və rominqdə hər 1 MB üçün cəmi 2 qəpik ödəyərək internetdən bolluca faydalanmaq olar. Trafik 200 MB təşkil edir, paketin qiyməti isə 4 AZN-dir.**




**Paketə *777#078#YES yığaraq və ya "şəxsi cabinet" vasitəsilə qoşulmaq mümkündür. Qeyd edək ki, paketi istənilən qədər sifariş etmək olar və paket çərçivəsində sifariş edilən bütün bonuslar toplanır. Paketdən istifadə müddəti 15 gündür. Bu müddət tamamlanmadan trafik bitərsə, hər 1 MB-ın dəyəri 30 qəpik təşkil edəcək. Paketin istifadə müddəti bitdikdə, hər 1 MB-ın dəyəri zonaya uyğun hesablanacaqdır.**

**Bonusları yoxlamaq üçün *777#20#YES yığmaq lazımdır. "Europe" və ya "Avropa" yazıb 777 nömrəsinə göndərərək, həmçinin nar.az internet səhifəsinə daxil olaraq paket barədə əlavə məlumat əldə etmək olar.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

YENİ MÜSAVAT
N 105 (6994) 15 may 2018

# İŞİD Fransadan niyə əl çəkmir...

## Son bir neçə ildəki Paris terrorlarının ardıcıllığı və ilginc səbəbləri

**Parisin mərkəzində şənbə günü axşam bıçaq hücumu törətmiş şübhəli şəxs 1997-ci ildə Rusiyanın Çeçenistan Respublikasında doğulmuş Fransa vətəndaşıdır. Bu barədə BBC-yə mənbələr bildirib. Media vasitələrində həmin adamın adı Həmzət Asimov kimi çəkilib.**

Hücumçu bir kişini öldürdükdən və 4 nəfəri yaraladıqdan sonra polis tərəfindən güllələnib. İŞİD hücumun arxasında durduğunu bəyan edib. Fransa prezidenti Emmanuel Makron hadisədən sonra öz twitter səhifəsində Fransada növbəti dəfə qan töküldüyünü yazaraq vurğulayıb ki, “azadlıq düşmənlərinin qarşısından bir addım da geriçəkilmə olmayacaq”.

Son 3 ildə Fransada İŞİD qrupu tərəfindən qızışdırılan cihadçıların əlindən 230 adam ölüb. Strateq.az bildirir ki, Çeçenistanın rəhbəri Ramzan Kadırov bu terrorçunun adının Həsən Əzimov olduğunu və Çeçenistanda doğulduğunu etiraf edib. Lakin onun hərəkətinin məsuliyyətini Əzimovun üzərinə qoyub: **“Həsən Əzimov Çeçenistanda doğulub, amma o, fransız cəmiyyətinə böyüyüb, onun baxışları və əqidəsi Fransada formalaşıb”.**

İŞİD-in xəbər agentliyi 21 yaşlı çeçen Xamzat Azimovun terror təşkilatına sədaqət andı içməsi ilə bağlı videonu yayımlayıb. FaktXeber.com-un verdiyi məlumata görə, kadrlardan görünür ki, Azimov videokadrlarda əvvəlcə İŞİD liderinə and içir, sonra isə təşkilatın bütün dünyadakı tərəfdarlarına müraciət edir. Xüsusən Fransa, Almaniya və İngiltərədəki, həmçinin başqa ölkələrdəki həmfikirlərinə müraciət edərək İŞİD-in nəzarətində olan ərazilərə köçməyə, bunu edə bilməyənlərə isə olduqları ölkədə qətliama çağırır. Qeyd edək ki, artıq Qroznıda Hamzat Azimovun qohumları istintaqa cəlb olunublar.

Azimovun ailəsi Fransaya 2002-ci ildə köçüb. Orada məktəbi bitirdikdən sonra tibb kollecinə daxil olub və ölənə kimi orada oxuyub. Xamzatın anası Parisdə qulluqçu işləyib, ailə hər il Çeçenistandakı qohumlarını ziyarət edib. Gənc qapalı həyat tərzi keçirib, az dostu olub. Asudə vaxtının çox hissəsində kompüter oyunları oynayırmış.

Bu arada İŞİD Fransada niyə terror hücumu həyata keçirdiyini açıqlayıb. “Yeni Müsavat” xatırladır ki, bu, İŞİD-in Fransada törətdiyi ilk irimiqyaslı terror hadisəsi deyil. Bundan öncə dəfərlərlə Paris küçələri qana bulanıb və İŞİD törətdiyi terroru hər dəfə boynuna alıb. Məsələn, 2016-cı ildə terror təşkilatı peyğəmbərin təhqirinə və Fransanın Suriyadakı hava hücumlarında iştirak etdiyinə görə terror aktlarının həyata keçirildiyini bəyan edib. Təşkilat hücumların Fransanın hazırkı siyasəti davam etdirdiyi müddətə qədər davam edəcəyini bildirib. Bu terror aktının isə onların Fransaya bir xəbərdarlıq mesajı olduğunu deyiblər.

İŞİD-ə yaxın saytlar terror aktını “Avropanın 11 sentyabrı” kimi şərh ediblər. Parisdə isə hücumu həyata keçirən terrorçulardan biri həbs edilərkən “Mən İŞİD-in üzvüyəm” deyə şüar səsləndirib.

2016-cı ildə Fransanı qana bulayan terror aktı nəticəsində polisin açıqladığı rəqəmlərə görə, 128 nəfərin öldüyü bildirilmişdi. Amma qeyri-rəsmi məlumatlarda ölü sayının 153 olduğu qeyd edilirdi. Həmin vaxt Fransada matəmə səbəb olan terror aktları “Bataclan” incəsənət mərkəzində və onun kon-



sert zalında, həmçinin “Kamboca” restoranında, “Le Karilyon” və “Bellek Ekip” barlarında, “Les Halz” ticarət mərkəzində, Fransa və Almaniya arasında futbol üzrə yoldaşlıq matçının keçirildiyi yerlərdə baş verib.

Hücumdan sonra Rusiya da daxil olmaqla, bir çox dövlətlər Fransaya uçuşları təxirə salmaqla yanaşı, Fransada yerləşən səfirliklərin də təhükəsizlik tədbirlərini gücləndiriblər. Hətta Polşa hökuməti terror aktlarının baş vermə qorxusu ilə dövlət sərhədlərini miqrantların üzünə bağlayıb.

2017-ci ilin 9 avqustunda Fransanın paytaxtı Parisdə növbəti terror aktı baş verib. Şəhərin qərbindəki şəhərətrafı Levallois-Perretdə əsgərlərin üstünə maşın sürülüb. Levallois bələdiyyəsinin sədri hücum zamanı BMW markalı avtomobilin bölgədə səhər kazarmadan yeni çıxaraq sıra düzülüşündə olan əsgərləri hədəfə aldığını söyləyib. Həmin ilin iyun ayında məşhur “Champs Elysees” bulvarında bir maşın jandarm avtobusunu vurmuşdu. Hücum edən şəxs hadisə yerində ölmüşdü.

Yenə iyun ayında bir şübhəli şəxs məşhur Notre Dame Katedralı yaxınlığındakı polisə çəkiclə hücum etmişdi. Polis hücum edən şəxsə atəş açaraq onu dayandırmışdı.

“Champs Elysees”də həmin ilin aprel ayında bir polis silahla vurulmuşdu və bu hücumu İŞİD öz üzərinə götürmüşdü.

2018-ci ilin mart ayında Fransanın Treb şəhərində supermarketə hücum etmiş terrorçu öldürülüb. Bu barədə Fransanın daxili işlər naziri Jerar Kolon öz Twitter səhifəsində yazıb. O bildirib ki, insanları girov götürmüş terrorçu güllələnib. Danışıqlar nəticə vermədikdən sonra xüsusi təyinatlı dəstələr əməliyyat keçirib və terrorçu məhv edilib. Qeyd edək ki, hadisə zamanı 3 nəfər ölüb, daha bir neçə nəfər yaralanıb. Belə ki, məlumata görə, terrorçu Treb şəhərində silahlı hücum həyata keçirməzdən əvvəl bir sürücünü qətlə yetirib və onun maşınını qaçırıb. "O, ağ rəngli "Opel" markalı avtomobilin sürücüsünə başından atəş açıb. Həmin maşında supermarketə yollanıb və daha iki nəfəri qətlə yetirib, bir qrup insanı girov saxlayıb", - deyə məlumatda qeyd olunur. Terror aktını törədən şəxsin Mərakeş vətəndaşı və radikal dini qruplaşmanın üzvü olduğu bildirilir. Məlumata görə, terrorçu bundan öncə Parisdə törədilmiş terror aktının əsas təşkilatçılarından olmuş şəxsin həbsdən azad edilməsini tələb kimi irəli sürüb.

Fransa İŞİD-ə qarşı NATO dəstəkli aparılan hava əməliyyatına ən böyük dəstəyi verən ölkələrdən biridir. Hava əməliyyatı zamanı İŞİD çox ciddi itki verib. Eyni zamanda Antalyada baş tutan zirvə də İŞİD-in gələcəyi üçün çox önəmlidir. Çünki buradan çıxan qərara əsasən, Amerika, Rusiya, AB, Çinin də İŞİD-dən qurtulmaq istədiyi üzə çıxıb. Bütün ayrı qütbləri bir araya gətirən İŞİD bunun fərqindədir. Bu səbəbdən də bütün dünyaya “Məni Suriyada vursanız da, mən ölkənizdə sizi vuraram” mesajını vermək istəyir.

Bu təşkilata qoşulanların çoxunun əsas funksiyası həm də canlı bomba olmaqdan ibarətdir. Təl-Əviv Universitetinin israilli professoru Ariel Merari 50-dən artıq canlı bomba barədə sosial araşdırma aparıb. Araşdırmada nə ortaq bir xarakter, nə də patoloji bir şəxsiyyət özəlliyi üzə çıxarılıb. Amma bütün bu qatillərdə ən önəmli oxşarlıq onların heç diqqət cəlb etməmələri olub. Ağla gələn sual isə “Onlar da sizin, bizim kimi insanlardırmı”dır. Xarici görünüş etibarilə elədir. Amma onların ortaq psixoloji durumu var: “Narsist” bir ruh halı, “uc nöqtələrdə yaşamağı sevməsi”, intihar öncəsi sindroma düşmələri...

Terror təşkilatları qurbanları seçən zaman sentimental, spontan qərarlar verməyi sevən, təsir altına düşən tiplərə üstünlük verirlər. Bundan başqa, onların cəmiyyətdə özlərinə yer tapa bilməyən tiplər olması arzuedilməndir. Aksiyaçıların içində özünü fəda etmə, bir qəhrəman olma duyğusu ön plana çıxa bilir. Bundan başqa, ciddi şəkildə sosial təzyiqi də yaddan çıxarmaq olmaz. Təzyiqin ana xətti aşağıdakı kimidir: **“Bunu həyata keçirmədiyin zaman qrupun içində hörmət görən bir insan kimi yaşama şansın yoxdur”.**

Ekspertlər isə hesab edirlər ki, cihada yardım etmək adı ilə İŞİD-ə qoşulanlar bir qaydada olaraq sonradan qıfıl altında qalır və ancaq oradakı hərbçi kişilərə qulluq edirlər. İŞİD-çilər qadınları, gənc qızları ora cəlb etmək üçün internet, xüsusən də sosial şəbəkələrin gücündən istifadə edirlər. Cəlbedici reklam rolikləri, yüksək keyfiyyətli videolar, kompüter oyunları bu məqsədlə hazırlanır, sosial şəbəkələrə buraxılır. Necə deyərlər, onlar internet çatından, forumdan çıxmadan insanların arzu-istəkləri ilə oynayır, onları öz tərəflərinə çəkirlər.

❑ **Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

# Yəhudilər 2 min illik arzularını reallaşdırdılar

## Qüds yenidən yəhudi paytaxtı oldu, fələstinlilər isə yenə də daşla müqavimət göstərdilər



**İsrail dövlətinin qurulmasının 70 illiyi, gözlənildiyi kimi, aksiyalarla yadda qalıb. Fələstinlilərin Qəzzadan başlatdığı yürüşə İsrail ordusu silahla müdaxilə edib. Nəticədə 50-dən çox fələstinli öldürülüb, 1000-dən artıq insan isə yaralanıb. Ölü və yaralı sayının artacağı gözlənilir. Bununla da “geri dönüş yürüşü”nün başladığı 30 martdan bu yana ölən fələstinlilərin sayı 70-i keçib.**

İsrail ordusu hərbçiləri yürüş keçirən fələstinlilərə qarşı həqiqi güllələrdən istifadə edir. Əməliyyata İsrail ordusu baş qərargah rəisi Qabi Eizenkot rəhbərlik edir.

Qeyd edək ki, ötən ilin dekabrında ABŞ prezidenti ölkəsinin Təl-Əvivdəki səfirliyini Qüdsə köçürməklə bağlı qərar qəbul edib. Daha doğrusu, 1995-ci ildən bu yana qəbul edilən, ancaq icrası dayandırılan qərarı icra etməklə bağlı göstəriş verib. Ötən gün twitter hesabından status paylaşan Tramp bu günü “İsrail üçün böyük gün” adlandırıb və izləyicilərini Fox telekanalından İsraildəki açılış mərasimini canlı şəkildə izləməyə çağırıb. Yerli vaxtla saat 15-də başlayan mərasimdə Trampın qızı İvanka və kürəkəni, eyni zamanda məsləhətçisi olan yəhudi əsilli Cared Kuşner iştirak edib.

Qeyd edək ki, Qüds şəhəri 1947-ci il BMT qətnaməsinə əsasən tərəfsiz şəhər statusu alıb, ancaq sonrakı illərdə İsrail əvvəlcə Qüdsün şərq hissəsini, 1967-ci ildən sonra isə qərbini ələ keçirib. İsrail hökuməti 1980-ci ildə qəbul edilən qərara əsasən İsrailin “bölünməz paytaxtı” elan edib. Ancaq dünyadan gələn təpkilərə görə heç bir ölkə səfirliyini Təl-Əvivdən Qüdsə köçürmək istəməyib.

Bu addımı ilk atan ABŞ-ın hazırkı prezidenti Donald Tramp oldu. Məhz bu səbəbdən İsrail hökuməti üzərində Donald Trampın və yəhudilərin xilaskarı, ikinci məbədi bərpa etdirən Əhəməni şahı Kuruşun rəsmi olan dəmir pullar buraxıb. Yeri gəlmişkən, Kuruş yəhudi tarixində və müqəddəs kitablarında adı keçən iki əcnəbi padşahdan biridir və yəhudilərin xilaskarı hesab olunur. Hazırkı İsrail rəhbərliyi Trampı məhz Kuruşla müqayisə edərək yəhudilərə öz müqəddəs şəhərlərini geri qaytarmış şəxs kimi təqdim ediblər. Tramp özü isə canlı bağlantı ilə çıxış edəcək.

O da məlum olub ki, hələlik ABŞ-ın Qüdsdəki konsulluğu müvəqqəti olaraq səfirlik funksiyasını həyata keçirəcək. Şəhərdə yeni və daha geniş ərazi tapıldıqdan sonra yeni səfirlik binası tikiləcək.

Avropa ölkələri mərasimə qatılmayacaq. Ancaq bir sıra dünya ölkələrinin, o cümlədən Avropadan Macarıstan, Ruminiya və Çexiyanın təmsilçiləri mərasimdə iştirak edib. Bazar günü təşkil olunan qalada çıxış edən baş nazir Netanyahu bildirib ki, istənilən halda Qüds İsrailin paytaxtı olaraq qalacaq. Netanyahu prezident Trampa da Qüdslə bağlı qərarına görə təşəkkür edib, deyib ki, İsrail və ABŞ heç zaman olmadığı qədər yaxın müttəfiqdir. Eyni zamanda o, qalaya qatılan 32 dövlətə müraciət edərək səfirlikləri Qüdsə daşımağa çağırıb və əlavə edib ki, bu addım sülhü daha da yaxınlaşdıracaq.

Qüdsün İsrailin paytaxtı kimi tanınması ABŞ-ın öz səfirliyini bu şəhərə köçürməsi ilə rəsmiləşir. Ya da başqa cür desək, rəsmiləşmə prosesi başlayır. İsrail buna 40 ildən sonra nail olur. İstənilən halda bu tarixi bir hadisədir. Yəhudilər 2 min ildən sonra Qüdsü yenidən İsrail dövlətinin, yəni bir yəhudi dövlətinin paytaxtı kimi rəsmiləşdirirlər. Aradan keçən 2 min il ərzində İkinci Məbədin romalılar tərəfindən yandırılmasından sonra dünyaya səpələnib və dövlət qura bilməyiblər. 19-cu əsrin sonlarında yenidən yəhudi dövləti qurmaq ideyası yarandıqdan sonra dünyadakı yəhudilərin Fələstinə köçürülməsi prosesi başlayıb. Uzun sürən mübarizədən sonra 1948-ci ildə İsrail dövləti yaranıb. Ancaq ötən 70 il 4 böyük müharibə və onlarla hərbi toqquşmalar yaşayan İsrail dövləti ərazilərini Fələstin torpaqları, yəni BMT qərarı ilə yaradılmalı olan Fələstin dövləti ərazilərini hesabına böyüdüb. İndi isə yəhudilər müqəddəs kitablarında yer almış ideyanı reallaşdırıblar, bu İsrailin nəzərində böyük hadisədir.

Ancaq fələstinlər bu günü “Nəkba”, yəni “fəlakət günü” adlandırırlar. İndi isə bu tarixi fəlakət gününün rəsmiləşməsi baş verdi. Ərəblər isə hələlik yuxudadır. Dünən hadisənin miqyasının böyüməsindən sonra Ərəb Dövlətləri Liqası təcili toplantı çağırıb. Ancaq “təcili” adı verilən toplantının məlum qərarla əlaqədar olması gülüncdür. Aydın məsələdir ki, ciddi qərar gözlənilmir, hazırda bölünmüş, müharibələrdən yorulmuş ərəb ölkələrinin bir qismi İsraillə anlaşmanın tərəfdarı kimi çıxış edir. Misir, Səudiyyə Ərəbistanı, Bəhreyn, BƏƏ kimi ölkələr açıq şəkildə İsraillə barışığın tərəfdarı olduqlarını bəyan ediblər. Görünən odur ki, ərəb cəmiyyəti barışmağa məcbur olacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU, “Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 105 (6994) 15 may 2018



## Sevdiyi qızı arabada min kilometr daşıdı

Çinin Qansu əyalətində yaşayan bir kişi öz sevgilisini araba ilə min kilometr boyunca daşıyıb. Bu barədə South China Morning Post nəşri xəbər verib. 41 gün əvvəl cütlük Qansu əyalətindən çıxıb və Çinin Vayxay şəhərinə yola düşüb. Bu şəhər də dəniz kənarında yerləşir. Onlar Vayxayı keçiblər və Xenanda yerləşən Çjençjou şəhərinə çatıblar. Məqsədlərinə çatmaq üçün onlar daha min kilometr məsafə qət etməlidilər. Kişi isə bildirib ki, onun sevgilisi çoxdan bəridir ki, dəniz görməyi arzu edirdi: “Bir neçə il öncə mən söz verdim ki, onu araba ilə daşıyacam. İndi də o sözü yerinə yetirirəm”. Kişi deyib ki, sevgilisi sözünü tutacağı halda onunla evlənməyə söz verib.

Səfərin böyük hissəsini qız onunla yanaşı gedir və ancaq yorulanda arabaya minir. Sevgilisi yorulanda da onlar yerdəyişmə edirlər və qız onu arxasınca daşıyır. Onların dediyinə görə, onlar yolda mənzərənin də dadını çıxarırlar. Pis havalarda onlar hotellərdə qalırlar.

2017-ci ildə isə Çində bir cütlüklə bağlı daha maraqlı bir olay baş vermişdi. Belə ki, toyuna gəlməyən bəyi gəlin küçədə sürümüşdü. Bu olaya bağlı internetdə yayılan videoda görünürdü ki, gəlin toy paltarındadır və arxasınca gələn bəyi bir zəncirə bağlayıb, sürüyür. Baş verən hadisəni isə çoxlu sayda insan izləyir.

# Xəyanətin üstü aeroportda açıldı

Kolumbiyanın Jose Maria Cordova Beynəlxalq aeroportunda bir qadın öz ərini sevgilisi ilə yaxalayıb. Tətilə getmək üçün təyyarəyə minməyə hazırlaşdığı vaxt qadın onları yaxalayıb və dava qoparıb. Baş verən qalmaqallı anlar başqa bir sərnişin tərəfindən cib telefonuna çəkilib. Qadın ərinə və onun sevgilisinə həqarət edəndən sonra digər qadının saçlarından tutaraq sürükləyib. Kişi isə sevgilisini arvadının əlindən qurtarmağa çalışarkən aralarında söz davası başlanıb. Qadın ərinə “məni tətilə aparacağını demişdin, amma indi bu qadınla tətilə çıxırsan” deyərək bağırıb. Qadın eyni zamanda ona mane olmağa çalışan ərinə də “həbsə girmək istəyirsənsə, məni döy” deyib. Aeroport işçilərinin hadisəyə müdaxilə edib-etmədiyi və hadisə ilə bağlı kiminsə həbs olunub-olunmadığı isə bilinmir.



# Qanı ilə 2.4 milyon körpənin həyatını xilas edib

80 yaşındakı Ceyms Harrison qanında tapılan nadir bir antitel sayəsində doğum zamanı qan zəhərlənməsi yaşayan körpələrə həyat verib. O, 2003-cü ildə Ginnesin Rekordlar Kitabına düşüb. C.Harrison 14 yaşında ikən əməliyyata girib və ağciyərinin bir qismi kəsilib. Harrison saatlarca davam edən əməliyyatdan sonra üç ay boyunca xəstəxanada qalıb. Ona qan verildiyi üçün həyatı xilas olan Ceyms Harrison böyüyəndə donor olmağa söz verib. Qan vermə yaşı 18 olduğu üçün gözlədi və 18 yaşında da bu sözünü tutub. Qan bankında aparılan araşdırmanın ardınca Harrisonun qanında uşaq ölümlərinin qarşısını ala biləcək bir antitelin olduğu üzə çıxıb.

İlk plazma 1967-ci ildə istifadə edilib. Harrisonun qanından milyonlarla doza Anti-D enjeksiyası hazırlanıb. Məhz bu addımı sayəsində Harrison 2.4 milyon körpənin həyatını xilas edib. Anti-D Proqramı Koordinatoru Robin Barlou, “Avstraliyada hazırlanan hər Anti-D ampulasının içində Ceyms var” deyib. Mütəxəssislər Harrisonun qanındakı antiteli kiçik yaşlarında qan köçürmə etməsi ilə əlaqələndirirlər.





## Pizzanı dağın zirvəsinə apardı

Amerikanın Pizza Hut restoranlar şəbəkəsi Ginnesin Rekordlar Kitabına düşməyə nail olub. Buna səbəb onların Klimancaro zirvəsinə pizza çatdırmaları olub. Restoranın Afrika şöbəsinin baş meneceri Randell Blekford, şəbəkənin əməkdaşları, professional bələdçilər “Pepperoni” pizzasını 5.8 min metr yüksəkliyə qaldırıblar. Bununla da onlar pizzanı quruda ən yüksək yerə çatdırıb və rekorda imza atıblar. Komandanın səfəri dörd gün davam edib. Səyahətin videosu isə YouTube kanalında yayılıb. Şəbəkənin prezidenti Millinda Pantın dediyinə görə, bununla da yeni bir mərhələyə qədəm qoyublar. Pizza Hut - dünyadakı ən böyük pizza şəbəkəsidir. 1958-ci ildə əsası qoyulub.




QOÇ - Astroloji göstəricilər iştirakçısı olduğunuz prosesləri nəzarətdə saxlamaq üçün gücünüzün yetəcəyini bəyan edir. Bu isə gün ərzində sizi bütün uğursuzluqlardan qoruyacaq.

BUĞA - Dünəndən mənfi enerjili Ay bürcünüzdə qərar tutduğu üçün ümumi ovqatınız aşağı ola bilər. Odur ki, səbrli olub yalnız Tanrıya sığının. Vaxt olsa, mütləq ziyarətgahlara baş çəkin.

ƏKİZLƏR - Adətən həftənin bu təqvimi sizin üçün zəngin keçir. Odur ki, özünüzdə güc tapıb bədbinləşməməli, hər bir məqamdan zövq almağa çalışmalısınız. Bu gün mərhəmətli və işlək olun.

XƏRÇƏNG - Yalnız özünüzə aid işlərə baş qoşun. Əks təqdirdə, ətrafınızda olanların yanında hörmətinizi itirə bilərsiniz. Hər addımda Tanrını başınız üstündə hiss edin. Duaları əsirgəməyin.

ŞİR - Siyasi yönümlü hadisələrdən başqa bütün sahələrdə uğurlar sizi qoynuna alacaq. Fəaliyyətdə, ünsiyyətdə və maliyyə məsələlərində qənaətbəxş məqamlar yaşayacağınız gözlənilir.

QIZ - Yarımçıq qalmış öhdəliklərinizi yerinə yetirməyə tələsin. İlk növbədə ünsiyyətdə səmimi olun ki, ətrafınızdakılar sizə inansın. Maddiyyata çox da aludə olmayın.

TƏRƏZİ - Artıq planetiniz olan Venera aktivlik nöqtəsindədir. Bu isə enerjinizin daha da artması deməkdir. Bu səbəbdən gözlənilən neqativlikləri dəf edəcəksiniz. Çətin məqamlarda dostlara güvənin.

ƏQRƏB - Bu gözəl təqvimdə bütün ixtiyar öz əlinizə veriləcək. Necə deyərlər, nəyə layiqsinizsə, o da olacaq. Şəxsi münasibətlərdə yalandan istifadə etməyin, “dərdli adam” obrazı yaratmayın.

OXATAN - İnsanlarla nə qədər mülayim davransanız, ulduzlar da sizi bir o qədər xoşhal edəcək. Bir də üzərinizə düşən öhdəlikləri başqalarının üzərinə atmayın. Nahar vaxtı maksimum səbrli olun.

OĞLAQ - İxtiyarınızda olan bu təqvimdə hörmət qazanmaq başlıca vəzifəniz olmalıdır. Başqalarında nöqsan axtarmaqdansa həmrəylik yaradın. Doğmalarınıza qarşı yersiz ittihamlara son qoyun.

SUTÖKƏN - Səhər saatlarını sakit tərzdə başa vursanız, ulduzlar nahardan sonra ovqatınızı yüksəldəcək. Pulunuza qənaət edin ki, kisəniz vaxtından tez boşalmasın. Davranışlarda məxfiliyə riayət edin.

BALIQLAR - Pula böyük ehtiyac duysanız da, şəxsi büdcənizi artırmaq üçün neqativ üsullardan yararlanmamalısınız. Hər şeyin öz vaxtı var. Nahar ərəfəsində yersiz mübahisələrdən qaçın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Xırda pul əvəzinə... hədiyyə...



Amerikada da belə hadisələr baş verirmiş. Coanna Bas adlı qadın marketdə alış-veriş etdikdən sonra 115 dollarlıq hesabı ödəmək üçün kassaya yaxınlaşıb. Bütün pulu xırda olduğu üçün kassir ondan pul almaqdan imtina edib: “Get, kağız pulla gələrsən” cavabından sonra Coanna market rəhbərliyinə şikayət edib. Bu mədəniyyətsizliyi kompensasiya etməkdən ötrü qadına dəyəri 17 dollar olan hədiyyə çeki verilib. Amma etirazçı qadın geri qayıdanda bütün mallarının kassadan rəflərə geri qaytarıldığını görüb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.